Xalqın qəzeti!

# Xalq qəzeti

№ 167 (30283) 9 avqust 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


## Günün sözü

**Prezident İlham Əliyev:**

Mədəniyyətimizin gələcək inkişafı, cəmiyyətdə mövcud olan ovqat, gənc nəslin tərbiyə olunması, bütün bu məsələlər bir-biri ilə bağlıdır. Ölkə iqtisadi cəhətdən inkişaf edə bilər, siyasi cəhətdən də beynəlxalq mövqeləri güclü ola bilər, ancaq əgər biz xalqımızın əsas, təməl prinsiplərini diqqətdən kənarda qoysaq, onda ölkəmizin uğurlu inkişafı dayanıqlı ola bilməz.

# Mədəniyyətimiz dövlətin diqqət və qayğısı ilə tam əhatə olunub

## Prezident İlham Əliyev Xalq artisti Rasim Balayevə "İstiqlal" ordenini təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Xalq artisti Rasim Balayevə "İstiqlal" ordenini təqdim edib. Dövlətimizin başçısı əvvəlcə Xalq artisti Rasim Balayev ilə söhbət etdi.**

**Rasim Balayev:** Salaməleyküm.

**Prezident İlham Əliyev:** Salam, xoş gördük.

**Rasim Balayev:** Mənim bir arzum var idi ki, Qarabağdan sonra, işlərinizdən sonra Sizi qucaqlayım. Çox şükür ki, bizə qismət oldu.

**Prezident İlham Əliyev:** Sağ olun. Sizi, ilk növbədə, yubileyiniz münasibətilə təbrik edirəm. Sizə cansağlığı, yeni uğurlar arzulayıram.

(ardı 2-ci səhifədə)

# Regional inkişaf davamlı iqtisadi islahatlar nəticəsində əldə edilir



**Azərbaycanda 2004-cü ildən indiyədək uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına müsbət təsir göstərib, bununla da ölkəmizin strateji inkişaf hədəflərinə nail olunmasına əhəmiyyətli töhfə verib.**

Regional proqramların uğurla icrası dövründə kənd və qəsəbələrin, şəhərlərin siması köklü şəkildə dəyişib, əhalinin paytaxta axını səngiyərək əks proses başlayıb, rayonlarda işləməyə və yaşamağa üstünlük verənlərin sayı getdikcə artıb.

Sonuncu "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində həyata keçirilən layihələr nəticəsində yüksək göstəricilər əldə edilib. Regionlarda infrastruktur tədbirlərinin icrası, o cümlədən yol-nəqliyyat, elektrik, qaz və su təchizatı sistemlərinin yenilənməsi işləri davam etdirilib.

(ardı 3-cü səhifədə)

# Liddellin 103 il əvvəlki məqaləsi: erməni avantürizmi və təkrarlanan tarix

*Britaniyalı müəllif keçmişə ibrət işığı salır*



**Əslində 103 il əvvəl – 8 may 1920-ci ildə müəllifi Şotland Liddell olan və Britaniya həftəliyi "The Graphic"də dərc edilmiş "Ermənilər müsəlmanlara qarşı" sərlövhəli məqalədəki faktların tariximizin bir parçası olduğunu bilirik.**

(ardı 5-ci səhifədə)

# Qarabağ və Gürcüstanda müharibənin 15 ili



**"Biz inanırıq ki, bu məsələnin tərəfi olmayan digər ölkələrin hər hansı şərhinə baxmayaraq, sülh razılaşması əldə edilə bilər. Buna nail olmaq üçün tərəflərlə işləməyə davam edəcəyik. Biz bu ölkələrlə birbaşa əlaqə saxlayırıq". Bu fikirləri ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller Azərbaycan–Ermənistan sülh prosesini şərh edərkən dilə gətirib.**

Əlbəttə, Millerin "məsələnin tərəfi olmayan digər ölkələr" şərhi maraq doğurmaya bilməz. Çünki Rusiya rəsmiləri də tez-tez Cənubi Qafqaza aidiyyatı olmayan tərəflərin bölgədə sülh prosesinə zərər gətirdiklərindən söz açmaqdadırlar. Məsələn, ölkənin Xarici işlər naziri Sergey Lavrov iyulun 25-də azərbaycanlı və ermənistanlı həmkarları ilə görüşdən sonrakı bəyanatında Bakı və İrəvan təmsilçilərinin dünyanın müxtəlif bölgələrindəki görüşlərinin nəticələrini şübhələndirmiş və həmin görüşlərdə sülh sazişi ilə bağlı razılaşmanın əldə olunduğuna dair təqdimatları yalnız pafos məhsulu kimi dəyərləndirmişdi. Sual yaranır: Cənubi Qafqaza aidiyyatı olmayan tərəf və ya tərəflər kimlərdir?

(ardı 4-cü səhifədə)

# İqtisadi artım düzgün idarəetmənin məhsuludur



**Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz son 20 ildə sürətli inkişaf yolu keçib. Azərbaycanda qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra önəmli layihələr reallaşdırılıb.**

Bütün bu tədbirlərin uğurlu nəticəsi statistik göstəricilərdə də öz ifadəsini tapıb. Belə ki, cari il iyunun 30-na Azərbaycan Dövlət Neft Fondunun aktivləri ilin əvvəlinə (49 milyard 33,6 milyon ABŞ dolları) nisbətən 12 faiz artaraq 54 milyard 915,1 milyon ABŞ dollarına çatıb. Bu ilin yanvar-iyun ayları ərzində isə Fondun büdcə gəlirləri 11 milyard 701,4 milyon manat, büdcə xərcləri isə 2 milyard 680,8 milyon manat təşkil edib.

(ardı 7-ci səhifədə)

# Bəzi dairələr Ermənistanı illüziya bataqlığına sürükləyir

**ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller Ermənistanla Azərbaycan arasında aparılan danışıqlar prosesini şərh edib. Cənab Millerin nə söylədiklərinə diqqət yetirəcəyik. Hələlik isə onu deyək ki, Dövlət Departamentinin sözçüsünün fikirləri Bakı-İrəvan danışıqlar prosesinin, bir növ, dalana dirəndiyi zaman kəsiyinə təsadüf edir. Hazırda elə görüntü var ki, sanki sülh ritorikası yerini anti-Azərbaycan təbliğatına verib. Müəyyən qüvvələrin ermənipərəstlik damarı tutub. Bu fonda Bakının qəddar və anti-insani obrazı formalaşdırılır. Belədə sual yaranır: Azərbaycanla sülhü müzakirə etməyə dəyərmi?**



Əslində, Ermənistanın istəyi də budur ki, Azərbaycanı danışıq aparmaq qabiliyyətində olmayan, ancaq hərbə-zorbaya üstünlük verən tərəf qismində göstərsin. Bu təqdimat ona prosesdən yayınmaq, vaxt qazanmaq və bölgədə yeni reallıqlar formalaşdırmaq üçün hava-su kimi lazımdır.

İrəvan rəsmiləri mətləbdən uzaqlaşaraq, Azərbaycanın haqlı istəklərinin gerçəkləşməsinə maneçilik törətməyi düşünürlər. Yazımızda bunun üçün onlara müxtəlif xarici qüvvələrin dəstəyindən söz açacağıq. Ancaq indi Millerin açıqlamasına qayıdaq.

(ardı 4-cü səhifədə)

# Ədalətə divan tutanlar



Səhifə ⇨ 8

# Kino: problemə baxış cəhdi



Səhifə ⇨ 10

# Fransanın müstəmləkə sisteminin süqutu davam edir

Səhifə ⇨ 11

# Prezident İlham Əliyev Xalq artisti Rasim Balayevə "İstiqlal" ordenini təqdim edib

*(əvvəli 1-ci səhifədə)*



**Rasim Balayev:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Siz Azərbaycan xalqını öz sənətinizlə uzun illərdir ki, sevindirirsiniz. Fəaliyyətiniz çox məhsuldardır, onlarla filmdə çəkilmisiniz. Ümumiyyətlə, Azərbaycanın kino sənətinə çox böyük töhfə vermisiniz və bu fəaliyyət davam edir. Mən buna çox sevinirəm, çox şadam.

**Rasim Balayev:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Siz, eyni zamanda, ölkəmizin ictimai həyatında da çox fəalsınız. Çox dəyərli fikirləriniz ölkəmizin ümumi inkişafına dəstəkdir. Təbii ki, sizin kino fəaliyyətiniz Azərbaycan xalqı üçün Babək, Nəsimi obrazları ilə də bağlıdır. Xalq qəhrəmanımız Babəkin, dahi şairimiz Nəsiminin obrazlarını siz canlandırmısınız və Azərbaycan xalqının təsəvvüründə də onlar elə sizin obrazınızdır.

Mən sizi ürəkdən təbrik etmək, sizə cansağlığı, uzun ömür arzulamaq istəyirəm. Azərbaycan dövləti sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir, həm sovet dövründə bir çox mükafatlarla təltif olunmusunuz...



**Rasim Balayev:** Rəhmətlik Ulu Öndərimiz 50 yaşımdan həmişə mənim qayğıma qalıb.

**Prezident İlham Əliyev:** Bəli, elədir.

**Rasim Balayev:** Bunu da Siz davam etdirirsiniz.

**Prezident İlham Əliyev:** Qeyd etdiyiniz kimi, müstəqillik dövründə də 50 illik yubileyinizdə sizi "Şöhrət" ordeni ilə təltif etmişdir.

**Rasim Balayev:** Siz isə "Şərəf" ordeni.

**Prezident İlham Əliyev:** Bəli, mən "Şərəf" ordeni ilə. Bu yubiley ərəfəsində də siz yüksək ordenimiz olan "İstiqlal" ordeni ilə təltif edilmisiniz. Sizi bir daha təbrik edirəm.

**Rasim Balayev:** Təşəkkür edirəm, cənab Prezident. Dediyim odur ki, mən Sizin apardığınız bütün siyasəti – daxili və xarici siyasəti dəstəkləyirəm. Möhtəşəm Qələbə də Sizin adınızla bağlıdır. Mən xalqın arasında oluram, bütün təbəqələrlə görüşürəm, Siz öz adınızı tarixə bir Ali Baş Komandan kimi, elə əsl Babək kimi yazdınız. Əsl Babək Sizsiniz, biz onun obrazını oynayırıq.

Bu mükafat Azərbaycan sənətinə, sənətkarlara verilən qiymətdir. Biz başda Siz – Ali Baş Komandan olmaq şərtilə qəhrəmanlarımızı, qazilərimizi mütləq kino xətti ilə vəsf etməyə borcluyuq. Bu, bizim borcumuzdur, biz gərək bunu edək.

Mən Sizin bütün bu fəaliyyətinizi bir vətəndaş kimi dərindən izləyirəm və Sizə çox böyük inamımız var. Ad gününüzü rayonlarda, Qarabağda camaatla birlikdə qeyd edirsiniz.

**Prezident İlham Əliyev:** Bəli, sağ olun.

**Rasim Balayev:** Bütün bunları hamı, millət görür. Mən Sizə bu yolda uğurlar diləyirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Rasim Balayev:** Yenə də deyirəm, cənab Prezident, biz Sizə borcluyuq. Sizə və xalqımıza borcluyuq ki, bu gözəl, möhtəşəm Qələbəni biz kino vasitəsilə vəsf etməliyik. Çünki Qələbə, müharibədəki qəhrəmanlıqlar, orada iştirak edən qazilərin fədakarlığı hər yerdə göstərilməlidir. Mən bir-iki dəfə Şuşaya getmişəm, inanın gözlərim yaşarıb. Çünki mən 1986-cı ildə də getmişdim, orada İsa bulağının yanında ailəvi şəkil çəkdirmişdik. Sonra da 2021-ci ildə getdim. Bu xoşbəxtliyi bizə Siz bəxş etmisiniz. Siz deyirdiniz ki, bizim güclü Ordumuz var, mən nəyin və nə vaxt olacağını yaxşı bilirəm. Siz, nəhayət, bu uğuru gətirdiniz. Xalq Sizi çox sevir.

**Prezident İlham Əliyev:** Çox sağ olun, Rasim müəllim.

**Rasim Balayev:** Biz həmişə dövlətimizin, dövlətçiliyimizin arxasındayıq və gələcək işlərimizdə Sizin bu diqqətinizə layiq olmağa çalışacağıq. Mən inanıram ki, Sizin və xalqımızın sevdiyi filmləri yenidən çəkəcəyik.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

***

Dövlətimizin başçısı "İstiqlal" ordenini Rasim Balayevə təqdim etdi.

***AZƏRTAC***

# 74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü ildə Bakı şəhərində keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Müəyyən edilsin ki, 74-cü Beynəlxalq Astronavtika Konqresi ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində qeyd edilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2023-cü il sentyabrın 20-dən oktyabrın 7-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

**2.** Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. 74-cü Beynəlxalq Astronavtika Konqresinin beynəlxalq təşkilatçısı olan Beynəlxalq Astronavtika Federasiyasının müvafiq qaydalarına uyğun olaraq elektron qeydiyyat sistemi vasitəsilə qeydiyyatdan keçməni təsdiq edən sənəd;

2.2. 74-cü Beynəlxalq Astronavtika Konqresi ilə əlaqədar Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin rəsmi dəvət məktubu.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. 74-cü Beynəlxalq Astronavtika Konqresi ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə Beynəlxalq Astronavtika Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. 74-cü Beynəlxalq Astronavtika Konqresi ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

**4.** Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 74-cü Beynəlxalq Astronavtika Konqresi ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 avqust 2023-cü il**

# İranlı qonaqlar Baş prokurorluqda



**Dünən İran İslam Respublikası Baş prokurorunun təhlükəsizlik və siyasi məsələlər üzrə müavini Mehdi Əmiri İsfahaninin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri başlayıb.**

Qonaqları qəbul edən Kamran Əliyev ötən il avqustun 30-da İran İslam Respublikasına səfəri çərçivəsində prokurorluq və ədliyyə orqanlarının rəhbər şəxslərilə qarşılıqlı görüşlərdə hər iki ölkə vətəndaşlarının hüquqlarının qorunması, sərhəd, gömrük, ekoloji, cinayət işləri üzrə hüquqi yardım və digər məsələlər barədə aparılan müzakirələrin qurumlararası fəaliyyətə müsbət təsirini qeyd edib.

Qəbul zamanı ölkəmizin İrandakı səfirliyinə qarşı törədilmiş terror aktı ilə əlaqədar Azərbaycan və İranın aidiyyəti qurumlarında istintaq olunan cinayət işləri barədə qarşılıqlı fikir mübadiləsi aparılıb.

Baş prokuror İran tərəfindən cinayət işinin tam və hərtərəfli araşdırılmasının, bütün iştirakçıların müəyyən edilərək məsuliyyətə cəlb olunmasının, habelə, hüquq-mühafizə orqanları əməkdaşlarının hadisə vaxtı göstərdiyi fəaliyyətsizliyin, bu terror aktının törədilməsinin səbəb və hallarının yoxlanılmasının, cinayəti törətmiş və cinayətlə əlaqəsi olan bütün şəxslərə qanunla nəzərdə tutulmuş layiqli cəzanın verilməsinin zəruriliyini vurğulayıb.

Mehdi Əmiri İsfahani cari ilin yanvar ayında Azərbaycanın Tehrandakı səfirliyinə edilmiş hücumdan təəssüf hissi keçirdiyini bildirərək, Azərbaycan xalqına, hadisə nəticəsində şəhid olmuş və zərərçəkmiş şəxslərin ailə üzvlərinə başsağlığı verib. Bundan başqa, o, cinayət işinin istintaqının gedişatı barədə ətraflı məlumat verərək qısa müddət ərzində istintaqın tamalanaraq iş üzrə qanuni qərarın qəbul olunmasının təmin ediləcəyini və təqsirli şəxslərin layiqli cəza alacağını bildirib.

Daha sonra nümayəndə heyəti Baş Prokurorluğun yeni inzibati binası, həmçinin Zəfər muzeyi ilə tanış olub.

Nümayəndə heyətinin səfəri davam edir.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

# İşçi Qrupu növbəti dəfə Laçında toplanıb

**Laçında işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.**



İclasda "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəqliyyat və rabitə infrastrukturunun bərpası, tikintisi və yenidən qurulması üzrə qarşıya qoyulan tapşırıqların icrası ilə bağlı görülmüş işlər və gələcək planlara dair aidiyyəti qurumların məlumatları dinlənilib, layihələrin icrası ilə bağlı mövcud imkanlar, qarşıya çıxan çətinliklər və onların həlli yolları geniş müzakirə edilib.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, İşçi Qrupunun rəhbəri Rəhman Hümmətov qeyd edib ki, Dövlət Proqramının Tədbirlər Planında avtomobil və dəmir yollarının bərpa və tikintisi, yeni hava limanlarının tikintisi kimi strateji layihələr yer alıb: "Bunlardan artıq bir neçəsi – Zəfər yolu, Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolu, Füzuli-Hadrut avtomobil yolu, Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarının tikintisi uğurla icra olunub. Laçın Hava Limanının tikintisi üzrə işlər sürətlə davam etdirilir, hazırda layihə üzrə işlərin ümumi icra vəziyyəti 32 faiz təşkil edir".

Nazir müavini hazırda ümumi uzunluğu 1965,5 kilometr olan 16 layihə üzrə avtomobil yollarının tikintisi işlərinin qrafikə uyğun aparıldığını və bunların da əksəriyyətinin respublika əhəmiyyətli yollar olduğunu diqqətə çatdırıb. O, həmçinin Laçın şəhərinə əhalinin böyük qayıdışına başlanması ilə əlaqədar görülən işlərdən danışıb, işğaldan azad edilmiş ərazilərdə radio-televiziya yayımı, mobil rabitə və sabit telekommunikasiya şəbəkəsi üzrə görülmüş və planlaşdırılan işlər barədə iclas iştirakçılarını məlumatlandırıb.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Prezidentin xüsusi nümayəndəsi Məsim Məmmədov, Prezident Administrasiyasının nümayəndəsi Elmir Vəlizadə, Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Əvəz Qocayev, həmçinin digər iştirakçılar çıxışlarında işğaldan azad edilmiş ərazilərdə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən infrastruktur layihələrinin həyata keçirilməsindən, yeni salınacaq yaşayış məntəqələrinə əhalinin köçürülməsi və məşğulluğunun təmin edilməsindən danışıblar.

# Azərbaycan – Özbəkistan: energetika sahəsində əlaqələr uğurla inkişaf edir



**"Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında energetika sahəsində əməkdaşlıq üzrə İşçi qrup"un ilk iclası Daşkənddə keçirilib.**

Energetika Nazirliyindən bildirilib ki, iclasda çıxış edən İşçi qrupunun həmsədri, nazir müavini Samir Vəliyev iki ölkə arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu, dövlət başçılarının qarşılıqlı səfərlərinin energetika sahəsində əməkdaşlığın uğurlu inkişafı üçün möhkəm zəmin yaratdığını qeyd edib.

İşçi qrupun Özbəkistan tərəfdən həmsədri nazir müavini Akmal Cumanazarov isə Azərbaycan-Özbəkistan arasında energetika sahəsində əlaqələrin inkişafından, bu istiqamətdə müxtəlif dövlət qurumlarının sıx fəaliyyətindən bəhs edib, əməkdaşlığın hazırkı səviyyəsini yüksək qiymətləndirib.

İclasda Azərbaycan və Özbəkistan arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun icrasından irəli gələn məsələlər, energetika sahəsində əməkdaşlığın genişləndirilməsinə dair Yol Xəritəsinin icrası üzrə görülən nəticəyönümlü tədbirlər nəzərdən keçirilib, iki ölkənin energetika nazirlikləri və "Узбекнефтегаз" ilə SOCAR arasında imzalanması nəzərdə tutulan saziş layihələri və digər məsələlər ətrafında müzakirələr aparılıb.

***"Xalq qəzeti"***

# Hərbi kəşfiyyat sahəsində əməkdaşlıq müzakirə olunub

**Avqustun 8-də Azərbaycanın müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Baş Qərargahının Kəşfiyyat rəisi general-polkovnik İsmayıl Günaydının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Tərəflər hər iki ölkənin orduları arasında qarşılıqlı münasibətlərin, eləcə də hərbi kəşfiyyat sahəsində əməkdaşlığın inkişaf etdiyini xüsusi qeyd ediblər.

Görüşdə iki qardaş ölkə arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.



# Regional inkişaf davamlı iqtisadi islahatlar nəticəsində əldə edilir



(əvvəli 1-ci səhifədə)

Ümumiyyətlə, regionlarının sürətli tərəqqisi respublikada reallaşdırılan davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu istiqamətdə qəbul edilən və uğurla gerçəkləşdirilən dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulan vəzifələrin gerçəkləşdirilməsi respublikada qeyri-neft sektorunun davamlı inkişafına, yerlərdə kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına, nəticədə isə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan verib.

Prezident İlham Əliyevin avqustun 7-də Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfəri bir daha göstərdi ki, əvvəllər olduğu kimi, sonuncu (2019–2023-cü illər) regional proqramda da nəzərdə tutulan tədbirlərin uğurla həyata keçirilməsi Azərbaycanın yuxarıda adları çəkilən rayonlarının hər birinin malik olduğu özünəməxsus təbii, maddi əmək resurslarından, coğrafi, nəqliyyat-kommunikasiya imkanlarından səmərəli istifadə edilməsi, yoxsulluğun səviyyəsinin aşağı salınması, məşğulluq problemlərinin həlli üçün kifayət qədər əlverişli zəmin yaradıb. Sənəddə sosial, infrastruktur, aqrar sahələrin inkişafı ilə bağlı tədbirlər, yeni iş yerlərinin yaradılması ilə əlaqədar layihələr xüsusilə diqqətdə saxlanılıb. Nəticədə respublikanın ərzaq təhlükəsizliyinin təmin edilməsi, əhalinin sosial şəraitinin daha da yaxşılaşdırılması istiqamətində mühüm irəliləyiş əldə olunub.

Bu fikrin təsdiqi olaraq Prezident İlham Əliyevin səfər çərçivəsində açılış mərasimləri gerçəkləşən bir sıra obyektlərə nəzər salaq. Məsələn, dövlətimizin başçısının Qazaxda fəaliyyətə başlayan "Venzana" mebel fabriki barədə məlumat verilərək bu obyektin "Saloğlu" mebel istehsalı müəssisəsinin nəzdində yaradıldığı bildirilib və orada buraxılan məhsulların daxili bazarın tələbatını ödəməklə yanaşı, həm də ixrac edildiyi vurğulanıb. Eyni zamanda, fabrikin illik istehsal gücünün 14 min 260 mebel dəstinə çatdığı və hazırda müəssisədə 425 nəfər işlə təmin olunduğu qeyd edilib.

Yeni mebel fabrikinin işə salınması ilə bağlı məlumatda diqqətçəkən iki məqamı xatırlatmaq istərdik:

–respublikamızın digər bu təmayüllü sənaye müəssisələrində olduğu kimi, burada da istehsal fəaliyyətinin genişləndirilməsi məqsədilə Sahibkarlığın İnkişafı Fondunun güzəştli kreditindən yararlanılıb;

–digər dəstək mexanizmi kimi, müəssisəyə İqtisadiyyat Nazirliyi tərəfindən "Müasir mebel istehsalının qurulması" layihəsi üzrə investisiya təşviqi sənədi verilib. Bunun nəticəsində fabrik tərəfindən 8,4 milyon manat dəyərində texnika, texnoloji avadanlıq və qurğular idxal olunub, fabrik 1,8 milyon manat məbləğində vergi və rüsumlardan azad edilib.

Ümumiyyətlə, bu cür istehsal müəssisələrinin işə salınması, onların ən müasir avadanlıqla təchiz edilməsi ölkəmizdə sənaye sahəsinin inkişafına əhəmiyyətli dərəcədə töhfə verir. Bu, həm də daxili bazarın tələbatını ödəmək baxımından müstəsna əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin Qərb bölgəsinə səfəri çərçivəsində istismara buraxılan Qazax şəhərinin su təchizatı və kanalizasiya sistemləri də mühüm əhəmiyyəti ilə diqqət çəkir. Bu münasibətlə keçirilən mərasimdə dövlətimizin başçısına verilən məlumatdan aydın oldu ki, sözügedən layihə Azərbaycan Hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən "Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı" çərçivəsində reallaşdırılıb. Eyni zamanda, bu təşəbbüs 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla, Qazax şəhərində 26 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədi daşıyıb.

Yeri gəlmişkən, icrasına 2019-cu ildə başlanılan sözügedən layihə çərçivəsində Ağstafa rayonu ərazisində 12 subartezian quyusu qazılıb və 7,8 kilometr uzunluğunda artezianlararası su xətti inşa olunub. Buradan isə Qazax şəhərinə 8,9 kilometr uzunluğunda magistral su kəməri çəkilib. Qazax şəhəri yaxınlığında hər birinin tutumu 5 min kubmetr olan iki su anbarı da tikilib, şəhər ərazisində 119 kilometr uzunluğunda paylayıcı su şəbəkəsi inşa olunub. İnvestisiya hesabına ümumilikdə 8 min 224 ünvana birləşmə verilərək sayğaclar quraşdırılıb. Bundan savayı, şəhər ərazisində 83 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi, 3,8 kilometr uzunluğunda kanalizasiya kollektoru inşa edilib. Tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 10 min kubmetr olan tullantı sutəmizləyici qurğu tikilib.

Dövlətimizin başçısının açılışında iştirak etdiyi Qazax rayonunda yenidən qurulan Qarapapaq-Çaylı avtomobil yolu da mühüm önəm daşıyır. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına görə, bu avtomobil yolu uzun müddət təmirsiz istifadə edildiyindən, həmçinin təbii amillərin təsirindən yararsız vəziyyətdə olub. Vətəndaşların rahat gediş-gəlişi məqsədilə avtomobil yolu əsaslı şəkildə yenidən qurulub, 14 mindən çox əhalinin normal hərəkəti təmin olunub, yük və sərnişin daşınması asanlaşıb.

Bundan başqa, rayonun Qazax-Yuxarı Əskipara avtomobil yolunun 13-cü kilometrliyindən ayrılan Fərəhli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Prezidentinin sərəncamına uyğun olaraq görülən yenidənqurma işləri də yekunlaşıb.

Beləliklə, adları çəkilən yolların tikintisi kəndlərdə yaşayan əhalinin mənzil başına tez və rahat çatmasına, həmçinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının bazarlara, eyni zamanda, digər satış məntəqələrinə vaxtında çatdırılmasına şərait yaradıb.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

## Ekspert rəyi

**Emin BAĞIROV,**
**ETN Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru**



Prezident İlham Əliyevin Qərb bölgəsinə səfəri ilə bağlı bir məqamı xüsusilə qabartmaq istərdim. Bu, respublikamızda avtomobil yolları sektorunda irihəcmli layihələrin icrasının uğurla həyata keçirilməsi ilə əlaqədar məsələdir. Xatırladım ki, ölkədə yol infrastrukturuna belə önəm verilməsi təsadüfi deyil. Çünki hansı bölgəyə, şəhər və qəsəbəyə yol çəkilirsə, həmin ərazidə yeni infrastruktur yaradılır, investisiya cəlb olunur, bir sözlə, bu, bölgədə həyatın, sözün əsl mənasında, canlanmasına gətirib çıxarır. Nahaq yerə demirlər ki, müasir yol dövlətin iqtisadi qüdrətini nümayiş etdirməklə yanaşı, həm də yeni həyatın başlanğıcıdır.

Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Dövlət İnvestisiya Proqramında magistral yolların çəkilişinin davamı və yeni yolların çəkilişinin başlanması mühüm yer tutur. Biz son illər ərzində bu sahədə də çox işlər görmüşük, magistral yollarımızı böyük dərəcədə bərpa edə bilmişik və yeni yollar salınıbdır. İndi bütün magistral yollarda işlər gedir və bu işlər artıq tamamlanır. Bununla bərabər, şəhərlərarası yolların çəkilişi də gedir. Hız artıq bir neçə ildir ki, kənd yollarının çəkilişi ilə çox ciddi məşğul olmağa başlamışıq. Bütün rayonlarda bu layihələr icra olunur. Bu layihələrin icrası rayonlardan gəlmiş sifarişlər, əhalidən gələn müraciətlər əsasında təşkil edilir. İlk növbədə, biz çalışmışıq ki, əhalinin ən çox məskunlaşdığı kəndlərimizi yeni yollarla təmin edək. Bu məqsədlər üçün həm dövlət büdcəsindən, həm Prezidentin Ehtiyat Fondundan böyük həcmdə vəsait ayrılır...".

Yol tikintisindən danışarkən, bir məqamı da xatırlatmaq istərdik. Belə ki, son illər ərzində respublikamızda beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı məqsədilə magistral yolların yenidən qurulması diqqət mərkəzində saxlanılıb. Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolu layihəsinin icrası bunun bariz ifadəsidir. Bu magistral beynəlxalq nəqliyyat dəhlizinin ölkəmizin ərazisindən keçən tərkib hissəsi olmaqla, Avropa-Asiya və Yaxın Şərq ölkələri ilə əlaqələrin inkişafında mühüm rol oynayır. Layihə tam reallaşdırıldıqdan sonra Şərqdən Qərbə və əks istiqamətdə Böyük İpək yolunun Azərbaycandan keçən hissəsi olan bu yol Avropa ilə Asiya arasında avtomobillə beynəlxalq və daxili yükdaşımaların artmasında önəmli rol oynayacaq.

Prezident İlham Əliyevin Qərb bölgəsinə səfər zamanı Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun Gəncə-Qazaxbəyli hissəsinin istifadəyə verilməsi də yuxarıda vurğulanan fikrin təsdiqinə çevrildi. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən yenidən qurulan 130,15 kilometrlik bu yolun dörd hərəkət zolağına genişləndirilməsi və sürətin artması ilə vətəndaşların rahat və təhlükəsiz gediş-gəlişi təmin ediləcək.

Beləliklə, Prezidentin yuxarıda adları çəkilən rayonlara səfəri bir daha göstərdi ki, son 20 ildə regionların inkişafı, əhalinin sosial müdafiəsinin beynəlxalq standartlara uyğunlaşdırılması və sosial şəraitinin yaxşılaşması, neft gəlirlərindən qeyri-neft sektoruna yönəldilməklə və modern texnologiyalara əsaslanılmaqla yeni və qabaqcıl sənaye sahələrinin yaradılması istiqamətində mühüm uğurlar əldə edilib. Ölkə boyu nəhəng tikinti-quruculuq və abadlıq işləri davam etdirilib, çox sayda sosial obyektlər tikilib, təhsil, mədəniyyət, səhiyyə, idman, turizm, ekologiya sahələrində böyük irəliləyiş baş verib. Görülən işlər və nəticələr deməyə əsas verir ki, Azərbaycan dünyaya özünün uğurlu inkişaf modelini təqdim edə bilib və qısa zaman kəsiyində ölkəmizdə, sözün əsl mənasında, inqilabi yeniləşmə və tərəqqiyə nail olunub.

# Qərəzli siyasi məqsədlərə xidmət edilməməlidir

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva BMT-nin İnsan Hüquqları Şurasının bəzi xüsusi məruzəçilərinin və müstəqil ekspertinin Xankəndi-Laçın yolundakı vəziyyətlə bağlı yayılmış bəyanatına cavab verib. Ombudsman bununla bağlı açıqlamasında bildirib:**



"30 il ərzində Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına, bir milyondan çox qaçqın və keçmiş məcburi köçkün insanların fundamental hüquq və azadlıqlarının kobud şəkildə pozulmasına, etnik təmizləmə, genosid və digər müharibə cinayətlərinə, itkin düşmüş dörd minə yaxın azərbaycanlının taleyinə, Azərbaycan torpaqları işğaldan azad edildikdən sonra keçmiş məcburi köçkünlərin öz doğma evlərinə geri qayıtmasına ciddi maneə olan mina terroruna hər hansı bir reaksiya verməyən, susqunluq nümayiş etdirən və ya bilərəkdən göz yuman BMT-nin xüsusi məruzəçilərinin və ekspertlərinin qərəzli siyasi məqsədlərə xidmət edən və həqiqəti əks etdirməyən bəyanatlar verməsi ilk olaraq BMT tərəfindən müəyyən edilmiş norma və prinsiplərin heçə sayılması və ikili standartlar kimi qiymətləndirilməlidir...

BMT-nin İnsan Hüquqları Şurasının bəzi xüsusi məruzəçilərini və müstəqil ekspertini bir daha öz fəaliyyətlərini BMT tərəfindən müəyyən edilmiş prinsiplərə uyğun həyata keçirməyə, ikili standartlardan yol verməməyə, regionda sülh quruculuğu prosesinə maneə törədən və vəziyyətin gərginləşməsinə şərait yaradan bəyanatlar verməkdən çəkinməyə, bölgədə davamlı olaraq təxribatlar törədən Ermənistana qarşı təsirli tədbirlər görməyə, Azərbaycanın sülh və təhlükəsizliyin təmin edilməsi üçün sərgilədiyi səylərə dəstək verməyə çağırırıq".

**Qəzənfər QASIMOV,**
**"Xalq qəzeti"**

# Ermənistandakı əsir hərbçilərimizdən xəbər var

**BQXK nümayəndələri Ermənistanda saxlanılan əsir hərbçilərimizə – Aqşin Bəbirova və Hüseyn Axundova yenidən baş çəkiblər. Təşkilatın Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, onlara telefon və Qızıl Xaç Məktubları vasitəsilə ailələri ilə əlaqə yaratmaq imkanı verilib.**

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən ordumuzun itkin düşmüş iki əsgəri Ermənistan tərəfindən əsir götürülüb və həbs ediliblər.

**"Xalq qəzeti"**

# Dövlət Komissiyası Birinci Qarabağ müharibəsi şəhidinin cəsədi ilə bağlı yayılan məlumatlara aydınlıq gətirib

**Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Birinci Qarabağ müharibəsində şəhid olmuş Həsənov Rəhman Əhliman oğlunun cəsədinin tapılması və ekshumasiya edilməsi ilə bağlı KİV-lərdə yayılan məlumatlara münasibət bildirib.**

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar
Dövlət Komissiyası

Komissiyanın məlumatında bildirilib: "Mətbuat nümayəndələrinin çoxsaylı sualları nəzərə alınaraq, Birinci Qarabağ müharibəsində itkin düşdüyü bildirilən şəhid Həsənov Rəhman Əhliman oğlunun cəsədinin 31 ildən sonra tapılması və ekshumasiya edilməsinə dair kütləvi informasiya vasitələrində yayılmış məlumatla bağlı tərəfimizdən araşdırma aparılıb. Məlum olub ki, Həsənov Rəhman Əhliman oğlu 1992-ci ildə Ermənistan silahlı qüvvələrinə qarşı döyüşdə qəhrəmancasına həlak olub və nəşi elə həmin vaxt döyüş bölgəsindən götürülərək Laçın rayonunun Suarası kəndində dəfn edildiyi üçün Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında itkin düşmüş şəxs kimi qeydiyyat alınmayıb. Bu günlərdə onun məzarının ətrafında yaxınları tərəfindən təmizlik və abadlıq işləri aparılıb.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası həssas xarakter daşıdığını nəzərə alaraq, itkin düşmüş şəxslər mövzusunda yoxlanılmamış məlumatların yayılmamasını xahiş edir".

**"Xalq qəzeti"**

# Bəzi dairələr Ermənistanı illüziya bataqlığına sürükləyir

## Bu durumda vasitəçilərin səmimi davranışına ciddi ehtiyac var. Əks halda…

(əvvəli 1-ci səhifədə)

Bəli, hazırda Vaşinqton, obrazlı desək, okeanın ortasındakı tək adadır və Cənubi Qafqazda sülhün yaranacağına inanır. Daha doğrusu, Birləşmiş Ştatlar, belə demək mümkünsə, dəryadakı sülh ağacından möhkəm-möhkəm yapışıb. Amma Millerin açıqlamasından görünən budur ki, ABŞ-ın əlini həmin ağacdan buraxmasını istəyənlər də var və belələrinin məqsədi ümumən sülh prosesini pozmaqdır. Amma, "Biz inanırıq ki, bu məsələnin tərəfi olmayan digər ölkələrin hər hansı şərhinə baxmayaraq, sülh razılaşması əldə edilə bilər. Buna nail olmaq üçün tərəflərlə işləməyə davam edəcəyik. Biz bu ölkələrlə birbaşa əlaqə saxlayırıq".

İlk baxışdan yaranmış təəssürat budur ki, rəsmi Vaşinqtonun açıqlamaları Ermənistan üçün illüziya tanımır. Ancaq ölkə illüziyalara qapıla-qapıla getməkdədir. Bu gedişatda başlıca rolu bəzi beynəlxalq dairələr oynamaqdadır. Əlbəttə, sırf erməniprərət baxışları ilə seçilənləri bir kənara qoyuruq. Onların mövqeləri aydındır – nəyin bahasına olursa-olsun İrəvanı haqlı, məsum, Bakını isə haqsız, zalım və qəddar qiyafəsində tanıtmaq.

Məsələn, belələrindən biri Böyük Britaniyanın Lordlar Palatasının üzvü, Baronessa Keralayn Koksdur. Xanım Koks beynəlxalq aktorları Azərbaycanın hədsizlik kimi qiymətləndirdiyi hərəkətlərinə son qoymağa çağırıb. Onun fikrincə, Bakının davranışları Qarabağ ermənilərini aclığa və soyqırıma məruz qoymağı hədəf seçib. Koks deyib ki, Azərbaycanın bölgədə qaz təchizatını tamamilə və ya qismən kəsməsindən 142, elektrik enerjisinin verilişinin tamamilə dayandırmasından isə 180 gün keçir. Görürsünüz də onu necə dəqiq təlimatlandırıblar…

Ötən əsrin 90-cı illərindən Qarabağa səfərlər etməklə populyarlaşmış ermənipərəst qarı onu da bildirib ki, Azərbaycanın, guya, bölgənin enerji təminatına vurduğu zərbə nəticəsində məktəblər ərzaq qıtlığı səbəbindən bağlanmağa məcbur olub, yayılan videolarda gündəlik ehtiyacları ödəmək üçün qida, dərman və avadanlıqla tam təchiz edilməli olan boş vitrinlərin şokedici görüntüləri yer alır.

Məlumdur ki, həmin görüntülər hansı məqsədlə dövriyyəyə buraxılır, bu, öz yerində. Amma B.Koks daha "incə" məqamlara baş vurmaqdadır. O deyir ki, qida çatışmazlığının yaratdığı ağır sağlamlıq vəziyyətinə, həmçinin, dərman və tibbi ləvazimat çatışmazlığına, çətinliklərə və stressə görə Qarabağda vaxtından əvvəl və ölü doğum halları üç dəfə artıb. Bəli, göründüyü kimi ermənipərəst həyasızlıq sərhəd tanımır…

Bir daha bildirək ki, B.Koks və onun kimi ermənipərəstlərin iddialarını müəyyən mənada anlamaq mümkündür. Çünki onlar mövqelərini əvvəldən ortaya qoyublar. Əsl problem nüfuzlu mötəbər təşkilatların təmsilçilərinin Azərbaycan–Ermənistan münasibətlərinə yanaşmasıdır. Bu baxımdan BMT-nin xüsusi məruzəçiləri deyilən bir qrupun açıqlamasını fərqləndirmək mümkündür. Əlbəttə, BMT-nin Baş katibi Antoniu Quterreşin "Laçın dəhlizi ilə azad hərəkətlə bağlı yaranmış problemlər barədə məlumatlardan dərin narahatlıq" keçirməsinə dair bir neçə gün əvvəlki bəyanatının yanında, qurumun qida və təhsil hüququ üzrə xüsusi məruzəçiləri Maykl Fəxrinin və Fəridə Şahidin bəyanatları heç nədir. Bununla belə, bu sayaq sənədlər Ermənistandakı illüziyanı dərinləşdirir və yekunda Cənubi Qafqazda sülhün yaranmasına maneçilik törədir.

Yada salaq ki, Ermənistan BMT-nin Təhlükəsizlik Şurasının 822 (30 aprel 1993-cü il), 853 (29 iyul 1993-cü il), 874 (14 oktyabr 1993-cü il) və 884 (12 noyabr 1993-cü il) saylı qətnamələrini onillər boyu icra etməkdən boyun qaçırmışdı. Bunun nəticəsində bir milyona yaxın azərbaycanlı öz doğma torpaqlarından didərgin salınmış durumda – vaqonlarda, çadır şəhərciklərində ömür sürməyə məhkum olmuşdu. Bəli, elə o zaman da BMT özünün fəaliyyətsizliyi və acizliyi ilə Ermənistanın illüziyalara qapılmasına şərait yaratmışdı. İrəvan elə sanmışdı ki, Qarabağ və işğal edilmiş digər rayonlar əbədilik ona məxsusdur. İndi də istər Quterreş olsun, istərsə də onun xırım-xırda ekspertləri özlərinin reallıqları təhrif edən bəyanatları ilə eyni yolu tutmaqdadırlar.



Yeri gəlmişkən, BMT-nin İnsan Hüquqları Şurasının xüsusi məruzəçiləri və müstəqil ekspertinin, guya, Azərbaycan tərəfindən "Laçın dəhlizi"nin blokadada saxlandığı və "Dağlıq Qarabağ" bölgəsində "gərgin humanitar vəziyyət" yarandığı iddiası ilə çıxış etmələrinə, Azərbaycanın Xarici İşlər Nazirliyi də münasibət bildirib. Qurumun mətbuat xidməti BMT-nin orqanlarının siyasi manipulyasiya alətinə çevrilməsi cəhdlərindən təəssüfünü ifadə etməklə yanaşı, ölkəmizin üzləşdiyi işğal reallıqlarına diqqət çəkərək vurğulayıb ki, həmin şəxslərin Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməməsi, "Dağlıq Qarabağ" kimi ifadələr işlətməsi, daxili işlərimizə qarışmaları və ikili yanaşmaları qəbuledilməzdir: "Bir daha xatırlatmaq istərdik ki, Ermənistan öhdəliklərinə zidd olaraq, silahlı qüvvələrini torpaqlarımızdan tam olaraq çıxarmamaqla yanaşı, Laçın yolu vasitəsilə onların rotasiyasını həyata keçirib, silah-sursatla təchiz edib, Azərbaycanın təbii sərvətlərinin talan edilməsi ilə məşğul olub. Bütün bunlar BMT və digər beynəlxalq təşkilatlar tərəfindən susqunluqla qarşılanıb".

Azərbaycan XİN-in mətbuat xidməti ölkəmizin öz sərhədlərinə nəzarət və Ermənistanın qeyri-qanuni fəaliyyətinin qarşısını almaq məqsədilə, Laçın sərhəd-buraxılış məntəqəsini yaratdığını, Beynəlxalq Ədalət Məhkəməsinin 6 iyul tarixli qərarında bu sərhəd-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı erməni iddiasının yekdilliklə rədd edildiyini xatırladıb və bəyan edib ki, bütün bunlar bir daha Ermənistan tərəfinin iddialarının əsassızlığını sübuta yetirir. Azərbaycanın qanuni ərazilərində qaçaqmalçılıq cəhdlərinin yaşandığının, İrəvanın müxtəlif təxribatlara əl atdığının vurğulandığı açıqlamada, həmçinin Qarabağ ermənilərinin ehtiyaclarının qarşılanması məsələsinə də toxunulub: "Azərbaycanın suveren ərazilərində yaşayan erməni sakinlərin ehtiyaclarının qarşılanması məsələsinə gəldikdə isə bunun üçün Azərbaycan tərəfindən "Ağdam–Xankəndi" yolundan və digər alternativ yollardan istifadə daxil olmaqla, bir sıra təkliflər irəli sürülməsinə və onların Avropa İttifaqı, Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən dəstəklənməsinə baxmayaraq, erməni tərəfinin bu təkliflərə qarşı çıxması, alternativ yollara beton maneələr düzməklə əraziyə girişi bloklaması "humanitar vəziyyət" barədə iddialarının siyasi şantaj və manipulyasiya olduğunu bir daha göstərib".

Göründüyü kimi, Azərbaycan XİN duruma tam aydınlıq gətirməkdədir. Bu yerdə yenidən Millerin açıqlamasına qayıdaq. Bəli, onun təbirincə desək, Azərbaycan və Ermənistan arasındakı sülh prosesinin tərəfi olmayanların şərhlərini diqqətə çatdırdıq. Onu da bildirdik ki, belə şərhlər Ermənistanı illüziya bataqlığına çəkir. Bu bataqlıqda isə sülh yoxdur, boğulma var. Yəni indiki halda istər Miller, istərsə də Birləşmiş Ştatların digər rəsmiləri ölkələrinin başlatdığı prosesdə fəal mövqe tutmalıdırlar. Onlar bəşəri missiya yerinə yetirib Ermənistanı düşdüyü girdabdan çıxarmalıdırlar.

Digər tərəfdən isə İrəvana reallıqları və həqiqətləri daha uca səslə çatdırıb sülh üçün əhəmiyyətli töhfə verməlidirlər. Nəzərə almalıdırlar ki, hazırkı Ermənistan rəhbərliyi bütün hərəkət və davranışı ilə sülh prosesindən tam uzaqdır. Yaxşı olar ki, cənab Miller məhz bu məqama toxunsun.

Məsələn, vaxtilə Rusiyanın Ukraynanın Donetsk vilayətinə humanitar yardım göndərməsini ikincinin ərazi bütövlüyünə qəsd kimi qiymətləndirən Vaşinqton, indi də Ermənistanın Qarabağa humanitar yardım yollamaq cəhdini Azərbaycanın suveren hüquqlarına sayğısızlıq olaraq dəyərləndirsin. Yəni, burada görülməyəcək heç nə yoxdur. Hər şey gün kimi aydındır. Məsələyə Miller də münasibət bildirməli və deməlidir ki, Ermənistanın "Spayka" "tır"ları ətrafında yaratdığı şou yolverilməzdir. Ancaq demir, ümumi ifadələrlə məhdudlaşır. O ifadələr ki, onu Ermənistan mediası da özünə sərfəli sayır.

***

Bəli, yalnız ABŞ-ın deyil, ümumən Azərbaycan–Ermənistan münasibətlərinin nizamlamasına vasitəçilik edən tərəflərin öz missiyalarına həssas yanaşmaları son dərəcə vacibdir ki, sülh prosesi əndazədən, indiyədək əldə olunmuş müsbət nəticələr sıradan çıxmasın. Bunun üçün ancaq səmimiyyətə ehtiyac var. Səmimiyyət isə yalnız Millerin və ya qeyrisinin bəyanatları və açıqlamaları ilə ölçülmür, bütöv mahiyyət daşıyır. Əgər indiki halda, "Vaşinqton post" kimi nüfuzlu qəzet mətləbə dəxli olmadan Azərbaycanda həbs edilən iqtisadçı ekspert Qubad İbadoğlunun məsələsini Bakı-İrəvan sülh prosesində ölkəmizə təzyiq kimi qabartmaq çağırışı səsləndirirsə, deməli, səmimiyyət ya yoxdur, ya da istənilən səviyyədə deyil. Hər halda, "Vaşinqton post" adi bir nəşr deyil və zaman-zaman görmüşük ki, onun, eləcə də digər ABŞ nəşrlərinin qaldırdıqları məsələlər sonradan reallıqla fiksasiya oluna bilir. Təəssüf ki, belə qərəzli təqdimatlar Ermənistan rəhbərliyinin və ermənipərəst dairələrin əlində xal qazanmaq vasitəsinə çevrilir.

***Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"***

---



# Qarabağ və Gürcüstanda müharibənin 15 ili

## *Rusiya–ABŞ rəqabəti: ikili standartlar, qlobal təhdid və əzilən xalqların sülh həsrəti*

*(əvvəli 1-ci səhifədə)*

### Ortada Əlahəzrət tarix var

Əslində, məsələ kimin bölgə ilə daha çox bağlılığında da deyil. Lap hesab edək ki, Rusiyanın yaşadığımız regiona aidiyyatı danılmazdır. Bu, öz-özünə baş verməyib? Rusiya Qafqazda işğal reallaşdırıb və bunun nəticəsində onun əraziyə aidiyyatı amili formalaşıb. Yəni Moskva rəsmilərinin, eləcə də siyasi dairələrinin məsələni, belə demək mümkünsə, anadangəlmə bağlılıq olaraq göstərmələri yolverilməzdir. Çünki ortada çox da uzaq olmayan əlahəzrət tarix var. Deməli, indiki durumda əsas olan kimin sülh yolunda daha səmimi fəaliyyət göstərməsidir. Səmimilik varmı? Təəssüf ki, yox!

Əlbəttə, niyyətimiz tarixdə ilişib qalmaq deyil. Çox güman ki, ABŞ da Rusiyanın yerində olsaydı, eyni işğalları gerçəkləşdirəcəkdi. Başlıca məsələ indiki durumda bu iki super qütbün bir-birinə münasibətləri kontekstində yaşadığımız regionun gələcəyinin hansı əsaslarla formalaşmasıdır. Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi fonunda Moskva–Vaşinqton rəqabətinin doğurduğu nəticələri görürük. Ən böyük nəticə, daha doğrusu, nəticəsizlik sülhün olmamasıdır. Nəinki sülh yoxdur, gərginlik hökm sürməkdədir.

### Qlobal rəqabət, qlobal mövcudiyyət

Bəli, Cənubi Qafqazda gərginliyin başlıca göstəricisi Azərbaycan–Ermənistan münasibətlərinin yoluna qoyulmamasıdır. Əvvəldə də Millerin hədəfi Rusiya olan subliminal mesajını və Lavrovun şəxsində Moskvanın Vaşinqtonun, ümumən kollektiv Qərbin vasitəçiliyinə qısqanc münasibətindən söz açdıq. Ancaq nəzərə alaq ki, bölgəmizdə digər gərginlik ocaqları da var. Söhbət Gürcüstandakı Cənubi Osetiya və Abxaziya problemindən gedir.

Beynəlxalq hüquq baxımından Gürcüstan torpağı olan hər iki subyekt indiki durumda Rusiyanın işğalı altındadır. Əlbəttə, Kreml buna işğal demir və arqumentlərində özünü haqlı sayır. Ancaq yekun nəticə heç bir halda dəyişmir. Ümumən, keçmiş SSRİ-nin müttəfiq respublikalarındakı münaqişəli bölgələr - Qarabağ, Cənubi Osetiya və Abxaziya, Moldovadakı Dnestryanı, Ukraynadakı Donetsk və Luqansk – bunlar hamısı sabiq imperiyanın böyük coğrafiyadakı xalqlara qoyub getdiyi, dincliyi və əmin-amanlığı daim təhdid edə biləcək qorxunc miraslardır. Çox təəssüf ki, nəinki Rusiya rəsmiləri, eləcə də ölkənin ictimai rəyi bu miraslara qlobal mövcudiyyət faktorları kimi yanaşmaqdadır. Prinsip etibarilə Birləşmiş Ştatların, ümumən kollektiv Qərbin anti-Rusiya cəbhəsini də elə sadalanan regionlar təşkil etməkdədir.

### 15 illik işğal

Diqqət yetirək, ABŞ Dövlət Departamenti dünən, yəni avqustun 8-də Rusiyanın Gürcüstana təcavüzünün 15-ci ildönümü ilə bağlı bəyanat yayıb. Bəyanatda bildirilib ki, Birləşmiş Ştatlar Rusiyaya 2008-ci ildə imzalanmış atəşkəs razılaşmasından irəli gələn öhdəlikləri yerinə yetirməsi üçün təzyiq edəcək.

ABŞ Dövlət katibi Antoni Blinkenin Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyinin açıqlandığı bəyanatında vurğulanıb ki, 15 il əvvəl Rusiya suveren Gürcüstan dövlətinə təcavüz edərək, onun ərazisinin 20 faizini işğal edib: "Birləşmiş Ştatlar Gürcüstanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyini və ərazi bütövlüyünü ardıcıl olaraq dəstəkləyir. Rusiyanın hərəkətləri bu münaqişədən əziyyət çəkən insanların həyatını həmişəlik dəyişdi".

Bəyanatda o da bildirilib ki, Rusiyanın işğal zamanı hərəkətləri, o cümlədən Kremlin amansız dezinformasiya kampaniyaları və əhalinin kütləvi köçkünlüyü hələ də misilsiz iztirablara səbəb olur: "Ukraynada olduğu kimi, Gürcüstan xalqı da Rusiyanın beynəlxalq hüquqa hörmətsizliyinin və qonşularına hakim olmaq istəyinin nəticələrindən əziyyət çəkir.

Rusiya Gürcüstanın Abxaziya və Cənubi Osetiya regionlarının qondarma müstəqilliyini tanımaqdan imtina etməlidir. Bu tədbirlər yüz minlərlə məcburi köçkünün təhlükəsiz şəkildə öz evlərinə qayıtmalarını və ləyaqətlə yaşamalarını təmin etmək üçün vacibdir".

### İkili standartlar – Qarabağ, Cənubi Osetiya və Abxaziya

Yəqin, bəyanatda kifayət qədər açıq ifadə olunmuş fikirlərə diqqət yetirdiniz. Sual olunur: Birləşmiş Ştatlar indiyədək Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən belə bəyanat səsləndiribmi? Yox! Ağ ev otuz ilə qədər davam etmiş işğal müddətində Qarabağ və erməni təcavüzünə məruz qalmış digər torpaqlarımızla, orada yaşamış əhali ilə bağlı bu cür sərt ritorikaya üstünlük veribmi? Əlbəttə, yox!

Əvvəldə M.Millerin Azərbaycan–Ermənistan münasibətləri ilə bağlı açıqlamasını təsadüfən xatırlatmadıq. Hiss etdinizsə, orada konkret hədəf var idi. O hədəf ki, ədaləti təmin etməyə deyil, Birləşmiş Ştatların maraqlarına təhdidi aradan qaldırmağa hesablanıb. Məsələn, Miller, elə A.Blinken də indi deyə bilər ki, Qarabağ Azərbaycanın beynəlxalq hüquqla tanınmış ərazisidir və Bakı bölgənin ermənilərinə sahib çıxmaq haqqına malikdir. Ancaq mövcud məqam heç bir halda Gürcüstanla bağlı bəyanat kimi qətiyyətli səslənmir. Əslində, heç düz-əməlli dilə də gətirilmir. Yalnız arada səslənmiş haqlı məqamları və Ermənistanın anti-təbliğatından sonra, guya balans yaratmağa söykənmiş yumşaldıcı fikirləri görürük. Nəticədə Ermənistan və havadarları illüziyalara qapılır. Belədə Rusiya da düşünə bilər ki, ABŞ Azərbaycanla Ermənistan arasındakı durumun tənzimlənməsində səmimi deyil. Axı Moskvada çox yaxşı görürlər ki, Vaşinqton Gürcüstana bir, Azərbaycana bir başqa cür münasibət bildirir.

### Saakaşvilinin qeyrəti, Antonovun hiddəti və xalqların sülh həsrəti

Daha bir məqama diqqət yetirək. Yəni bir halda ki, ortada qeyri–səmimilik var, onun cavabı da eyni tonda olmalıdır. "2008-ci ilin avqustunda Gürcüstanda baş vermiş müharibə ilə bağlı ABŞ Dövlət Departamentinin bəyanatı ABŞ-ın vəziyyəti qəsdən necə alt-üst etdiyinin bariz nümunəsidir". Bu fikri Rusiyanın ABŞ-dakı səfiri Anatoli Antonov dilə gətirib. "Məqsəd aydındır: bu faciə ilə bağlı həqiqəti təhrif etmək və günahı Rusiyanın üzərinə atmaq. Lakin faktlar təsdiq edir ki, həmin hadisələrə görə bütün məsuliyyət Gürcüstanın keçmiş prezidenti Saakaşvilinin (Mixeil Saakaşvili – red.) üzərinə düşür. Məhz onun cinayətkar əmri ilə Cənubi Osetiya xalqına qarşı genişmiqyaslı müharibə başladılmışdı", – deyə Rusiya səfiri bildirib. Onun sözlərinə görə, Vaşinqtonun "bu qeyri-insani qərarının həm də ABŞ-ın özünün yanlış siyasətinin nəticəsi olduğunu" etiraf etməsinin vaxtı çatıb: "Axı hakimiyyətə gətirən, sonra isə qeyrətli Saakaşvili rejimini qeyrətlə dəstəkləyən Qərb oldu. ABŞ Ədliyyə Nazirliyinin bu yaxınlarda təsdiq etdiyi kimi o, hələ də bu fiqurun maraqları üçün lobbiçilik etməkdə davam edir".

A.Antonov onu da vurğulayıb ki, əgər ABŞ Administrasiyası, həqiqətən, regionda sülhün təmin edilməsinə sadiqdirsə, o zaman Rusiyaya qarşı ittihamları və sanksiyaları aradan qaldırmalıdır. "Ölkəmizlə Gürcüstan arasında qurulmuş əlaqələri pozmağa çalışmayın. Cənubi Qafqazda təhlükəsizlik və sabitlik üzrə Beynəlxalq Cenevrə müzakirələri çərçivəsində praktiki işə diqqət yetirmək vacibdir. İlk növbədə, Tbilisi ilə Suxumi və Sxinvali arasında gücdən istifadə etməmək haqqında hüquqi qüvvəyə malik sazişin bağlanması istiqamətində iş aparın", – deyən Rusiyanın Birləşmiş Ştatlardakı səfiri fikrini yekunlaşdırıb.

Sonda bir daha deyək ki, istər Qarabağ, istərsə də Cənubi Osetiya və Abxaziya problemləri müstəvisində sülhün əldə edilməməsi qlobal güclərin bir-birilə rəqabətinin doğurduğu acı mənzərədir. Bu mənzərənin ayrı-ayrı epizodları haqq və ədalət anlayışlarını ikinci plana atır. Nəticədə hər kəs özünü haqlı hesab edir, böyük haqlar unudulur. Durumdan əziyyət çəkən isə bölgənin xalqlarıdır. Xalqların dinc birgəyaşamı qlobal siyasi oyunların, avantürist baxışların qurbanına çevrilir. Ən böyük reallıq da elə budur, sülh yox. Çox təəssüf.

***Ə. RÜSTƏMOV, "Xalq qəzeti"***

# Liddellin 103 il əvvəlki məqaləsi: erməni avantürizmi və təkrarlanan tarix

## Britaniyalı müəllif keçmişə ibrət işığı salır

*(əvvəli 1-ci səhifədə)*

Ancaq məqaləni dəyərli edən xarici müəllifin bildiklərini qələmə almasıdır. Özü də bu müəllif avropalıdır. Yazını aktual edən daha bir məqam isə ona tarixin təkrarlanması prizmasından yanaşa bilməyimizdir.

Bəli, xalqımızın yaşadığı faciəli tarixin kiçik epizodundan söz açan britaniyalı müəllif, əslində müasir dövrümüz üçün də aktual olan məsələlərə işıq salır. Nəzərə alaq ki, 1920-ci ildə nələr olmuşdusa, XX əsrin sonlarına doğru da həmin proseslər yenidən yaşandı. Yəni, erməni millətçiliyi "aktivləşdi". Sonrası isə məlumdur: Qarabağda təxribatlar, azərbaycanlılara qarşı basqınlar, qarətlər, quldurluqlar, nəhayət otuz ilə qədər davam etmiş işğal.

"Ermənilər müsəlmanlara qarşı" məqaləsindən söz açacağıq, bu, öz yerində. Ancaq erməni avatürizminin təşkilatlanma tarixinə azacıq diqqət yetirək. Nəzərə alaq ki, 1920-ci ildə ermənilərin müsəlmanların başlarına açdıqları oyun daha əvvəl yaşanmışların təkrarı idi. Deyəsən, tarixin özü də amansızdır. Faciələri təkrarlamaqdan zövq alır. Bəlkə bizi ondan nəticə çıxarmadığımıza görə cəzalandırır. Deməli, nəticə çıxamalıyıq ki, cəzalanmayaq. Və deməli, hazırda Ermənistanla münasibətlər fonunda azacıq yumşaqlığa yol vermək haqqımız yoxdur. Yeri gəlmişkən, müəllif Liddell həm də o yumşaqlıqdan, yaxud sadəlövhlükdən söz açır. Bizə bir xalq olaraq baha başa gələn sadəlövhlükdən.

Bu yerdə Prezident İlham Əliyevin 2021-ci il aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışındakı nitqindən bir hissəni xatırlayaq: "Bütün bu illər ərzində demişdim ki, bizim torpağımızda heç vaxt ikinci erməni dövləti yaradıla bilməz. Demişdim ki, birinci erməni dövləti bizim tarixi torpağımızda yaradılıbdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri də İrəvanı Ermənistana vermək, paytaxt düzəltmək idi. Mən bunu qınamışam. Demişəm ki, bu xəyanət idi, satqınlıq idi, bağışlanmazdır. Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan xalqı qarşısında böyük xidmətləri var. Ancaq biz tarixi malalamamalıyıq, bilməliyik tarixi. Bilməliyik, 1918-1920-ci illərdə ki, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərirdi, müstəqilliyimiz yarımçıq idi. İrəvanı verdik Ermənistana. Halbuki buna o vaxt İrəvandan olan nümayəndələr etiraz edirdilər. Onların səsinə fikir verən olmamışdı. Azərbaycan Xalq Cümhuriyyəti tam hakimiyyəti təmin edə bilmirdi".

Bəli, əslində Liddellin yazdıqlarına diqqət yetirəndə də Prezident İlham Əliyevin illər sonra söylədikləri yada düşür. Ona görə dövlətimizin başçısının fikirlərini diqqətə çatdırmağı zəruri saydıq. Yeri gəlmişkən, ölkəmizin lideri oxşar məzmunlu çıxışını 44 günlük müharibədən əvvəl də etmişdi. Məsələn, cənab İlham Əliyev 2012-ci ildə Sumqayıta səfəri zamanı bildirmişdi ki, indiki Ermənistan tarixi Azərbaycan torpaqlarında yaranıb: "Bu tarixi sənəddir ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri İrəvanı Ermənistana paytaxt şəhəri kimi vermək haqqında qəbul edilmiş qərar idi".

Bəli, dediyimiz kimi, erməni avantürizminin təşkilatlanma tarixindən söz açaq. O tarixdən ki, Liddellin təsvir etdiklərinə hazırlığın rüşeymləri kimi nəzərdən keçirilə bilər. Beləliklə, XIX əsrin sonlarına doğru Şərqi Anadoluda cərəyan edən erməni terroru günlərində Rusiyanın Van, Ərzurum və Bitlisdəki konsulu olmuş general Mayevski mərkəzə hazırlayıb göndərdiyi hesabatında yazırdı ki, Osmanlı dövlətində ermənilərin, guya zülm və soyqırıma məruz qaldıqlarını Avropaya göstərmək zərurəti var idi. Mayevski xüsusi vurğulayır: "Proqram bu şəkildə idi: ancaq qan tökmək lazımdır ki, ermənilər sərbəstilik əldə etsinlər. Qan tökün ki, Avropa sizi himayə etsin".

Azərbaycan-Ermənistan münasibətlərinin hazırkı axarına, İrəvanın qaldırdığı hay-şivən ritorikasına diqqət yetirəndə, Mayevskinin bir əsrdən də artıq müddətdə yazdıqları yada düşür. Necə deyərlər, eyni dalğa, eyni koordinat. Yenə də haylar min oyundan çıxırlar ki, dünya onların avantürasına qol-qanad versin. Mayevski onu da xatırlayır ki, XIX əsrin sonlarına doğru Qərbin geniş dəstək verdiyi "erməni məsələsi" qəfildən yarımçıq qaldı. Ona görə ki, Osmanlını parçalamaq üçün "yunan məsələsi"nə üstünlük verildi. Nəticədə erməni terrorçuları taleyin ümidinə buraxıldılar.

Bunadək isə Mayevskinin "Bitlis və Van Vilayətləri Statistikada" adlı hesabatı var idi. O, həmin sənəddə erməni daşnak və hnçak dəstələrinin regionda müsəlman türklərə qarşı qırğınlarını təsvir edirdi. Bildirirdi ki, ermənilər tərəfindən türklərə qarşı həyata keçirilən qətliamların səbəbkarı, əvvəl erməni inqilabçıları-daşnaklar, sonra onları qoruyan və təşviq edən bəzi xarici dövlətlərdir.

Bəli, Qərb Osmanlıya qarşı Şərq məsələsinin davamını erməni deyil, yunan məsələsində görməyə başlayanda tale erməni millətçilərinə qarşı amansız oldu. Buna ilahi qanunauyğunluq da demək mümkündür. Çünki onların həmin illərdə Şərqi Anadoluda törətdikləri qətllərin, soyğunların, hədsizliklərin cavabı verilməli idi və verildi də. Hər halda Osmanlının öz təbəəsi olan qövmün oyunbazlığını, satqınlığını bağışlayacaq humanizmi ola bilməzdi. Bir sözlə, Şərqi Anadoludakı erməni terroru dalğasının qarşısı qətiyyətlə alındı.

Lakin tarixin sonrakı dövrlərinə, daha dəqiq desək, XX əsrin əvvəllərindəki zaman kəsiyinə diqqət yetirəndə görürük ki, erməni avantürizmi yenə də "iş başında" olub. Məsələn, Qarsda Rus Milli Şurasının üzvü olmuş A.Semyonov yazır: "205 min müsəlmandan yalnız sərhəd zolağında qalanlardır ki, o da 50 mindən çox deyildir. Ermənilər qan və göz yaşları hesabına böyük Ermənistan yaradır".

Tiflisdə rus dilində çıxan "Kaspi" qəzetinin 8 aprel 1915-ci il tarixli sayında dərc edilmiş yazıda jurnalist Türkiyənin Ərdahan mahalında törədilən qırğınları təsvir edirdi. Tiflisdə rus dilində dərc edilmiş illik "Qafqaz təqvim"ində isə bildirilirdi: "Türklərin 1914-cü ilin sonu və 1915-ci il ərzində məskun olduqları yaşayış məntəqələrində əhali qalmadığından, Ərdahan dairəsində 1915-ci ildə, Oltu dairəsində isə 1915-ci və 1916-cı illərdə siyahıyaalma keçirmək mümkün olmamışdı. Ümumiyyətlə, 1914-1915-ci illərdə Qars vilayətində 150 minə yaxın türk qətlə yetirilmişdir".

Gələk, bilavasitə Britaniya nəşrinin "Ermənilər müsəlmanlara qarşı" sərlövhəli məqaləsinə. Vurğuladığımız kimi, bu məqalə XX əsrin sonlarına doğru erməni təcavüzünün təkrarlanma mahiyyətini sübuta yetirmək baxımından əhəmiyyət daşımaqdadır. Məqalənin digər vacib tərəflərini də əvvəldə diqqətə çatdırdıq və həmin təcavüzün 1920-ci ilədək olan xronologiyasından bir-iki faktoloji fraqmenti təqdim etdik.

Şotland Liddell erməni saxtakarlığı fonunda Qarabağın tarixi və coğrafi sərvətləri barədə söz açır. O, erməni ideoloqların bölgənin siyasi cəhətdən Azərbaycanda deyil, Ermənistanda olması barədə uydurmalarının əsassızlığını sübuta yetirir. Bildirir ki, ermənilərin həmin dövrdə Qarabağın əhalisi haqqında verdiyi rəqəmlər həqiqətə uyğun deyildi. Məsələn, Tiqran Nazaryan adlı erməni siyasi avantürizmi o vaxt iddia edibmiş ki, Qarabağda 198 min erməni, 80 min tatar var. Halbuki bölgənin müsəlman əhalisinin sayı 415 min olub.

Liddell 1920-ci ildə qələmə aldığı məqaləsində, sanki xatirələrini yada saldığımız Mayevskinin fikirlərini təkrarlayır. O bildirir ki, erməni millətçiləri günahsız müsəlman kəndlilərini soyqırıma məruz qoydular. Bunun üçün xüsusi təbliğat vasitələrindən istifadə olundu. Britaniyalı müəllifin məqaləsində, eyni zamanda, Azərbaycan və Ermənistan arasında 1919-cu ildə Tiflisdə əldə olunmuş razılıqdan da söz açılıb. Bu sözaçma isə faktiki olaraq Azərbaycanın Zəngəzuru Ermənistana güzəştə getməsinin növbəti sübutudur.

Ancaq Liddell erməni avantürizminin xislətinə xas daha bir məqama toxunaraq bildirir ki, Azərbaycan qüvvələrinin Zəngəzurdan geri çəkilməsindən çox keçməmiş, erməni silahlıları yaxınlıqdakı müsəlman kəndlərinə hücuma keçdilər və 40-dan çox yaşayış məntəqəsini yerlə-yeksan etdilər. Müəllif o zamankı respublikamızın məsələyə münasibətindən bəhs edərkən, yazır ki, Azərbaycan hökuməti hadisələrin belə gedişatını çox böyük üzüntü ilə qarşıladı...

Bəli, Azərbaycan və Ermənistan arasında sülh prosesi zamanı İrəvanın yol verdiyi spekulyasiyalar fonunda tarixdə baş verənlərə nəzər salınması aktualdır. Dediyimiz kimi, eyni dalğa, eyni koordinat. Elə erməni avantürizmini dəstəkləyən qüvvələr də dəyişməyiblər. Qarşımızda isə tarixin acı reallıqlarını dəyişdirmək şansı yaranıb. Bunun üçünsə qətiyyətli və prinsipial olmalıyıq. Başda Prezident İlham Əliyev olmaqla, Azərbaycan dövlətinin gerçəkləşdirdiyi də elə budur.

***Əvəz CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Ərdoğan: Azərbaycanla əməkdaşlığımız regionda sülh üçün şərait yaradıb

**"Can Azərbaycanla sərgilədiyimiz həmrəylik sayəsində 30 il işğal altında olan Qarabağ azad edildi".**



Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada "Səfirlərin 14-cü Konfransı"nda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, bununla da Cənubi Qafqazda davamlı sülh və sabitliyin əldə olunması üçün önəmli bir fürsət yaranıb.

"Suriyanın şimalında terrorçulara qarşı aparılan hərbi əməliyyatlar cənublu vətəndaşlarımızın təhlükəsizliyini təminat altına alıb", – Türkiyə Prezidenti əlavə edib.

Azərbaycanla əməkdaşlığımız regionda sülh üçün şərait yaradıb.

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

"Azərbaycanla əməkdaşlığımız nəticəsində 30 il işğal altında olan, Azərbaycanın ayrılmaz hissəsi Qarabağ geri qaytarıldı" – deyə o qeyd edib.

Ərdoğan bildirib ki, Türkiyə Azərbaycanla bütün sahələrdə əməkdaşlıq edərək əlaqələrini daha da möhkəmləndirəcək.

# Erməni sakinlər Laçın sərhəd məntəqəsindən sərbəst keçiblər

**Qarabağın erməni sakinlərinin Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) vasitəçiliyi ilə Laçın sərhəd-buraxılış məntəqəsindən sərbəst keçidi davam edir.**



Avqustun 8-də bir qrup erməni sakin BQXK əməkdaşlarının müşayiəti ilə Laçın sərhəd-buraxılış məntəqəsindən keçərək, Ermənistandan Xankəndi istiqamətində hərəkət edib.

Erməni əsilli Azərbaycan vətəndaşlarının sənədləri keçid məntəqəsində prosedura uyğun yoxlanılaraq rəsmiləşdirilib.

Sakinlərlə yanaşı, BQXK-nın avtomobillərində dərmanlar, tibbi ləvazimatlar və digər zəruri malların keçidi üçün də şərait yaradılıb.

# Yeni fond ikitərəfli əlaqələrin inkişafına təkan verəcək

**Bişkekdə İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO-nun rəhbəri Yusif Abdullayev və Qırğızıstan Respublikasının Ticarət və Sənaye Palatasının prezidenti Temir Sariyev arasında görüş keçirilib.**




AZPROMO-dan bildirilib ki, görüşdə ölkələrimiz arasında ikitərəfli iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə olunub, iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən tikinti, kənd təsərrüfatı, sənaye, nəqliyyat və logistika, eləcə də ixracda əməkdaşlığın perspektivləri nəzərdən keçirilib. Yeni təsis olunan Azərbaycan-Qırğız İnkişaf Fondunun ikitərəfli əlaqələrinin inkişafına təkan veriləcəyi qeyd edilib.

Bununla yanaşı, görüşdə iki ölkənin biznes subyektləri arasında əməkdaşlığın inkişaf etdirilməsi müzakirə olunub, iki qurum arasında təcrübə mübadiləsinin aparılması ilə bağlı razılıq əldə olunub.

# Norveç nəşri: Azərbaycan ermənilərin bütün ehtiyaclarını ödəməyə hazırdır

**Norveçin nüfuzlu "Aftenposten" nəşrində dərc olunan "Azərbaycana qarşı əsassız ittihamlar irəli sürülür" sərlövhəli məqalədə Qarabağdakı ermənilərin guya "humanitar fəlakət"lə üzləşmələri barədə erməni yalanlarından bəhs edilib.**




Məqalənin müəllifi, Norveçdə fəaliyyət göstərən "Can" diaspor təşkilatının sədri Şervin Nəcəfpurun qələmə aldığı yazıda "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılmasından sonra Qarabağdakı ermənilərin guya blokadada qalmaları barədə əsassız iddiaları müəllifin topladığı, Qarabağdakı ermənilərin gündəlik həyatları ilə bağlı sosial şəbəkələrdəki paylaşımları ilə alt-üst edilib. Yazıda vurğulanıb ki, Azərbaycana qarşı guya Qarabağdakı erməni əhalisini qida, su, dərman, yanacaq və elektrik enerjisi ilə təmin olunmadan dünyanın qalan hissəsindən təcrid etməsi ilə bağlı əsassız ittihamlar irəli sürülür. Lakin Azərbaycan ermənilərin bütün ehtiyaclarını ödəməyə hazırdır. Azərbaycan Qarabağa malların daşınması üçün Ağdam rayonu ilə Xankəndi arasındakı açıq yoldan istifadə olunmasını təklif edir. Lakin bu təklifi qəbul etməyən ermənilərin "humanitar böhran" və "blokada" iddialarının sırf siyasi manipulyasiya olduğu xüsusi vurğulanıb. Ermənistan KİV-lərinin, eləcə də ermənilərin bəzi havadarlarının da bu siyasi manipulyasiyalardan faydalanmağa və erməni yalanlarını daha da şişirtməyə çalışdıqları bildirilib.

Ş.Nəcəfpurun Qarabağın erməni sakinlərinin gündəlik həyatları ilə bağlı sosial şəbəkələrdən topladığı paylaşımlar onların "blokada" şəraitində yaşamaları, "humanitar fəlakət" ilə üzləşdikləri yalanlarını tamamilə ifşa edir. "Xankəndi mənim sosial mediadakı axtarışlarıma əsaslansaq, arzulanan yer kimi görünür. Ümid edirəm ki, norveçli jurnalistlər araşdırma aparmaq üçün təşəbbüs göstərəcəklər", – deyə Ş.Nəcəfpur məqalədə vurğulayıb.

# İcma BMT-nin bir qrup ekspertinin qərəzli bəyanatını qınayıb

**Qərbi Azərbaycan İcması BMT-nin insan hüquqları üzrə bir qrup ekspertinin avqustun 7-si tarixli qərəzli bəyanatını qınayıb.**

BMT-nin insan hüquqları üzrə ekspertlərinin Davranış Məcəlləsinə (Code of Conduct) əsasən, onların bütün açıqlamaları faktlara, sübutlara, etibarlı mənbələrə əsaslanmalıdır. Bu mənada, İcma ekspertlərin Davranış Məcəlləsini pozaraq son vaxtlar bəzi dairələr tərəfindən aparılan anti-Azərbaycan kampaniyasının qurbanına çevrilməsindən təəssüflənir.

Qərbi Azərbaycan İcması BMT ekspertlərini Davranış Məcəlləsinə uyğun olaraq öz müstəqilliklərini, qərəzsizliklərini qorumağa çağırır. İcma Ermənistan tərəfindən öz doğma yurdlarından deportasiya olunmuş, lakin bu günə qədər də beynəlxalq ictimaiyyətin, o cümlədən BMT-nin diqqətini çəkmədiyi Qərbi azərbaycanlıları öz sıralarında birləşdirən bir İcma olaraq insan hüquqlarına münasibətdə ikili standartların, siyasiləşdirilmənin qəbuledilməz olduğunu vurğulayır.

BMT-nin insan hüquqları üzrə ekspertlərinin açıqlamasında bir sıra lüzumsuz siyasi mesajların yer alması bir daha onların öz mandatlarını aşdığını, kənardan təlimat aldıqlarını göstərir. Bu xüsusda, İcma BMT ekspertlərini insan hüquqları üzrə mandat daşıyıcıları sistemini gözdən salmamağa çağırır.

Qərbi Azərbaycan İcması BMT ekspertlərini dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmağa, yanlış terminologiya və toponimlərdən istifadə etməməyə çağırır.

# Xəzər dənizində zəlzələ olub

**Zəlzələlərin tədqiqatı bürosunun məlumatına əsasən, dünən yerli vaxtla saat 19:48-da Xəzər dənizində zəlzələ qeydə alınıb.**



Bu barədə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi məlumat yayıb.

Maqnitudası 3.2 olan zəlzələ ocağının dərinliyi 62 kilometr olub.

***X alq qəzeti"***

# İrəvanın “bazarı” bağlandı

## Gürcüstan hökumətinin qərarı Ermənistanı çətin duruma salacaq



**Ermənistan hökumətinin rəsmiləri, o cümlədən baş nazir Nikol Paşinyan son vaxtlar ölkənin iqtisadi göstəricilərinin yüksəldiyini hər yerdə ağızdolusu bəyan edirlər. Sonuncu dəfə mayın 25-də Moskvada keçirilən Ali Avrasiya İqtisadi Şurasının məhdud tərkibdə iclasında 2022-ci ildə Avrasiya İqtisadi İttifaqı ərazisində ən böyük iqtisadi artımın Ermənistanda qeydə alındığı bildirilib.**

İclasda çıxış edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin deyib: “Biz artıq praktiki olaraq işə başlamışıq, ölkələrimizdəki iqtisadi vəziyyəti kifayət qədər fəal şəkildə müzakirə etmişik, əməkdaşlığımızın necə getdiyini təhlil etmişik və hətta bəzi konkret sənaye sahələrinin təfərrüatlarını araşdırmağa nail olmuşuq. Amma görüşümüzün əvvəlində qeyd etmək istərdim ki, Avrasiya İqtisadi İttifaqı çərçivəsində əməkdaşlıq həqiqətən də çox uğurla inkişaf edir. Qazaxıstan Prezidentinin bayaq dediyi kimi, əsas benefisiar Ermənistandır, çünki Ermənistan ən yüksək iqtisadi artım tempinə malikdir”.

Bundan sonra V.Putin N.Paşinyandan iqtisadi artımın 7 faiz olub-olmadığını dəqiqləşdirmək istəmişdi. Paşinyan isə demişdi ki, yox, 12 faizdir: “Keçən il 12,6 idi, səhv etmirəmsə, cari ildə 12,1 olub”. V.Putin isə ölkənin ümumi daxili məhsulunda 12,1 faiz artım qeydə alınmasının, əlbəttə, çox ciddi rəqəm olduğunu bildirmişdi.

“Facebook” sosial şəbəkəsinin fəal istifadəçisi olan N.Paşinyan iclasın bu hissəsində V.Putinin fikirlərini və onunla dialoqu montaj edərək şəbəkədə paylaşmışdı.

***

Məlumdur ki, Ermənistan müstəqillik əldə etdikdən sonra xaricdəki erməni diasporunun pulu və bəzi dövlətlərin hərtərəfli dəstəyi hesabına ayaq üstdə dayanıb. Ermənistanın relyefi əsasən dağlıqdır: onun 29,8 min kvadratkilometr ərazisinin 90 faizdən çoxu dəniz səviyyəsindən 1000 metrdən çox yüksəklikdə yerləşir. Özünün təcavüzkarlıq siyasəti və ərazi iddiaları səbəbindən iki qonşusu – Azərbaycan və Türkiyə ilə sərhədləri 30 ildən çoxdur ki, bağlıdır. İranla sərhəd yüksək dağlıq ərazidən keçir. Bu isə idxal-ixrac əməliyyatlarını çətinləşdirir. Gürcüstanla sərhəd nəzarət-buraxılış məntəqəsinin olduğu ərazidə də əlverişsiz coğrafi şərait hökm sürür. Ermənistan zəngin faydalı qazıntı yataqlarına malik ölkələrdən deyil. Düzdür, bundan tamamilə məhrum da adlandırmaq doğru olmazdı. Hər halda ölkənin iqtisadi cəhətdən irəliləyiş əldə etməsi bununla bağlı deyil. Bəs Ermənistan nəyin hesabına son 1–1,5 ildə iqtisadi göstəricilərini yaxşılaşdırıb? Bunun əsas səbəbi Rusiya-Ukrayna müharibəsinin başlanmasından sonra Qərbin şimal qonşumuza tətbiq etdiyi sanksiyalarla bağlıdır.

O da məlumdur ki, müharibə başlayan kimi, kollektiv Qərb Rusiyaya qarşı misli görünməmiş sanksiyalar tətbiq etdi. Hazırda dünyanın 49 ölkəsi Rusiyaya sanksiyalar tətbiq edib. Həmin ölkələrdən Rusiyaya hər cür ixrac yasaqlanıb. Bu qadağanı pozan şirkətlər ciddi maliyyə sanksiyalarına məruz qalırlar. Bütün brend mağazalar Rusiya bazarını çoxdan tərk edib. Belə olan məqamda kəmfürsət erməni işbazları müxtəlif malların, əsasən də xarici avtomobillərin Rusiya bazarına təkrar ixracını (reeksport) həyata keçirirlər. Ermənistanın iqtisadi göstəricilərinin yaxşılaşması birmənalı olaraq bununla bağlıdır. Bu fakt dünyanın aparıcı media qurumları tərəfindən də etiraf edilir.

Təxminən iki həftə ABŞ-ın nüfuzlu “The Financial Times” qəzetində dərc olunan “Ermənistan: sanksiyaya məruz qalan Rusiyaya mallar üçün Yeni İpək Yolu” sərlövhəli məqalədə bildirilir ki, Ermənistanın ikinci şəhəri olan Gümrü şəhərinin kənarındakı gömrük binasından başlayaraq hər tərəfə cərgə-cərgə maşınlar uzanır: “Rus gəncləri maşınların arasında gəzişirlər. Onlar üçün Qafqazın bu guşəsi çiçəklənən ticarət yolunun əsas dayanacağına çevrilib. İşlənmiş avtomobillər Rusiyaya ixrac olunur. Moskvanın Ukraynaya genişmiqyaslı müdaxiləsi ilə bağlı sanksiyalar səbəbindən Qərb markalı avtomobilləri tapmaq çətindir”.

Gümrü gömrük terminalında işləyən və digər ruslar kimi adını açıqlamaq istəməyən bir rusiyalı qəzet müxbirinə deyib: “Rusiyada bütün avtosalonlar bağlanıb: “BMW”, “Audi”, hamısı... Əvvəllər avtosalonlara gedib maşın alan hər hansı varlı adam artıq bunu edə bilmir. Onlar bizdən və ya başqasından maşın gətirməyi xahiş edirlər”.

Gənc oğlan əli ilə “maşın dənizi”ni göstərərək deyib: “Burada gördüyünüz maşınlar Ermənistanda qalmayacaq. Bunların hamısı Rusiyaya, bir hissəsi Qazaxıstana təkrar ixrac olunur”.

Dəllallar və alıcılar bildiriblər ki, avtomobillər əsasən ABŞ-dan Gürcüstanın Poti limanı vasitəsilə gəlir. “Onların əksəriyyəti daha sonra gömrük rəsmiləşdirilməsi üçün Ermənistana gətirilir, çünki bu ölkədən şəxsi istifadə üçün mallar Rusiyaya rüsum ödəmədən daxil olur. Gümrü avtomobillərin yenidən Gürcüstan ərazisindən keçərək Rusiyaya hərəkət etdiyi əsas mərkəzdir”, – deyə məqalədə bildirilir.

O da qeyd olunur ki, Ermənistan avtomobil istehsalçısı deyil, lakin bu kiçik ölkənin Rusiyaya avtomobil ixracı ötən il Ukraynanın işğalından sonra kəskin artıb, 2022-ci ilin yanvarında 800 min dollar, bu ilin eyni ayında 180 milyon dollardan çox olub. O da bildirilir ki, avtomobillər ən bariz nümunədir, lakin Ermənistandan Rusiyaya digər malların da ixracı artıb və bu, 2022-ci ildə iki ölkə arasında ticarətin təxminən iki dəfə artmasına gətirib çıxarıb: “Rusiya istehlakçıları Qərbin sanksiyaları və şirkətlərin getməsi səbəbindən itirdiklərini tapmaq üçün üçüncü ölkələrə üz tuturlar və Ermənistan, Qazaxıstan, Qırğızıstan kimi ölkələr istehlak malları üçün yeni ticarət yolunun mərkəzində özlərini tapıblar. Bu, Ermənistanda sürətli iqtisadi artıma töhfə verir. Ümumi daxili məhsul 2022-ci ildə rekord həcmdə – 13 faiz artıb ki, bu da əvvəlki ilin göstəricisindən iki dəfə çoxdur”.

Ermənistanın Rusiyanın düşdüyü vəziyyətdən yararlandığı ölkənin xarici işlər naziri Ararat Mirzoyan da etiraf edir. İyulun 18-də Vyanada avstriyalı həmkarı ilə birgə mətbuat konfransında danışan Mirzoyan bildirib ki, Ukraynadakı müharibə Ermənistanın iqtisadiyyatına da həm müsbət, həm də mənfi təsir göstərib: “Ermənistan sanksiyalardan yan keçmək üçün mühitə çevrilmək fikrində deyil. Mən bu mövzu ilə maraqlananların hamısını bir daha açıq şəkildə və yüksək səslə əmin etmək istəyirəm ki, Ermənistan sanksiyalardan yayınma mühitinə çevrilməyəcək. Biz təkcə Avropa İttifaqının müvafiq orqanları ilə deyil, həm də ABŞ və bütün maraqlı tərəflərlə çox sıx və şəffaf işləyirik. Əmin edirik ki, Ermənistan hökuməti sanksiyalardan yayınmaq üçün şərait yaratmaqdan çəkinməkdə qərarlıdır. Biz açıq və şəffaf işləyirik”.

Ancaq Mirzoyanın nə deməsindən asılı olmayaraq, fakt faktlığında qalır. Fakt isə bundan ibarətdir ki, mart ayında ABŞ rəsmiləri Ermənistanı Rusiyaya qadağan olunmuş malların daşınması üçün istifadə edilən ölkələr sırasına daxil edib. Məqsədi üçüncü ölkələrin köməyi ilə sanksiyalardan yayınmağın qarşısını almaq olan Avropa İttifaqının son sanksiyalarında Ermənistanda fəaliyyət göstərən təşkilatlar da təqsirkarlar sırasındadır.

Bugünlərdə isə Gürcüstan hökuməti Ermənistan üçün pis sürpriz sayılacaq qərar verib. Belə ki, avqustun 1-dən ABŞ istehsalı olan avtomobillərin Gürcüstandan Rusiya Federasiyasına və Belarusa ixracı və təkrar ixracı qadağan edilib. Avqustun 2-də Gürcüstanın Maliyyə Nazirliyi rəsmi olaraq bu qərarı təsdiqləyib və onun avqustun 1-dən qüvvədə olduğunu bəyan edib. Nazirlik onu da bildirib ki, sentyabrın 26-dan bu qadağa Aİ-dən gələn avtomobillər üçün də qüvvədə olacaq. Nazirlikdən verilən məlumata görə, bu qərar Rusiyaya qarşı 11-ci sanksiyalar paketi çərçivəsində qəbul edilib.

Gürcüstan Maliyyə Nazirliyi, həmçinin Hərbi Gürcüstan yolu və Kazbek-Yuxarı Lars sərhəd-gömrük keçid məntəqəsi vasitəsilə Ermənistandan Rusiyaya reeksporta da qadağa qoyub. İstisna yalnız Ermənistan vətəndaşlarına məxsus avtomobillərə şamil ediləcək, belə ki, onların avtomobil satmaqda şübhəli sayılması üçün heç bir əsas yoxdur.

Beləliklə, aydın olur ki, Ermənistanın son il yarımda nümayiş etdirdiyi “iqtisadi möcüzə” yeni yaranmış regional geopolitik durumun inikası imiş. Sabun köpüyünə bənzər bu “möcüzə” Gürcüstan hökumətinin bir qərarı ilə yoxa çıxmaq üzrədir.

*Səxavət HƏMİD,*
*“Xalq qəzeti”*

### Ekspert rəyi

**Orxan BAĞIROV,**
**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin baş elmi işçisi, təhlilçi**



– Rusiya–Ukrayna müharibəsi başladıqdan sonra aktuallaşan məsələlərdən biri də Moskvaya tətbiq edilən sanksiyalar çərçivəsində müəyyən edilmiş məhsulların üçüncü ölkələr vasitəsilə Rusiyaya yenidən ixracıdır. Bura əsasən elektronika, texniki avadanlıq, nəqliyyat vasitələri və onların hissələri kimi Rusiya tərəfindən hərbi sənayedə istifadə edilə bilən ikili təyinatlı məhsullar aiddir. Həmin məhsulların şimal qonşumuza yenidən ixracında aktivliyi isə əsasən, Avrasiya İqtisadi İttifaqına üzv olan, Rusiya ilə sıx ticarət əlaqələrinə malik və Moskvanın siyasi təsir imkanları çox olan ölkələr göstərir.

Qərb mətbuatında bu haqda tez-tez yazılsa da, Qərb blokuna aid bir sıra ölkələrin, xüsusilə ABŞ-ın rəsmi nümayəndələri tərəfindən ixracda iştirak edən ölkələrin müəyyən şirkətlərinə qarşı sanksiyalar tətbiq edilsə də bu məsələdə açıq-aydın ayrı-seçkilik edilir. Biz bunu Ermənistan və Qırğızıstan nümunəsində aydın şəkildə görə bilərik. Belə ki, iyulun 20-də ABŞ-ın Maliyyə Nazirliyi 120-dən çox yeni şirkəti sanksiyalar siyahısına daxil edib. Sanksiyaların əsas məqsədi Rusiyanın müdafiə sənayesinin istehsal imkanlarını azaltmaq üçün ölkənin müxtəlif xammallara və məhsullara çıxışını və bu istiqamətdə maliyyələşmə imkanlarını məhdudlaşdırmaqdır. Sanksiyalara məruz qalan şirkətlərin əksəriyyəti rus şirkətləri olsa da siyahıda 4 qırğız şirkəti də var. Bunlar “RM Design and Development LLC”, “Progress Leader LLC”, “GTME Technologies CJSC” və “Cargoline LLC” şirkətləridir. Daha əvvəl – mayın 19-da Qırğızıstanın “Tro.Ya” adlı şirkətinə də sanksiyalar tətbiq edilmişdi. Şirkət elektron komponentlərin və naviqasiya avadanlıqlarının Rusiyaya satılması səbəbi ilə sanksiyalara məruz qalmışdı.

Ermənistanın da Qırğızıstan kimi Rusiyaya yenidən ixracda iştirak etdiyini ticarət ilə bağlı statistik rəqəmlər sübut edir. Belə ki, 2022-ci ildə Ermənistanın ixracı 78, idxalı isə 63,5 faiz artıb. Qırğızıstanla müqayisədə Ermənistan Rusiyanın müdafiə sənayesində istifadə edilə biləcək məhsulların Rusiyaya ixracını dəfələrlə çox artırıb. Ancaq çox az sayda Ermənistan təşkilatlarına qarşı sanksiyalar tətbiq olunub. Bunlar da əsasən Rusiyanın Ermənistandakı törəmə şirkətləridir və tam olaraq erməni şirkəti hesab edilə bilməz. Erməni şirkətlərindən indiyədək yalnız “Taco LLC” Rusiya hərbi sənayesi üçün müxtəlif məhsulların təchizatı ilə məşğul olduğu üçün sanksiyalara məruz qalıb. Beləliklə, sanksiyalardan yayınmaq məsələsinə görə Qərbin, xüsusilə də ABŞ-ın Ermənistan və Qırğızıstan nümunəsində ikili münasibət göstərdiyini açıq şəkildə görmək mümkündür. Qərb bir daha Ermənistanın qanunsuz əməllərinə göz yumur və özünün kiçik xristian dostunun qanunsuz yollarla gəlir əldə etməsinə şərait yaradır.

# İran-Belarus hərbi əməkdaşlığı və regional təhlükəsizlik

**Avqustun 7-də İran və Belarusun müdafiə nazirlikləri arasında hərbi əməkaşlıqla bağlı memorandum imzalanıb. Memorandum hərbi əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Məlumata görə, iki dövlət arasında mövcud istiqamətdəki əməkdaşlığın inkişafı bu il martın 13-də Belarus Prezidentinin İrana səfəri zamanı müzakirə olunub, bununla bağlı ilkin razılıq əldə edilib.**



Maraqlıdır, Azərbaycanın cənub qonşusu olan İranın Belarusla hərbi əməkdaşlığı ölkəmizin maraqları və təhlükəsizliyi baxımından nə vəd edir? Hər zaman ermənipərəst siyasət yürüdən İranın hərbi baxımdan güclənməsi Azərbaycanın maraqları baxımından nə dərəcədə arzuedilməndir?

***

Hər şeydən öncə, qeyd edək ki, uzun müddətdir sivil dünyadan təcrid edilən, Qərbin sanksiyalarına məruz qalan İranın iqtisadiyyatı, eləcə də hərbi sənaye sektoru ciddi çətinliklərlə üzləşməkdədir. Sanksiyalar səbəbi ilə bütün ehtiyaclarını daxili istehsal hesabına qarşılamaq məcburiyyətində qalan İran, bütün səylərinə rəğmən milli hərbi sənayenin lazımi inkişafına nail ola bilmir. Bunun üçün İran ilk növbədə elmtutumlu sənaye məhsullarına ehtiyac duyur ki, Belarusla hərbi əməkdaşlıq fonunda bu məhsullara olan tələbatını qismən də olsa ödəyə bilsin. Baxmayaraq ki, Belarusun özünün də Qərblə münasibətlər baxımından vəziyyəti o qədər də ürəkaçan deyil və oxşar problem Minsk üçün də yetərincə aktualdır. Lakin İranla müqayisədə Belarus sivil dünyaya qismən daha açıq olduğu üçün rəsmi Minskin hərbi inteqrasiya məsələsində imkanları daha genişdir.

Bundan başqa, Belarus dünya hərb sənayesinin nəhənglərindən sayılan Rusiya ilə geniş hərbi əməkdaşlığa malikdir ki, bu da İranın dolayısıyla bundan faydalanmaq ehtimalını artırır. Yəni, Rusiya hərb sənayesindən genbol faydalanan Belarusla hərbi əməkdaşlıq İran üçün hərbi tərəqqiyə açılan “nəfəslik” hesab oluna bilər.

***

Bildirdiyimiz kimi, Tehran–Minsk hərbi əməkdaşlığı fonunda ortaya çıxan suallardan biri də İranın hərbi sahədə inkişafının Azərbaycanın maraqlarına mümkün təsiri ilə bağlıdır. Yaxın keçmişin təhlili sübut edir ki, Azərbaycan heç vaxt İranın hədə-qorxu dolu bəyanatlarına əhəmiyyət verməyib. Bunu Prezident İlham Əliyevin 25 noyabr 2022-ci il tarixindəki çıxışı da açıq şəkildə göstərir. Xatırladaq ki, dövlətimizin başçısı ADA Universitetində təşkil edilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusundakı beynəlxalq konfransdakı çıxışında Azərbaycanın İrandan çəkinmədiyini vurğulamış, Tehranın təhdidlərinin əbəs olduğunu qeyd etmişdir: “İndi İranla Azərbaycan arasında baş verənlər bizim tərəfimizdən yaranmayıb. Biz yalnız cavab veririk və istər sözlə olsun, istərsə də əməllə hər cür anti-Azərbaycan addımına cavab verəcəyik. Biz onlardan qorxmadığımızı nümayiş etdirmək üçün İran sərhədində hərbi təlimlər təşkil etməli olduq”.

Prezident İlham Əliyevin məlum çıxışı bir daha göstərir ki, Azərbaycan İranın hədə-qorxularından çəkinmir. Bununla yanaşı, İranın Birinci Qarabağ müharibəsindən bugünə qədər Ermənistana göstərdiyi həm iqtisadi, həm də hərbi yardımlara görə, onun hərbi tərəqqisi ölkəmizin maraqları baxımından arzuedilməzdir. 44 günlük Vətən müharibəsindən sonra rəsmi Tehranın verdiyi bir çox bəyanat, eləcə də Ermənistanın İranın “qırmızı xətti” elan edilməsi faktı bu ölkənin rəsmi İrəvanın müttəfiqi olduğunu göstərir. İranın günümüzdə də Hindistandan Ermənistana göndərilən hərbi texnikaların tranzitinə şərait yaratması da, rəsmi Tehranın ermənipərəst siyasətindən xəbər verir. Tehran rəsmilərinin ayrı-ayrı dövrlərdə müxtəlif dövlətlərə xitabən səsləndirdiyi aqressiv bəyanatlar isə onu deməyə əsas verir ki, İranın hərbi baxımdan güclənməsi regional təhlükəsizlik baxımından da ciddi təhdidlər vəd edir.

*Seymur ƏLİYEV*

# İqtisadi artım düzgün idarəetmənin məhsuludur

## Qeyri-neft sektorunun payı ÜDM-də 50 faizdən yüksəkdir

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycanın strateji valyuta ehtiyatlarının artımının dinamik xarakter alması bir sıra amillərlə sıx bağlıdır. Bu, əsasən, dövlət başçısının uzaqgörən siyasətinin, qeyri-neft sektorunun inkişafı istiqamətində aparılan uğurlu islahatların, investisiya mühitinin əlverişliliyinin nəticəsində mümkün olub. Prezident İlham Əliyev çıxışlarının birində bununla bağlı deyib: “Uzun illər Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı imkan verir ki, iqtisadiyyat dayanıqlı surətdə inkişaf etsin, bir sektordan – neft-qaz sektorundan asılı olmasın. Hətta dünyada neftin qiymətinin kəskin şəkildə düşməsi Azərbaycanın ümumi iqtisadi inkişafına təsir etməmişdir”.

Bax, bu müdrik siyasətin məntiqi nəticəsidir ki, son illər ölkədə qeyri-neft sektorunun inkişafına xüsusi önəm verilib. Dövlətimizin başçısı cari ilin iyul ayında Şuşada keçirilən Qlobal Media Forumunda bu sahənin prioritet olduğunu diqqətə çatdırıb: “Biz ümumi daxili məhsulda iqtisadiyyatımızın qeyri-neft sektorunun payını ildən-ilə artırırıq. O, artıq 50 faizdən yüksəkdir. Bu gün biz həm də qeyri-neft ixracını artırırıq… Hazırda kapital və sərmayə proqnozlaşdırıla bilən sabit məkanlara gedir, belə bir məkan məhz Azərbaycandır. Hətta işğal dövründə də Azərbaycan sabitlik məkanı idi…”.

Əlbəttə, bu, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin məntiqi nəticəsidir. Bu fikrin təsdiqi kimi, müəyyən faktlara əsaslanıb deyə bilərik ki, 2010-cu ildə respublikamızın qeyri–neft sektorunda 18,4 milyon manatlıq məhsul istehsal olunduğu halda, çoxsaylı mənfi şokların təsiri ilə mübarizə aparan qlobal iqtisadiyyatın həssas olduğu indiki dövrdə qeyri–neft–qaz sənayesində artım neft–qaz sənayesindəki artımı üstələyib. Mövcud sahədə



əlavə dəyər 2023-cü ilin ilk 6 ayında 6,5 faiz artıb. Ümumi olaraq isə qeyri-neft sektorunda 3 faizdən çox artım müşahidə olunub.

Təbii ki, qeyri-neft sektorunun inkişafında şaxələndirmə siyasəti ilə yanaşı, ardıcıl və sistemli surətdə gerçəkləşdirilən sənayenin inkişafına dair Dövlət Proqramı da əhəmiyyətli rol oynayıb. Bu önəmli sənəd ənənəvi sənaye sahələri ilə yanaşı, iqtisadiyyatımız üçün yeni olan kosmik, müdafiə, gəmiqayırma, alternativ enerji və digər sahələrin, həmçinin müasir istehsal infrastrukturuna malik sənaye zonalarının inkişafını da sürətləndirib. Nəticədə respublikamızın ixrac qabiliyyəti davamlı şəkildə güclənib, idxalı əvəz edən məhsulların istehsalının artırılması reallaşıb. Bu, statistik göstəricilərdə də öz aydın ifadəsini tapıb. Məsələn, indiyədək mövcud sahədə 10,23 milyard manat dəyərində məhsul satışı həyata keçirilib və onun 3,35 milyard manatlıq hissəsi ixrac edilib. Cari ilin ilk yarısında isə 1,4 milyard manatlıq məhsul satılıb ki, bunun da 33,6 faizi ixracın payına düşüb. Bugünədək sənaye zonalarında ümumi investisiya dəyəri 7,18 milyard manat olmaqla 131 sahibkarlıq subyektinə rezident statusu verilib və onlardan 68-i, yaxud 51,9 faizi istehsal fəaliyyətinə başlayıb. Sənaye zonalarına 6,56 milyard manat investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri açılıb.

Onu da qeyd edək ki, hazırda sənaye zonaları və aqroparklarda iş adamları üçün stimullaşdırıcı biznes və investisiya mühiti yaradılıb. Sənaye parklarında qeydə alınan hər bir rezident 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunub.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da bərpa prosesi indiyədək sənayeləşmə siyasəti ilə paralel aparılıb. “Ağdam” və “Araz Vadisi İqtisadi Zonası” sənaye parklarında ümumilikdə 20-ə yaxın sənaye müəssisəsi qeydiyyata alınıb. Düşməndən təmizlənən ərazilərdə kənd təsərrüfatının inkişaf məqsədləri üçün 940 fermer təsərrüfatının yaradılması nəzərdə tutulub.

Cəbrayıl rayonunda yerləşən “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının hazırda 3 rezidenti və 1 qeyri-rezidenti var. İnvestorlar tərəfindən bu zonaya 21 milyon manatdan çox investisiyanın yatırılması, 270-dən artıq iş yerinin yaradılması planlaşdırılıb.

Bütün bu iqtisadi göstəricilərə əsaslanıb deyə bilərik ki, Ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə qayıdışından sonra bazar iqtisadiyyatının formalaşdırılması istiqamətində bir sıra önəmli islahatlar həyata keçirib. Ulu öndər qısa zaman ərzində uzunmüddətli dövr üzrə sosial-iqtisadi inkişaf strategiyasının müəllifi olaraq tarixi uğurlara imza atıb. Məhz dahi şəxsiyyətin gerçəkləşdirdiyi sosial-iqtisadi islahatlar nəticəsində ölkədə makroiqtisadi sabitlik bərpa olunub, inflyasiya üçrəqəmli səviyyədən təkrəqəmli səviyyəyə düşüb, büdcə kəsiri dəfələrlə azalıb, manatın məzənnəsi sabitləşib və bank sistemi sağlamlaşdırılıb.

Ümummilli liderin uğurlu iqtisadi strategiyası son 20 il ərzində Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilib. Dövlətimizin başçısının qarşıya qoyduğu dayanıqlı iqtisadiyyat və inklüziv cəmiyyət hədəfləri günümüzün reallığına çevrilib. Məhz bunun nəticəsidir ki, 2003-cü ildən başlayaraq ötən zaman ərzində reallaşdırılan strategiya sayəsində milli iqtisadiyyatın real xərci 4 dəfə, ixrac 15,6 dəfə artıb. İqtisadiyyatın orta artım tempi dünya üzrə orta səviyyədən 4 faiz yüksək olub.

Yeri gəlmişkən, onu da qeyd edək ki, dövlət başçısı İlham Əliyev prezidentliyinin bütün mərhələlərində idarəetmə sisteminə novator düşüncə tərzi, dinamizm və müasirlik çalarları gətirib, hökumətin gerçəkləşdirdiyi layihələrin əhatə dairəsini və vaxtını dəqiq müəyyənləşdirib, həmin təşəbbüslərin icra cədvəlini diqqət mərkəzində saxlayıb. Təbii ki, bütün bu amillər sosial-iqtisadi layihələrin, o cümlədən yuxarıda vurğuladığımız qeyri-neft sektorunun inkişafında həlledici rol oynayıb.

***V.BAYRAMOV,***
***“Xalq qəzeti”***

**Ekspert rəyi**

**Hüseynqulu QULİYEV,**
**iqtisadçı-ekspert**



Son 19 ildə ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik təmin edilib, sosial rifahı dəstəkləyən iqtisadi artıma nail olunub. Respublikada möhkəm siyasi-ictimai sabitlik və təhlükəsizlik, uzaqgörən daxili və xarici siyasət qarşıya qoyulan mürəkkəb sosial-iqtisadi məqsədlərin, habelə ölkənin ərazi bütövlüyünün bərpa edilməsində həlledici rol oynayıb.

Bundan savayı, dövlətimizin başçısının bölgələrin tarazlı və davamlı inkişafının təmin olunması, yeni iş yerlərinin açılması, infrastrukturun yeniləşdirilməsi, mövcud problemlərin aradan qaldırılması məqsədilə imzaladığı dövlət proqramlarının, fərman və sərəncamların icrası vəziyyəti ilə yerində tanış olmaq, sıravi vətəndaşlarla birbaşa ünsiyyət quraraq mövcud çətinliklər barədə informasiyaları ilk mənbədən almaq üçün vaxtaşırı Azərbaycanın müxtəlif rayonlarına səfərləri də ölkə Prezidentinin fəaliyyətinin əsas istiqamətlərindən biri kimi diqqət çəkir.

Azərbaycanda bu gün iqtisadiyyat üçün yeni istiqamətlər formalaşıb. Bu istiqamətlər idxaldan asılılığın azaldılması, qeyri-neft əmtəə və xidmət ixracının genişləndirilməsi, qeyri-neft emal sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyaların dominant rolunun təmin edilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və kölgə iqtisadiyyatının səviyyəsinin minimuma endirilməsindən ibarətdir. Yeni məqsədlərə doğru yolda əldə edilən ilkin nəticələr müsbətdir.

Hazırda qarşıda duran ən mühüm məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Bu gün ölkədə aparılan hər bir iqtisadi islahatın əsasında sosial problemlərin aradan qaldırılması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və hər bir vətəndaşın rifahının artırılmasına imkan verən mühitin yaradılması məqsədi dayanır. Belə bir mühitin yaradılması isə dayanıqlı iqtisadi inkişafın reallaşdırılması, maliyyə sisteminin, sahibkarlıq mühitinin inkişaf etdirilməsi, insanların hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi yolu ilə, həmçinin sosial problemlərin birbaşa həllinə yönələn tədbirlər vasitəsilə həyata keçirilə bilər.

Milli iqtisadiyyatın aparıcı sahələrində müasir texnologiyaların geniş tətbiqi və keyfiyyətli insan kapitalının cəlbi nəticəsində respublikada məhsuldarlıq xeyli artıb. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı dünyada iqtisadi artımın yavaşıması barədə proqnozlar verdiyi halda, Azərbaycanda bu ilin ilk altı ayında iqtisadi artım sürətlənərək 6,2 faizə çatıb.

Azərbaycanda iqtisadi artımın indiki səviyyəsi bu il üçün dünya üzrə orta artım proqnozunu iki dəfə üstələyir. Deməli, Azərbaycan dünya iqtisadiyyatında xüsusi çəkisini artırır. Özü də respublikada iqtisadi artım daha çox innovasiya yönümlü olub qeyri-neft sənayesi, nəqliyyat, informasiya və rabitə xidmətləri sahəsindədir.

# “Microsoft” fəaliyyətini genişləndirir

**SOCAR ilə “Microsoft” şirkəti arasında bu il avqustun 4-də imzalanan Anlaşma Memorandumu rəqəmsallaşma, innovasiya, informasiya texnologiyaları sahəsində infrastrukturun təkmilləşdirilməsi, insan kapitalının inkişafı, habelə kəşfiyyat, hasilat, emal, marketinq, nəqliyyat, kibertəhlükəsizlik sahələrində əməkdaşlığı nəzərdə tutur.**




SOCAR-ın bilavasitə təşəbbüsü və aparılan uğurlu danışıqların nəticəsində dünyanın qlobal texnologiya şirkəti olan “Microsoft” ilə əməkdaşlıq sənədinin imzalanması Dövlət Neft Şirkəti ilə yanaşı, ümumilikdə ölkə üzrə innovativ mükəmməlik mərkəzinin yaradılmasına əlverişli zəmin yaradacaq. Bununla da “Microsoft” respublikamızdakı fəaliyyətini daha da genişləndirəcək.

Qeyd edək ki, “SOCAR-ın 2035-ci ilə kimi Korporativ Strategiyası”nda enerji təhlükəsizliyi, rəqəmsallaşma, biznes dayanıqlılığı, səmərəlilik və optimallaşdırma, enerji keçidi kimi 5 təməl element üzrə şirkətin hədəfləri və onlara çatma yolları müəyyənləşdirilib.

Bu xüsusda, “Microsoft” şirkəti ilə imzalanan memorandum şirkətin uzunmüddətli strategiyasının tərkib hissəsidir və SOCAR-ın müəssisələrində təmiz, rəqəmsal və innovativ texnologiyaların tətbiqi ilə əməliyyat modelinin müasirləşdirilməsinə, texniki və texnoloji əməliyyatların daha səmərəli həyata keçirilməsinə, biznes dayanıqlılığın gücləndirilməsinə və yüksək ixtisaslı kadr potensialının inkişafına dəyərli töhfə verəcək.

***“Xalq qəzeti”***

# Biləsuvarda da KOB dostları fəaliyyətə başlayıb




**Azərbaycanın Şirvan–Salyan iqtisadi rayonu üzrə sayca 3-cü KOB dostu ofisi Biləsuvar rayonunda fəaliyyətə başlayıb.**

İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) redaksiyamıza bununla bağlı verilən məlumatda bildirilib ki, Biləsuvarda fəaliyyətə başlayan KOB dostu rayonda biznesin inkişafına, yeni kiçik və orta biznes (KOB) subyektlərinin yaranmasına, sahibkarların investisiya təşəbbüslərinin reallaşdırılmasına və maraqlarının müdafiəsinə dəstək göstərəcək.

KOBİA və Biləsuvar Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Şirvan–Salyan iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlarla görüşdə KOB dostu rayonun biznes ictimaiyyətinə təqdim edilib. Görüşdə Biləsuvar rayonunda fəaliyyət göstərən müvafiq dövlət qurumlarının nümayəndələri və sahibkarlar iştirak ediblər.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Agentliyin fəaliyyəti və KOB dostu mexanizmi barədə məlumat verib. Qeyd olunub ki, hazırda ölkənin 42 şəhər və rayonunda KOB dostu ofisləri fəaliyyət göstərir. KOB dostu Biləsuvarda biznesə başlamaq istəyən potensial sahibkarlara və mövcud bizneslərə dövlət dəstəyi mexanizmləri, o cümlədən Agentliyin xidmətləri çərçivəsində zəruri dəstəyi təmin edəcək.

KOB dostu rayonda yeni biznes subyektlərinin yaranması, sahibkarların qanuni maraqlarının müdafiəsi və onların investisiya təşəbbüslərinin reallaşdırılması istiqamətində müvafiq tədbirlər görəcək. KOBİA sədri mikro, kiçik və orta biznes subyektlərini KOB dostu ilə fəal əməkdaşlığa dəvət edib.

Tədbirdə, həmçinin KOB dostu mexanizmi, KOBİA-nın mikro və kiçik sahibkarlara göstərdiyi dəstək barədə filmlər nümayiş olunub, sahibkarları maraqlandıran suallar cavablandırılıb.

***“Xalq qəzeti”***

# BP “Şəfəq-Asiman”da karbohidrogen ehtiyatlarını dəyərləndirir

**BP “Şəfəq-Asiman” dəniz blokunda qazılmış ilk kəşfiyyat quyusundan əldə edilmiş məlumatların təhlili nəticələrinin interpretasiyasını ilin birinci yarısında başa çatdırıb.**



Şirkətin verdiyi məlumata görə, quyuda aşkar edilmiş karbohidrogen ehtiyatlarının dəyərləndirilməsi və kəşfiyyat işlərinin növbəti mərhələsinin planlaşdırılması işləri hazırda davam edir.

Xatırladaq ki, 2022-ci ilin dekabrında BP və Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən seysmik məlumatların təkrar emalını başa çatdırmaq üçün “Şəfəq-Asiman” yatağında kəşfiyyat işlərinin müddətinin 2023-cü ilin sonunadək 6 ay uzadılması barədə protokol imzalanıb.

“Şəfəq-Asiman” dəniz blokunun birgə kəşfiyyatı və işlənməsi üzrə Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) 2010-cu ilin oktyabrında 30 il müddətinə imzalanıb.

Blokun proqnozlaşdırılan ehtiyatları 500 milyard kubmetr qaz və 65 milyon ton kondensat təşkil edir. Bakıdan 125 kilometr cənub-şərqdə, dənizin 650-800 metr dərinliyində yerləşir.

“Şəfəq-Asiman” yatağında kəşfiyyat quyusunun qazılması 2021-ci ilin mart ayında ümumi 7 min 189 metr dərinliklə tamamlanıb. Quyunun keçdiyi bəzi lay dəstlərində qaz-kondensat ehtiyatları aşkar edilib.

# Sumqayıt Kimya Sənaye Parkının rezidentlərinin sayı 37-yə çatıb



**İqtisadiyyat naziri Mikayıl Cabbarovun bildirdiyinə görə, “Azpal” QSC-yə Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib və parkda bu cür şirkətlərin sayı 37-yə çatıb.**

Nazir daha sonra vurğulayıb ki, “Azpal” tərəfindən sənaye parkının ərazisində investisiya həcmi 58,9 milyon manat olan texniki (metallurji) silisium istehsalı müəssisəsi yaradılacaq və 160 nəfər işlə təmin ediləcək.

***“Xalq qəzeti”***

# Prezidentin xüsusi nümayəndəsi Elçin Əmirbəyovun müsahibəsi "Le Monde" qəzetində



ENTRETIEN

Diplomate de carrière, ambassadeur en France de 2010 à 2017, Elchin Amirbayov, âgé de 51 ans, est le représentant du président de la République d'Azerbaïdjan, Ilham Aliev pour des missions spéciales. Chargé des négociations concernant l'enclave disputée du Haut-Karabakh, peuplée en majorité d'Arméniens, mais située sur le territoire de l'Azerbaïdjan, il évoque la situation tendue pour l'accès à celle-ci.

**Le corridor de Latchine, seul lien entre l'Arménie et le Haut-Karabakh, est coupé depuis sept mois par des barrages installés par l'Azerbaïdjan. Plus rien ne passe depuis le 15 juin, d'après le Comité international de la Croix-Rouge [CICR]. Les civils arméniens du Karabakh vivent dans des conditions de plus en plus précaires. Qu'est-ce qui justifie de traiter ainsi 120 000 personnes, pour l'essentiel des civils ?**

Commençons par le contexte. La route de Latchine est inscrite dans la déclaration trilatérale [accord de cessez-le-feu], signée le 10 novembre 2020 par les dirigeants de l'Arménie, de l'Azerbaïdjan et de la Russie, comme devant être utilisée à des fins humanitaires, en tant que lien important entre l'Arménie et la région du Karabakh, en Azerbaïdjan. Malheureusement, depuis deux ans et demi, on constate l'utilisation abusive de cette route par l'Arménie, qui fait entrer illégalement ses citoyens sur le territoire azerbaïdjanais à des fins de rotation des forces armées arméniennes illégales. Ainsi que pour transporter des armes vers le Karabakh et des minerais vers l'Arménie. Le chiffre de 120 000 per-

Des camions d'aide humanitaire arméniens, au poste de contrôle azerbaïdjanais, près de Latchine, le

russe. C'est pourquoi l'Azerbaïdjan a été obligé de créer, le 23 avril, un poste de contrôle à Latchine. C'est une décision conforme au droit international, car il s'agit d'une frontière entre les deux Etats. Mais, le 15 juin, il y a eu une provocation arménienne. Un garde-frontière azerbaïdjanais a été grièvement blessé par un tir venant du territoire arménien, et la libre circulation a été suspendue pendant neuf jours pour mener l'enquête, puis la route a été rou-

manitaire, via les routes d'Agdam et de Fizouli [c'est-à-dire de l'Azerbaïdjan]. Mais les Arméniens du Karabakh refusent, ce qui est incompréhensible.

**La population arménienne du Haut-Karabakh veut garder la liberté de choisir ce qu'elle consomme et, de toute évidence, choisit ce qui vient d'Arménie…**

Quand vous avez faim, vous ne pouvez pas poser des conditions sur la route. En quoi l'aide huma-

est-elle pire que celle délivrée via Latchine ? Si les gens sont sincères à propos de leur pénurie alimentaire, je crois que le principal, pour eux, c'est de recevoir des produits. Nous voyons que des soi-disant dirigeants arméniens gardent en otage la large majorité des Arméniens, parce qu'on entend des voix alternatives mécontentes sur les réseaux sociaux, parce que des gens souffrent de pénuries. Ceux qui se considèrent comme des dirigeants locaux uti-

**Fransanın "Le Monde" qəzetində Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun müsahibəsi dərc edilib.**

Jurnalist Emanuel Qrinzspanın Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyət, xüsusilə də Laçın yolu ilə bağlı sualların cavablandıran Elçin Əmirbəyov Qərb mətbuatında yer alan və guya yolun bağlanması ilə əlaqədar əsassız iddialara cavab verib.

Prezidentin xüsusi nümayəndəsi 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata uyğun olaraq, Laçın yolunun humanitar məqsədlər üçün istifadə edilməli olduğunu, lakin iki il yarım müddət ərzində Ermənistanın bu yoldan qeyri-qanuni məqsədlər, o cümlədən Azərbaycan ərazisinə silahlı qüvvələrini, habelə silah-sursat göndərmək üçün istifadə etdiyini bildirib. O, Qarabağda yaşayan ermənilərin sayının 120 min kimi göstərilməsinin həqiqətə uyğun olmadığını və əslində, orada cəmi 50 min ermənin, o cümlədən 10 min qanunsuz erməni silahlı qüvvələrinin olduğunu vurğulayıb.

E.Əmirbəyovun müxbirin "Erməni hərbçilərini öz vətəndaşınız hesab edirsinizmi" sualına cavab olaraq, bu ermənilərin Azərbaycan ərazisinə üçtərəfli Bəyanata zidd olaraq, qeyri-qanuni daxil olan Ermənistan silahlı qüvvələrinin üzvləri olduqlarını qeyd edib. Azərbaycan tərəfinin bu səbəbdən aprelin 23-də beynəlxalq hüquqa uyğun olaraq Laçında dövlət sərhədindən buraxılış məntəqəsi yaratdığını söyləyib.

Laçın yolundan hazırda tibbi ləvazimatların keçdiyi və humanitar məqsədli yüklərin Azərbaycanın Ağdam və Füzuli ərazisindən keçməsi təklifinin isə ermənilər tərəfindən qəbul edilmədiyi qarşı tərəfin diqqətinə çatdırılıb.

E.Əmirbəyov vurğulayıb ki, əgər həqiqətən də vəziyyət təqdim edildiyi kimi faciəvi olsaydı, insanlar humanitar yardımın hansı istiqamətdən gəldiyi əhəmiyyət verməzdi. Demək ki, qondarma üzdəniraq "hakim dairələr" orada yaşayan ermənilərin əksəriyyətini girov saxlayırlar, çünki sosial şəbəkələrdə narazılıqlar eşidilir. Qondarma hakim qüvvələr bu vəziyyətdən Azərbaycan əleyhinə beynəlxalq səviyyədə təzyiq məqsədilə istifadə etmək istəyirlər.

Xüsusi nümayəndə müsahibəsində Vaqif Xaçatryanın həbsi ilə bağlı faktlardan da bəhs edib, onun adının Birinci Qarabağ müharibəsi zamanı mülki azərbaycanlılara qarşı müharibə cinayətləri törədən şəxslərin siyahısında olduğunu diqqətə çatdırıb.

Elçin Əmirbəyov, həmçinin jurnalistin Azərbaycanın avtoritar rejim olması ilə bağlı təxribatçı sualına cavab olaraq, Azərbaycanın demokratik ölkə olduğunu vurğulayıb və insan hüquqları məsələsinə gəldikdə, Fransa da daxil olmaqla, heç bir ölkənin mükəmməl olmadığı müxbirin diqqətinə çatdırılıb.

# Avqust müharibəsi qurbanları anıldı



**Dünən Gürcüstanda 2008-ci il avqust müharibəsinin 15-ci ildönümü qeyd olunur.**

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, hərbi attaşe aparatının rəhbəri polkovnik Fuad İbrahimov və səfirliyin əməkdaşları Muxatqverdidakı "Qardaşlıq qəbiristanlığı"nda müharibə qurbanlarının xatirəsini anıblar.

Qeyd edək ki, 2008-ci ilin avqustunda Rusiyanın Gürcüstana hərbi müdaxiləsi nəticəsində 228 mülki şəxs, 170 hərbçi və 14 polis həyatını itirib, 2232 Gürcüstan vətəndaşı isə yaralanıb. Gürcüstanın 263 min 598 vətəndaşına məcburi köçkün statusu verilib.

Bu müharibədən sonra Abxaziya və Cənubi Osetiyanı müstəqil ölkə elan olunub.

***"Xalq qəzeti"***

# Ədalətə divan tutanlar



## Hayların humanitar yardım saxtakarlığına dəstək verənlərin əsl simasını görmək üçün doqquz il əvvələ boylanmaq kifayətdir

**Son illər beynəlxalq arenada cərəyan edən hadisələrin xarakteri, onların hərəkətverici qüvvələrinin davranışı onu deməyə əsas verir ki, üzdə guya qlobal qarşıdurmada olduqları "görünən" tərəflər kollegial qərar qəbul etmək məqamı çatanda vahid platformadan çıxış etməyi bacarırlar. Aydın görünür ki, ədalətin pərdə arxasına salındığı, gücün ön plana keçdiyi dünyanın indiki mizanında Cənubi Qafqazın başı üzərində "qara buludlar" dolaşmaqdadır.**

İndi həqiqəti birbaşa deməyin məqamı yetişib. Ermənistan rəhbərliyi iki strateji məqsədini aşkar şəkildə ortaya qoyub. Birincisi, sülh danışıqlarında əldə olunan irəliləyişi dondurmaq, bu prosesdə Bakıdan qopara bildiyi "minimum güzəşti" dəyişməz halda saxlamaq. Yəni İrəvanın bu siyasətində Koçaryan və Sarkisyan iqtidarları, eləcə də İkinci Qarabağ savaşına qədərki Paşinyan hökuməti ilə müqayisədə heç nə dəyişməyib. İkincisi, hakimiyyətə yeni siyasi qüvvə gəlsə də, niyyətləri dəyişməyən haylar əvvəlki tək "nə sülh, nə müharibə", "yarımçıq məğlubiyyət" şəraitini, eləcə də Xankəndidəki qeyri-qanuni "quruluşu" mümkün qədər uzun müddətə, ən yaxşı halda isə həmişəlik saxlamağa hər vəchlə çalışır. Məqsədlərinə nail olmaqdan ötrü onların, hətta, "dünyanı ayağa qaldırmağa" girişdikləri şübhə doğurmur.

## Yalanı "həqiqətə" çevirməyin hay variantı

Azərbaycan hazırda tam qanuni əsaslarla suveren ərazisində yaşamaqda davam edən hərbi cinayətkarları aşkar edib saxlamağa başlayıb. Bunlar separatçı "DQR" rejimində təmsil olunan, yaxud ona qulluq edən, əlləri soydaşlarımızın qanına bulaşmış müharibə canilərdir. O canilər ki, Qarabağ iqtisadi rayonumuzda yaşayan erməni sakinlərini girova çevirib, Bakıya qarşı çirkli daşnak oyunlarında istifadə etməyə çalışırlar. "Humanitar böhran", "Laçın yolunun blokadası" onların beynəlxalq dövriyyəyə buraxdıqları son kartlardır. Və nədənsə, Qərb nəhəngləri, BMT kimi nüfuzlu təşkilat hayların aşkar görünən faktların təhrifinə, saxtakarlığa və yalana söykənən diplomatiyasına göz yumurlar.

Aydın məsələdir ki, Bakının BMT-dən bu cür ikili münasibətin səbəbini soruşmağa tam haqqı var. Ən azı ona görə ki, Qarabağın Azərbaycan Respublikasının suveren ərazisi və orada yaşayan ermənilərin Azərbaycan vətəndaşları olması beynəlxalq hüquqla təsbit olunub. Bu məqam Azərbaycan XİN-in BMT-nin İnsan Hüquqları Şurasının bəzi xüsusi məruzəçiləri və müstəqil eksperti tərəfindən "Laçın yolu" ətrafında vəziyyətlə bağlı yayılmış bəyanata dair şərhində xüsusi olaraq vurğulanır: "Azərbaycanın suveren ərazilərində yaşayan erməni sakinlərin ehtiyaclarının qarşılanması məsələsinə gəldikdə, bunun üçün Azərbaycan tərəfindən "Ağdam –Xankəndi" yolunda və digər alternativ yollardan istifadə daxil olmaqla, bir sıra təkliflərin irəli sürülməsinə və onların Avropa İttifaqı, BQXK tərəfindən dəstəklənməsinə baxmayaraq, erməni tərəfinin bu təkliflərə qarşı çıxması, alternativ yollara beton maneələr düzməklə əraziyə girişi bloklaması "humanitar vəziyyət" barədə iddialarının siyasi şantaj və manipulyasiya olduğunu bir daha göstərib".

**Ekspert rəyləri**

**Rasim MUSABƏYOV, Milli Məclisin deputatı, politoloq**



Azərbaycana qarşı ikili standartlı yanaşma birinci dəfə deyil ki, müşahidə olunur. Bəli, belə bir yanaşma doqquz il əvvəl də, ona qədər də, ondan sonra da mövcud olmuşdur. Həm görür, həm də eşidirdik ki, Qərb Abxaziya, Cənubi Osetiya, Dnestryanı Respublika, Krım məsələlərində bu ölkələrin ərazi bütövlüyünü, suverenliyini əllərində bayraq edib Rusiyanın üstünə gedir, növbə Qarabağa çatanda isə deyirlər ki, öz aranızda danışıqlar aparın və razılığa gəlin. Bu, artıq birinci dəfə deyil. Bəli, onlar xüsusi məqsəd və niyyətlə ermənilərin başını sığallamaqla məşğuldurlar.

Amma daha Azərbaycanla bu "nömrələr" keçməyəcək. Bizim beynəlxalq səviyyədə tanınmış hüquqlarımıza dəstək vermək, yaxud başa düşmək istəmirlərsə, özləri bilsinlər. Fəqət Azərbaycanın üstünə yeriməkdən ötrü o ölkələrin, həmin təşkilatların əlində heç bir əsas yoxdur. Digər məsələlərdə Azərbaycan öz hüquqlarını qorumağa qadirdir və lazım gəlsə, hər kəsin cavabını da verməyə hazırdır.

Dünyanın istənilən dövləti öz ərazisinə humanitar yardımın çatdırılması ilə bağlı birinci onun icazəsini verir, sonra da qaydasını müəyyənləşdirir. Hansı marşrutla və hansı formada humanitar yardımın ünvanına çatdırılması isə həmin ölkənin müstəsna səlahiyyətidir. Kənarda hansı oyunlardan çıxırlarsa, özləri bilər. Bütün hallarda Azərbaycan beynəlxalq hüquq çərçivəsində suveren dövlət kimi davranmaqda davam edəcək.

**Yeganə HACIYEVA, politoloq**



2014-cü ildə Rusiyanın atdığı addımlar bütün dünyada geniş rezonans doğurmuşdu. Avropada məhz humanitar təşəbbüslər adı altında separatizmin legitimləşdirilməsi bir ölkənin suveren hüquqlarına hörmətsizlik kimi dəyərləndirilirdi. Amma Azərbaycan məsələsində Avropa Şurasının insan haqları təsisatı, eləcə də Avropa İttifaqının qonşuluq və xarici siyasət məsələləri üzrə komissarı, Fransa və ABŞ Dövlət Departamentinin rəsmiləri bu məsələyə guya fərdi yanaşırdılar. Əslində, bu yanaşmanın adı riyakarlıq və ikiüzlülükdür. Bəs bunun səbəbi nədir? Çox güman ki, bu, bizim milli kimliyimizlə, müsəlman olmağımızla bağlı məsələdir. Baxmayaraq ki, həmin qurumlar dünyada dini dözümlülüyü, tolerantlığı, mədəniyyətlərarası xoşniyyətli münasibətləri barədə ağızdolusu danışırlar. Amma gerçəklik ondan ibarətdir ki, onlar bunu bir qədər başqa rakursda göstərirlər. Dörd gün bundan əvvəl Beynəlxalq Kilsələr Şurası Laçın yolu ilə bağlı tələb irəli sürürsə, artıq bu, Ermənistanın Qarabağ mövzusunu bu müstəviyə çıxarmasının göstəricisidir.

Laçın yolu ətrafında Qərbin təhlükəsizlik ritorikası birbaşa ikili standartlara söykənir. Amma bu "ssenari"nin bu coğrafiyada heç bir perspektivi yoxdur. Burada beynəlxalq hüquqdan kənarda oyun yoxdur. Beynəlxalq Ədalət Məhkəməsi, Avropa İnsan Haqları Məhkəməsi Laçın yolu məsələsində Azərbaycanın mövqeyini dəstəkləyib, Ermənistanın iddialarını isə rədd edib.

Bir sözlə, Laçın yolu ətrafında təhlükəsizlik mövzusunda Qərbin riyakarlığı dünyada təhlükəsizliyin əleyhinə domino effektini verəcək.

**Fərid ŞƏFİYEV, beynəlxalq məsələlər üzrə ekspert**



Doqquz il əvvəl baş vermiş həmin müzakirə ilə bağlı indi nəinki Qərb mediası, hətta dövlət rəsmiləri də münasibət açıqlayırlar. Eləcə də, həmin hadisə Amerikada da rezonans doğurub. ABŞ-ın Avropaya yardım komitəsinin indiki rəhbəri Samanta Pauel o zaman Ştatların BMT-də daimi nümayəndəsi idi. O, Rusiyaya qarşı çıxışında demişdi ki, Ukrayna ərazisinə humanitar yardım karvanının göndərilməsi bu ölkənin ərazi bütövlüyünün pozulması deməkdir.

Amma indi, o, üstündən doqquz il keçəndən sonra, məsələ Azərbaycanın mənafeyinə toxunanda tam əks mövqedən çıxış edir. Tvitterində Laçın yolunun açılması barədə iddialı açıqlama paylaşıb. Əslinə qalsa, burada geniş şərhə ehtiyac yoxdur. İkili standartlar açıq-aşkar göz önündədir. Doqquz il əvvəl Qərbin media orqanları, misal üçün, CNN Rusiyanın əleyhinə danışırdı. Məsələ Azərbaycanın üzərinə gələndə isə nəinki qınaq, hətta təzyiqlər hiss edirik. Otuz ildir biz bunu müşahidə edirik. Bu, həm də onun sübutudur ki, yanaşma üsulları tam fərqlidir və bunun müxtəlif səbəbləri mövcuddur. Buraya islamofobiyanı, bəlkə ondan daha çox türkofobiyanı aid edərdik. Azərbaycanofobiya məsələsi isə erməni lobbisinin, diasporunun Qərb ölkələrindəki fəaliyyəti Ermənistana böyük sayğı ilə, fərqli yanaşma deməkdir. Təkcə bir epizod deyil. Yadımızdadır, Türkiyə Ukraynaya "Bayraktar" verəndə hamı tərəfindən müsbət qarşılanmışdı. Amma bizdə heç də birmənalı reaksiya doğurmamışdı.

Konkret olaraq indiki vəziyyətdə insan hüquqlarına münasibətdə ikili standartlardan çıxış etmək, məsələni siyasiləşdirmək qətiyyən yolverilməzdir. Bəyanatın məzmunu, ekspertlərin açıqlamasında lüzumsuz siyasi mesajların yer alması onların səlahiyyət həddini, mandatlarını aşmasını, kənardan təlimat aldıqlarını göstərir. Əslində, həmin psevdoekspertlər bununla insan hüquqları üzrə mandatın nüfuzunu gözdən salmış olurlar. BMT-nin "blokada", "humanitar böhran" kimi saxta mülahizələrin, uydurma tezislərin yer aldığı bəyanatının məzmununa diqqət yetirsək görərik ki, əslində, ekspertlər münasibət bildirdikləri məsələnin mahiyyətindən tamamilə bixəbərdirlər. Amma BMT-nin insan haqları üzrə ekspertlərinin Davranış Məcəlləsində (Code of Conduct) göstərilir ki, onların bütün açıqlamaları faktlara, sübutlara, etibarlı mənbələrə əsaslanmalıdır. Vurğunu məhz bu aspektə yönəldən Qərbi Azərbaycan İcmasının etiraz bəyanatında beynəlxalq ekspertlərin həmin Davranış Məcəlləsini pozması, bəzi dairələrin apardığı anti-Azərbaycan kampaniyasına qoşulması təəssüf hissi ilə bildirilib.

## Başınızı qaldırıb 9 il əvvələ boylanın

Doqquz il bundan əvvəl, 2014-cü ilin avqustunda Rusiyanın Donetskə və Luqanska göndərmək istədiyi humanitar yardım karvanı ilə bağlı BMT Təhlükəsizlik Şurasında qızğın müzakirələr gedib. Yekunda Qərb dairələri, o cümlədən Vaşinqton bu məsələdə Ukraynaya dəstək vermiş, Moskvanın separatçı "DXR" və "LXR"-ə humanitar yükün yalnız rəsmi Kiyevin razılığı və onun şərtləri daxilində aparılması barədə qərar qəbul edilibdir. Bəs indi Azərbaycanın suveren ərazisinə Bakıdan icazəsiz, qeyri-qanuni şəkildə, içərisində nə olduğu bilinməyən "humanitar 19 TIR karvanının" Qarabağa keçməsi üçün BMT-nin insan haqları üzrə məruzəçiləri və müstəqil eksperti nə üçün dəridən-qabıqdan çıxırlar? Axı siyasi xarakteri etibarı ilə eyni situasiya ilə üzləşən həmin qurum, doqquz il əvvəl ədaləti əllərində bayraq edən, indi isə hayların "beynəlxalq züytutanları" qismində çıxış edənlər Ukraynaya o cür, Azərbaycana tamamilə fərqli mövqe sərgiləyirlər. Həmin ABŞ, Aİ ölkələri ədalətli prinsiplərindən vaz keçib, mövqelərini 180 dərəcə dəyişiblər. Niyə, hansı səbəbə görə? Necə olur ki, Donetskdəki separatçılarla bağlı bir, Qarabağdakı separatçılarla bağlı isə fərqli münasibət sərgilənir?! Əslində, məsələnin niyəsi bəlli, səbəbi də sadədir. Deməli, onlar üçün dünyaya car çəkdikləri beynəlxalq ədalət prinsipi, demokratik dəyərlər saxtadır. Həqiqətin gözünə dik baxa bilmədikləri üçün isə başlarını dəvəquşu kimi quma basdırıblar... Bəlkə dərimizin rəngi, etiqad etdiyimiz inancımız xoşlarına gəlmir?

## Son sözü Bakı deyəcək

Bütün hallarda Qarabağa humanitar, qeyri-humanitar marşrutlarla bağlı qərarı Azərbaycan özü qəbul edəcək. Bu prosesin özündə Bakının kənar məsləhətçilərin köməyinə ehtiyacı yoxdur. Ələlxüsus da əgər belə məsləhətlər ikiüzlü və məkrli aktorların dilindən səslənirsə. Hansı tribunadan səslənməsindən asılı olmayaraq, bəyanatların da heç bir faydası olmayacaq. Onu haqq edənlərə versinlər və gedib öz standartlarına yenidən baxsınlar. Həm də bizim hələ unutmadığımız doqquz il əvvəlki mövqelərini yenidən saf-çürük etsinlər... Onsuz da həm Qarabağ ermənilərinə yardımın haradan və necə çatdırılması, həm də ümumiyyətlə, onların və Xankəndidəki separatçı rejimin müqəddaratı ilə bağlı son qərarı Bakı verəcək.

Tarix dövlətlər və millətlər arasında yaranmış münaqişələrdə çox ədalətsizliyə şahidlik edib. Əgər bu dəfə də yalana bürünmüş qanunsuzluq qələbə çalsa, ədalətin qətlinə fərman verilsə, deməli, dünya Qiyamət gününün astanasındadır.

***İmran BƏDİRXANLI, "Xalq qəzeti"***

# Təsadüfi qazıntı: Tunc dövrünə aid tarixi mədəniyyət nümunələri biganəliyimizin qurbanı oldu

**(Əvvəli qəzetimizin 4 və 6 avqust 2023-cü il tarixli saylarında)**

Sabir Yusifov adəti üzrə saat 6-da yuxudan oyanıb, səhər yeməyini yeyib yola çıxardı. Bəzən bu vaxtlar "Ferma" deyilən ərazidən Əmirvan kəndinə yük maşını gedərdi. Sabir də dərsə vaxtında çatmaq üçün yol kənarında yük maşınını gözləməli olurdu. Gecikəndə isə 6-7 km məsafəni piyada getmək məcburiyyətində qalırdı.

Bir gün yük maşınını gözləyərkən diqqətini yerqazan ekskavator çəkdi. Fermada qışa hazırlıq işləri görülürdü və bu məqsədlə silos quyusu qazılırdı. Ekskavatorun çalovundakı torpaq kənara töküldükcə qırılmış gil qablarının parçaları da ətrafa səpələnirdi. Sabir əl işarəsi ilə ekskavatorçudan qazıntı işlərini dayandırmağı xahiş etsə də, o, heç nə olmamış kimi işini davam etdirdi. O, çuxurdan çalovla torpağı çıxararaq onun ətrafına tökürdü. Bu dəfə ağzı möhürlü küpü görən ekskavatorçu maşını söndürüb küpə yaxınlaşaraq onun ağzını açıb, içərisindəki qiymətli əşyaları götürmək istədi. Onun üçün möhür heç bir önəm daşımırdı. Çünki küpdəki möhürün eramızdan əvvəl II minilliyin sonu I minilliyin əvvəlinə aid ictimai formasiya dövrünə uyğun dövlət quruluşunun mövcudluğunun göstəricisi olduğundan bixəbər idi.







İçərisində qızıl və gümüş əşyaların olduğuna əmin olan ekskavatorçu tələsdiyindən küpü əlindən salaraq sındırdı. Gördükləri isə onu xeyli təəccübləndirdi. Çünki yerə küpdən qiymətli əşyalar deyil, kül töküldü.

Sabir Yusifov ekskavatorçudan xahiş etdi ki, qazıntını dayandırsın. Tələm-tələsik özünü Əmirvan kənd orta məktəbinə çatdıraraq həyəcanlı halda məktəb direktorunun kabinetinin qapısını döyür.

Sənəd işləri ilə məşğul olan məktəb direktoru Əmirxan Burzuyev qapını açdıqda qarşısında tər içində, üzü qızarmış, həyəcanlı olan Sabir Yusifovu görür. Ciddi bir hadisənin baş verdiyini düşünən Əmirxan müəllim onu kabinetə dəvət edərək:

– Keç içəri, otur, özünə gəl, sakitləş. Nə baş verib ki, bu qədər həyəcanlısan?, – deyir.

O, gördükləri barədə Əmirxan müəllimə məlumat verir və bildirir ki, ekskavatorçu silos quyusu qazarkən 2,5 metr dərinlikdə – xam torpaqda qəbir aşkar edib. Vaxtında qazıntı işləri dayandırılmasa, tarixi abidələrimiz məhv olacaq.

Əmirxan Burzuyev məktəb direktoru olmaqla yanaşı, həm də tarix fənnini tədris edirdi. Ətraf ərazilərdə qədim alban qəbiristanlıqlarının olduğundan məlumatlı idi. Amma "Ferma" ərazisində katakombanın aşkar olunması onu çox maraqlandırır.

Dərsarası fasilədə müəllimləri otağına toplayıb tapıntı haqqında onlara məlumat verir. Belə qərara gəlinir ki, bir qrup yaradılsın və silos quyusu qazılan yerə göndərilsin, qiymətli nə varsa toplanıb məktəbə gətirilsin. Gecikmək olmazdı, çünki olan-qalan nə varsa sındırıla, talana bilərdi. Sonunda İlyaz müəllimin rəhbərliyi ilə 2-3 müəllim və yuxarı sinif şagirdlərindən ibarət qrup yaradılaraq qazıntı yerinə göndərilir.

Onlar qəbir yerində insan skeletinə, bir-birindən zəngin saxsı-gil qablara, təsərrüfat küplərinə, möhür, tuncdan silah nümunələrinə və bəzək əşyalarına rast gəlirlər və çətinliklə də olsa ətrafa dağılmış əşyaları–maddi mədəniyyət qalıqlarını toplayaraq məktəbə gətirirlər. Həmin vaxt Şamaxı rayonundan olan bir rəssam Əmirvan kənd orta məktəbində praktika keçirdi. O, hər bir əşyanın ayrıca şəklini çəkərək sistemləşdirir. Şəkillər hazır olduqdan sonra müəllimlərin adından AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutuna kollektiv məktub yazılaraq göndərilir. Bir aydan sonra Qəbələ rayonundan olan tarix elmlər doktoru Qara Əhmədov həmyerlisi Fəzli müəllimlə birlikdə məktub əsasında məktəbə gəlirlər. O, arxeologiya sahəsində tarix elmləri doktoru adını almış ilk azərbaycanlı alim idi. Arxeologiyaya dair monoqrafiyaları, elmi, elmi-kütləvi kitabları vardı. Yəni bu sahənin mütəxəssisi idi. Bu barədə məktəb direktoru Əmirxan Burzuyev deyir:

– Qara Əhmədov hər bir əşyanı diqqətlə nəzərdən keçirir, gördüklərindən çox sevinirdi. Tapılmış keramika nümunələri arasında üzərinə müxtəlif rəngli boya ilə naxışlar çəkilmiş saxsı qab qırıqlarını böyük maraqla izəyirdi. Həndəsi, təbiət və heyvan təsvirləri gördükcə gözləri gülürdü. Tapılan əşyalar və Qara Əhmədovun onlara reaksiyası belə deməyə əsas verirdi ki, burada həyat tərzi yüksək səviyyədə inkişaf edib, yüksək mədəniyyət olub.

Tunc xəncərin tapılmasını isə qəbirdə yüksək sosial statusa malik qədim tayfa başçısının və ya nümayəndələrindən birinin dəfn edildiyini bildirirdi. Qara Əhmədov həm də tapılan maddi mədəniyyət qalıqlarının tunc dövrünə aid olduğunu söylədi. Sonda o, qiymətli əşyaları seçdi, özü ilə götürüb Bakıya gətirdi. Qalan əşyalardan isə məktəbdə tarix guşəsi yaradıldı.

Bir müddətdən sonra bu barədə Qara Əhmədov öz məqaləsində söhbət açmışdı. Amma Qara Əhmədov rəhmətə gedəndən sonra həmin ərazi çox zəif öyrənildi, daha doğrusu heç öyrənilmədi. Əmirvanlılar uzun illər Arxeologiya və Etnoqrafiya İnstitutundan ekspedisiya təşkil olunacağına və geniş arxeoloji qazıntı işlərinin aparılacağına inanırdılar. Lakin illər bir-birini əvəz etsə də nə gələn oldu, nə də ərazinin geniş araşdırılması həyata keçirildi.

Sonda qəbirin tapıldığı ərazi kənd sakinlərinə həyətyanı sahə kimi paylandı, yaşayış evləri tikildi. Tariximizə işıq saçacaq bir dövr 2-3 metr dərinlikdə biganəliyimizin qurbanı oldu. Bu biganəlik yaxınlıqdakı meşəlik ərazidə yerləşən bir neçə alban qəbir abidələrindən də yan keçmədi.

Xatırladım ki, silos quyusunun qazıldığı ərazinin ətrafında yeni salınan kənd Təzəkənd adlanır.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"***

# "Azərbaycan-Özbəkistan: əməkdaşlığın yeni üfüqləri"



**Dünən Azərbaycanın Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Özbəkistanın Mərkəzi Asiya Beynəlxalq İnstitutu tərəfindən "Azərbaycan-Özbəkistan: əməkdaşlığın yeni üfüqləri" mövzusunda dəyirmi masa keçirilib.**

Tədbir iştirakçıları "Özbəkistan-Azərbaycan münasibətləri: müasir imkanlar və perspektivlər" və "Orta Asiya və Azərbaycan: sabitlik və davamlı inkişaf naminə qarşılıqlı əlaqələr" mövzuları ətrafında fikirlərini bildirib, təkliflərini səsləndiriblər.

BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev Azərbaycanın xarici siyasətində Özbəkistanın mühüm yer tutduğunu qeyd edib. O bildirib ki, 2022-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkəyə üç dəfə səfər etməsi ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafında mühüm rol oynayıb.

Mərkəzi Asiya Beynəlxalq İnstitutunun direktor müavini Şerzod Fayziyev iki ölkə arasındakı əlaqələrə toxunaraq, Azərbaycanın Özbəkistan üçün əhəmiyyətli tərəfdaş olduğunu vurğulayıb.

Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov bildirib ki, ölkələrimiz siyasi, iqtisadi, mədəni, parlamentlərarası və digər sahələrdə uğurla əməkdaşlıq edir.

İki ölkə arasında münasibətlərin inkişaf perspektivlərinə toxunan Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev ölkələrimiz arasında münasibətlərin qarşılıqlı etimada əsaslanan mehriban qardaşlıq xarakteri daşıdığını vurğulayıb.

Sonra BMTM-in aparıcı məsləhətçisi Nağı Əhmədov, Azərbaycanın Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Cənubi Qafqaz, Qərbi və Mərkəzi Asiya idarəsinin rəis müavini Zamin Əliyev, Milli Məclisin deputatı Rauf Əliyev və başqaları ikitərəfli münasibətlərin geosiyasi, iqtisadi, mədəni və sair aspektlərini geniş şərh ediblər. Onlar ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi ilə bağlı bir sıra təkliflər də səsləndiriblər.

Tədbirin sonunda BMTM ilə Mərkəzi Asiya Beynəlxalq İnstitutu arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

# Bakıda Çingiz Aytmatova heykəl qoyulacaq

**Dünya şöhrətli yazıçı Çingiz Aytmatovun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən keçirilən heykəltəraşlıq müsabiqəsinin qalibləri müəyyənləşib. Bu barədə nazirlikdən bildirilib.**

Qeyd edilib ki, müsabiqədə ölkəmizin heykəltəraşları tərəfindən 21 əsər təqdim olunub. Təsdiq olunmuş işlərin dəyərləndirilməsi və müsabiqənin yekun nəticələrinin müəyyən olunması məqsədilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən Ekspert Komissiyası tərəfindən qaliblər seçilib. Müsabiqədə Natiq Əliyev birinci, Nurəli Şahbazov ikinci, İlqar Ağaşov isə üçüncü yerə layiq görülüb.

Xatırladaq ki, heykəltəraşlıq müsabiqəsi Çingiz Aytmatovun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən təşkil olunmuşdu.

***"Xalq qəzeti"***

# Ukraynalı uşaqlar İsmayıllı və Qəbələdə

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə ölkəmizə gətirilərək düşərgələrdə yerləşdirilən və reabilitasiya tədbirlərinə cəlb edilən ukraynalı uşaqların bölgələrimizə ekskursiyası təşkil edilib.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, uşaqlar əvvəlcə İsmayıllı rayonunun Basqal qəsəbəsində tarixi irsimizlə tanış olub, öz koloritini qoruyub saxlayan qəsəbəni gəziblər.

Növbəti gün iştirakçıların Qəbələ rayonuna gəzintisi təşkil edilib. Onlar təbiət gözəllikləri və istirahət mərkəzləri ilə tanış olublar.

İstirahət günlərində uşaqlar üçün art-terapiya, peşəkar psixoloq tərəfindən fərdi və qrup terapiyaları da aparılır. Düşərgədə olduqları müddətdə onlar psixososial təlimlər, ingilis dili kursları, foto çəkilişi, milli rəqslər və ustad dərslərinə də cəlb ediləcəklər.

Ukraynalı uşaqların Şəkiyə və Şamaxıya da ekskursiyalarının təşkili nəzərdə tutulur.

Qeyd edək ki, 14 günlük sosial reabilitasiya proqramı çərçivəsində uşaqların emosional vəziyyətlərinin stabilləşməsinə, eləcə də cəmiyyətə inteqrasiyalarının təmin edilməsinə dəstək göstərilir.

***"Xalq qəzeti"***

*Sosial xəbərlər*

# Amerika Ticarət Palatasının nümayəndələri ölkəmizdə

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Azərbaycanda Amerika Ticarət Palatasının ("AmCham Azərbaycan") İnsan Resursları və Əmək Komitəsinin nümayəndələri ilə görüş keçirilib.**



Söhbət zamanı ölkəmizdə son illər aparılan sosial islahatlar və əldə olunan uğurlar diqqətə çatdırılıb. Əmək qanunvericiliyinin əmək bazarında yeni çağırışlara, müasir tələblərə uyğun təkmilləşdirilməsi istiqamətində atılan addımlar, bu sahədə baş verən son dəyişikliklər barədə görüş iştirakçılarına məlumat verilib.

Görüşdə, həmçinin "Əmək və məşğulluq" altsisteminin əhəmiyyəti, yaradılmaqda olan Əməyin Mühafizəsi Mərkəzinin işəgötürənlərə metodiki dəstək verilməsində önəmli rol oynayacağı vurğulanıb. Əmək və məşğulluq sahələrində aparılan islahatlarda sahibkarlarla sosial dialoqa əsaslanan əməkdaşlığa xüsusi önəm verildiyi qeyd olunub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Əmək Siyasəti Şöbəsinin və Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəhbər şəxsləri ilə İnsan Resursları və Əmək Komitəsinin nümayəndələri arasında Əmək Məcəlləsinin tətbiqi ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparılıb, komitə üzvlərinin rəy və təklifləri dinlənilib.

# Şəmkir və Ağstafada ictimai dinləmələr

**Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa dəstək layihəsi" ilə bağlı bölgələrimizdə ardıcıl olaraq işsiz və iş axtaranlarla ictimai dinləmələr – görüşlər keçirilir. Bugünlərdə Şəmkir və Ağstafa rayonlarında da ictimai dinləmələr olub.**



Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə Əlaqələr və Kommunikasiya Şöbəsindən aldığımız məlumatda bildirilir.

Qeyd olunur ki, layihə barədə məlumatlılığı artırmaq, hədəf kateqoriyaları layihəyə cəlb etmək məqsədi daşıyan tədbirlərdə layihənin məqsədləri, əhatə dairəsi haqqında məlumat verilib. Layihənin icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblər, proqramın faydaları, müraciət və iştirak qaydaları diqqətə çatdırılıb.

Görüş zamanı iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Layihə çərçivəsində öz biznesini qurmaq istəyən işsiz və işaxtaran şəxslərə müvafiq tövsiyələr verilib.

# İsti havalarda işçilərin sağlamlığının qorunması şərtdir

**Dövlət Əmək Müfəttişliyi Xidməti bildirir ki, havanın temperaturunun 41 dərəcə Selsidən çox olan hava şəraitində əmək qanunvericiliyinin tələblərinə əsasən işçilərin həyat və sağlamlığının qorunması üçün zəruri tədbirlər görmək işəgötürənin əsas vəzifələrindən biridir. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız xəbərdə deyilir.**



Qeyd olunur ki, Əmək Məcəlləsinin 233-cü maddəsinə uyğun olaraq, havanın temperaturu 41 dərəcə Selsidən çox olan hava şəraitində açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılmalıdır.

İşçilərə sərinləmək üçün imkan yaradılmalı, onlara fasilələr verilməli, fasilənin sayı və müddəti işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı əsasında müəyyən olunmalıdır.

Məcəlləyə əsasən, bu fasilələr iş vaxtına daxil edilir və fasilələr zamanı əmək haqqı işçilərin tarif maaşına görə ödənilir. İş dayandırıldıqda boşdayanma vaxtının haqqı işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilir.

Əmək şəraiti şərtləri imkan verdiyi hallarda günün isti vaxtında iş dayandırılaraq (uzun fasilə verərək) iş günü hissələrə bölünməklə iş rejimi tənzimlənə bilər.

***Zərifə HÜSEYNOVA,***
***"Xalq qəzeti"***

# FHN-in Dövlət Yanğından Mühafizə Xidməti yanğın-taktiki təlim keçirib

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidməti Bakı şəhəri, Nizami rayonu ərazisində yerləşən SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodunda "Strateji əhəmiyyətli obyektlərin ərazisində baş verə bilən yanğınların söndürülməsi və insanların təxliyəsinin düzgün təşkili" mövzusunda yanğın-taktiki təlim keçirib.**



Təlimin keçirilməsində əsas məqsəd yüksək yanma qrupuna aid məhsulların emal edildiyi, strateji əhəmiyyət kəsb edən obyektlərdə yanğın baş verdikdə əraziyə cəlb olunan yanğından mühafizə bölmələrinin qarşılıqlı fəaliyyətinin daha da təkmilləşdirilməsi və bu kimi obyektlərdə mümkün yanğınların söndürülməsi üzrə şəxsi heyətin peşəkar bacarıqlarının gücləndirilməsi, habelə obyektin işçi heyətinin yanğınlar zamanı ilkin davranış qaydaları barədə biliklərinin artırılması olub.

Təlim zamanı Neft Emalı Zavodunda baş vermiş şərti yanğınla əlaqədar hadisə yerinə operativ çatan yanğından mühafizə bölmələri tərəfindən çevik olaraq yanğın yerinin kəşfiyyatı aparılıb, əməliyyat şəraitinə uyğun olaraq "yanğınla" mübarizə tədbirlərinə başlanılıb, obyektin şərti xəsarət almış əməkdaşları "təhlükəli ərazidən" təxliyə edilib və "yanğın" qısa müddətdə "söndürülüb".

Təlimə Dövlət Yanğından Mühafizə Xidmətinin Neftayırma Müəssisələri üzrə Yanğından Mühafizə Dəstəsinin 11, 13, 18 və 19 nömrəli Yanğından Mühafizə bölmələrinin və Bakı şəhərinin Nizami Rayon Yanğından Mühafizə Hissəsinin müvafiq qüvvələri cəlb olunub.

***Q.QASIMOV, "Xalq qəzeti"***

Köşə yazısı

# Kino: problemə baxış cəhdi



**Avqustun 2-də Azərbaycan kinosunun 125 yaşı tamam oldu. Həmin gün kino barədə hər hansı bir müzakirənin keçirilməsi təbii idi və keçirildi də. Hüseyn Cavid parkının yaxınlığındakı "Libraf" mağazasında təşkil olunmuş "Kino və ədəbiyyat" adlı müzakirədə filmlərimizlə bağlı müxtəlif problemlərə toxunuldu, perspektivlər sərf-nəzər edildi.**

Kino yaranandan ədəbiyyatı özü üçün əsas mənbə, özək kimi görüb. Dünya kinosunda ədəbi əsərlərin ekranlaşmasına daim diqqət olub. Azərbaycanda bu proses zəif gedib desək, yanılmarıq. Yalnız "Sevil", "Dəli Kür", "İmtahan", "Qətl günü", "Komsomol poeması" ("Yeddi oğul istərəm") əsərləri ekran həllini tapıb. Bir çox əsərlər isə diqqətdən kənarda qalıb.

Sözügedən müzakirədə əsas çıxışçı olan kinoşünas Nadir Bədəlov müxtəlif problemlərlə bağlı suallara cavab verdi. Təəssüf ki, sırf mövzu ətrafında danışılmadı. N.Bədəlov müzakirəni vahid istiqamətə yönəltmək istəsə də, buna müvəffəq olmadı. Buna səbəb Azərbaycan ədəbiyyatı və kinosunun bir-biri ilə əlaqədə olmamasıdır. Kino-ədəbiyyat münasibətindəki böhran fonunda Nadir Bədəlovun "Neft və Milyonlar səltənətində" (İ. Musabəyov) əsərinin yenidən ekranlaşdırılması təklifini verməsi həmin günün ruhuna uyğun çağırış idi. Kinoşünas haqlı olaraq bugünkü rejissorlarımızın əksəriyyətinin Azərbaycan ədəbiyyatından xəbərdar olmamasından gileyləndi.

Nadir Bədəlovun əsas tezisi bu oldu ki, biz kinomuzda özümüz olmalıyıq, başqalarını yamsılamamalıyıq. O, kinonun milli-coğrafi vahid olmasını xatırlatdı. N.Bədəlov buna bariz misal kimi Azərbaycanda Novruz bayramı motivli filmlərin çəkilməməsini diqqətə çatdırdı. Dedi ki, Qərb, Rusiya kinosunda Milad bayramı motivli istənilən qədər filmin olmasına baxmayaraq, Şərq mədəniyyətinə məxsus Azərbaycanda belə filmlərin çəkilməməsi düşündürücüdür.

N.Bədəlov 90-cı illərdə Hollivudun Avropa kinosu üzərindəki təsirindən də danışdı. O zaman Avropa Birliyinin müəllif kinosuna dəstək verdiyi xatırlandı. Kinoşünasın bu mesajı aidiyyəti qurumların Azərbaycanda müəllif filmlərinin inkişafı naminə hərəkətə keçməyə çağırış kimi də qiymətləndirilə bilər.

Təbii ki, kino təkcə milli məsələdən ibarət deyil. N.Bədəlov kinonu kino edən digər özəl komponentləri yada saldı. Başlıca olaraq, dramaturgiya və ssenari problemlərinə də toxunuldu. Bu gün peşəkar və ya həvəskar olmasına baxmayaraq, hər kəs Azərbaycan kinosunda ssenari problemindən danışır. Tədbirdə ssenari probleminin həlli üçün dedektiv romanlarına müraciət edilməli olduğu da bildirildi.

N.Bədəlov tezislərini söylədikdən sonra maraqlı müzakirə başlandı. Əsasən gənclərdən ibarət olan auditoriya, təbii ki, özü üçün maraq kəsb edən sualları çıxışçıya ünvanladı. Sualların səciyyəsindən qəlibləşmiş münasibətlər də aydın görünürdü. Gənclərin bir qismi yenə də köhnə Azərbaycan filmlərini nümunə kimi göstərir, müasir filmlərimizin dəyəri olmadığını bildirirdilər. Hətta sovet dövründə mövcud olan senzuranın sərt qadağaları şəraitində daha cəsarətli və daha böyük fantaziyalı filmlər yarandığı təsdiqləndi. (Əcaba, təzədən senzurayamı qayıtmalı?..)

**Debatlar barədə Nadir Bədəlovun fikirləri:**

– Müzakirələrdə müasir filmlərimizin yetərli qədər təbliğ olunmaması problemi də qabardıldı. Təəssüf ki, bu gün milli kino sənayesi nəinki ideal, heç orta vəziyyətdə deyil. Yalnız komediya janrında çəkilən filmlər büdcəyə bir qədər pul gətirə bilir. Amma o filmlərin də bədii səviyyəsi aşağı olur, bayağılıq baş alıb gedir. Elə müzakirə iştirakçıları da müasir komediyalara özlərinin tənqidi münasibətlərini göstərdilər. Bu qəbildən olan filmlərdə güclü ssenari problemi var.

Hər bir halda "Kino və ədəbiyyat" tədbirini faydalı hesab etmək olar. Çünki ən azından müzakirəyə qoşulan insanlar düşünüb, sabah yeni təkliflər, işlər ortaya qoya bilərlər. Tənqidçi mahiyyət etibarı ilə peşəkar tamaşaçıdır. Kino xadimləri də tənqiddən nəticə çıxarmaqla düzgün istiqamət tuta bilərlər. Film təkcə istehsalat prosesi deyil, həm fikri əməyin məhsuludu. Ekran işlərinə təfəkkür hadisəsi kimi baxılanda onlara həqiqi qiymət vermək mümkündür.

*Ceyhun MİRZƏLİ, sənətşünas*

# Hacı Zeynalabdin Tağıyevdən akademik Azad Mirzəcanzadəyə uzanan neft körpüsü

**Bəri başdan deyək ki, Azərbaycanın tarixi şəxsiyyətləri sırasında özünəməxsus yeri olan Hacı Zeynaladin Tağıyevlə akademik Azad Mirzəcanzadə arasındakı ortaq mənəvi dəyərləri və bağları görməkdə, necə deyərlər, iki tarixi şəxsiyyət arasındakı neft körpüsünü qurmaqda bizə Tağıyev haqqında bu il nəşr olunan "Neft sənayesinin təxirəsalınmaz ehtiyacları", həmçinin E.Şahbazov və E.Kazımovun "Akademik Azad Mirzəcanzadə – neft elinin fenomani" kitabları yol göstərmiş, bələdçilk etmişdir.**

*Əlbəttə, kim təsdiq edə bilər ki, müsbət elmi əsaslar olmadan bizim neft sahələrimiz bundan sonra onilliklər ərzində neft sənayesinin bütün tələbatını ödəmək gücündədir.*

*Hacı Zeynalabdin TAĞIYEV*





Məlum olduğu kimi, 1823-cü ildə Bakıda başmaqçı ailəsində dünyaya göz açan Hacı Zeynalabdin Tağıyev uşaqlıqdan bənnalıq edib, daha sonra inşaat ustası və təşkilatçısı kimi fəaliyyət göstərib. Daha sonra o, 1872-ci ildə iki nəfərlə şərik olaraq Bibiheybətdə torpaq payı icarəyə götürür, quyu qazdırmağa başlayır. Amma uzun müddət keçməsinə baxmayaraq, neft çıxmır. Rəqibləri Hacının müflis olacağını bildirir, şəriklərində isə ümidsizlik yaranır. Onların öz paylarını satmağa müştəri axtardıqlarını biləndə Tağıyev şəriklərinin pulunu verərək, tamamilə buruğa və yerə yiyələnir. Neft hasilatı ləngisə də, Hacı darıxmır, dözür, fəhlələrin pulunu heç vaxt gecikdirmir. Nəhayət, quyu gözlənilmədən fontan vurur. Bununla da başmaqçı Tağının oğlu palçıqçı Zeynalabdin Bakının ən varlı adamlarından birinə, gələcəkdə isə Azərbaycanın ən nüfuzlu biznesmeninə çevrilir.

Əslində, bu adi həyat həqiqəti, səbr və dözümlülük, sabaha inam hissi bir insanın həyatında dönüş nöqtəsi olur və istər-istəməz bir yunan filosofunun "ən yeni qərarlar qəbul etməyi bacarmayanları gələcəkdə ən yeni problemlər gözləyir" ifadəsini yada salır.

İlk baxışda uşaq nadincliyi kimi gözə çarpan belə bir dönüş nöqtəsinə Azad Mirzəcanzadənin taleyində də rast gəlmək olur. "Azad müəllimin xairələrindən": "1936-cı ildə mən Bakının 14 nömrəli məktəbinin 1-ci sinfinə getmişəm. Bütün hərfləri tanımağıma baxmayaraq, 2-ci sinfə kimi söz düzəldə bilmirdim. Yalnız yaxşı təfəkkür bu vəziyyətdən çıxış yolu tapmağa kömək edirdi. Yaxşı yaddaşım vardı və bu, mənə kömək edirdi. Bacım mənim üçün oxuyurdu və mən onun oxuduğu hər şeyi yadda saxlayırdım... 3-cü sinifdə oxuyanda qonşumuzgilə başqa şəhərdən bir qız qonaq gəlmişdi. Təbii ki, mən ona nəyə qadir olduğumu nümayiş etdirmək istəyirdim. Çox düşündükdən sonra qərara aldım ki, əgər pilləkənin məhəccərində başı üstə dursam, qızın xoşuna gələrəm. Təbii ki, heç nə alınmadı. Mən qəhrəmanlıq göstərərkən yıxıldım, ayağım sındı və üç ay gipsdə qaldı. Amma bu hadisənin faydası böyük oldu, gipsdə ikən mən oxumağı öyrəndim."

Görünür, böyük şəxsiyyətlərin həyatında heç nə təsadüfi olmur. Ümumiyyətlə, elmlə məşğul olmağın, öyrənməyin vəzifəyə, yaşa baxmadığını, heç vaxt gec olmadığını biz Azad müəllimin həyat təcrübəsindən də görə bilirik.

Bəllidir ki, Azad Mirzəcanzadə 23 yaşında elmlər namizədi, 29 yaşında elmlər doktoru adına layiq görülüb. Lakin bu görkəmli alimin ömür yolu, elmi fəaliyyəti heç də bir çoxlarının güman etdiyi kimi hamar olmayıb. Dəfələrlə haqsız maneələrlə üz-üzə gəlib. Bu işdə mənfur qonşularımızın payı az olmayıb. Müsahibələrindən birində "Sizin ideyalarınız hər zaman əngəlsiz qəbul olunubmu?" – sualını Azad müəllim belə cavablandırmışdı: "Bu mənada mənim əsasən bəxtim gətirib, amma düşünülmüş və məqsədyönlü şəkildə maneələr yaradıldığı da olub. Belə ki, 1951-ci ildə Y.A.Şvartsla birlikdə "Yüksəktezlikli vibrasiyalı qazma" ixtira mövzusunda yeni texniki ideya işləmişdik. Bu təklif Neft Sənayesi Nazirliyinə mühəndis Qriqoryanın rəyi üçün göndərilmişdi. O, demək olar ki, mənfi rəy verdi. Buna baxmayaraq, problemin əhəmiyyətini nəzərə alaraq nazirin 12.07.1951-ci il tarixli "Neft sənayesində vibrasiya metodunun tədbiqi" haqqında əmrinə əsasən, AzİNMAŞ-ın direktoru Danielyana vibroqazma texniki layihəsinin hazırlanmasının institutun iş planına daxil edilməsi barədə sərəncam verildi. Danielyan bu işi məhv etmək məqsədilə bu məsələyə nazirliyin Texniki İdarəsinin ixtiralar şöbəsinin müdiri Torosyanı da cəlb etdi. Sonuncu bu ideyanı birdəfəlik basdırdı. Bu hadisə ermənilərin uzaq məqsədləri naminə hələ o zamanlar da birləşə bildiyini aydın nümayiş etdirir."

Ermənilərin məkrli siyasət yeritməsinə baxmayaraq, görkəmli alim dünyanın bütün neft ölkələrində "Mirzəcanzadə mayeləri" kimi tanınmış özlü-plastik mayelərin hərəkətinə həsr olunmuş tədqiqatın müəllifi kimi tanınıb və həmin elmi axtarışların uğurlu nəticəsi açıq dənizdə – Neft Daşlarında öz təsdiqini tapıb.

Akademik Azad Mirzəcanzadə neft-qaz yataqlarının başlanğıc və mövcud vəziyyətini, eləcə də layların neft və qaz-kondensat veriminin gələcəkdə maksimum artırılması nəzərə alınmaqla işlənilməsinin nəzəriyyə və təcrübəsinə çox mühüm yeniliklər gətirib, qaz-kondensat və qeyri-Nyuton neftli yataqların işlənməsi nəzəriyyəsini, mürəkkəb şəraitdə quyuların qazılmasının hidrodinamik əsaslarını işləyib hazırlayıb. Onun təşəbbüsü ilə axtarış-kəşfiyyat işlərindən tutmuş neftin və qazın nəqlinədək neft sənayesinin ən müxtəlif sahələri tədqiq edilib. Böyük alimin neft elmi sahəsində işlərinin nəticələri Azərbaycan, Başqırdıstan və Qərbi Sibirin məşhur neft rayonlarında, eləcə də xarici ölkələrdə geniş tətbiq olunub, nəticədə uğurlu iqtisadi səmərə əldə edilib.

Əslində, hər iki dahi şəxsiyyətin həyat yoluna nəzər saldıqda onlar arasında bir mənəvi bağ olduğunu, necə deyərlər, sözün əsl mənasında bir neft körpüsü olduğunu görürük və fikrimizi akademik Azad Mirzəcanzadənin Hacı Zeynalabdin Tağıyev haqqında dediyi dəyərli sözlərlə yekunlaşdırmaq istəyirik: "Mənə elə gəlir ki, biz anlamalıyıq ki, maddi dəyərlərin istehsalından elmi potensialın artırılmasına keçmək lazımdır. Bunun üçün bizdə həm kadrlar nöqteyi-nəzərindən, həm də maddi baza baxımından hər cür imkanlar mövcuddur. Burada böyük maarifçi və şəxsiyyət Hacı Zeynalabdin Tağıyev yada düşür. Onun Azərbaycanda qızlar üçün açdığı gimnaziyada ali təhsilli və maarifçi qadınların pleyadası yetişib. Onun köməyi sayəsində olduqca çox sayda böyük şəxsiyyət gəncliyində təhsil üçün Rusiyaya və xaricə göndərilib. Şövkət Məmmədovanı, Nəriman Nərimanovu, akademik Mirqasımovu və b. xatırlamaq kifayətdir."

***Akif ƏHMƏDGİL, "Azərbaycan Neft Təsərrüfatı" jurnalının xüsusi müxbiri***

# Nazirlikdə rəssamla görüş

**Ölkəmizə və mədəniyyətimizə şöhrət gətirən sənətkarlardan biri görkəmli rəssam Sakit Məmmədovdur. Xalq rəssamı adını ləyaqətlə doğruldan ünlü həmyerlimiz YUNESKO Rəssamlar İttifaqının üzvü, Avropa Təbiət Elmləri Akademiyasının fəxri professoru, Vatikan Heraldika Akademiyasının qrafı, Ümumdünya Rəssamlıq Akademiyasının həqiqi üzvü, Rusiya İmperial Rəssamlıq Akademiyasının fəxri üzvü, Roma Müasir İncəsənət Akademiyasının fəxri üzvü, Dünya İncəsənət Akademiyasının həqiqi üzvü, "Türk Dünyası" Akademiyasının həqiqi üzvüdür.**



Bu günlərdə müasir Azərbaycan təsviri sənətinin öncüllərindən sayılan Sakit Məmmədovun 65 yaşı tamam oldu. Mədəniyyət Nazirliyində bu münasibətlə onunla görüş keçirilib.

Nazir Adil Kərimli sənətkarı təbrik edib, ona yeni yaradıcılıq uğurları arzulayıb. Xalq rəssamına Mədəniyyət Nazirliyinin Fəxri diplomu təqdim olunub.

Görüşdə qeyd edilib ki, Sakit Məmmədov zəngin yaradıcılığı ilə Azərbaycan rəssamlıq sənətinin inkişafına, dünyada tanınmasına mühüm töhfələr verib, sənətdə özünəməxsus üslubunu, dəst-xəttini yaradıb. Onun beynəlxalq incəsənət festivallarının qalibi olması, müxtəlif ölkələrdə təltiflərə layiq görülməsi, əsərlərinin mötəbər şəxsi kolleksiyalarda, muzey və qalereyalarda saxlanılması, eyni zamanda Azərbaycan rəssamlığının nailiyyətidir. Xalq rəssamı sənətin sirlərini gənclərə də həvəslə öyrədir.

Görüşdə milli rəssamlıq sənətinin inkişafı və təbliği ilə bağlı fikir mübadiləsi aparılıb. Sakit Məmmədov fəaliyyətinə və yaradıcılığına göstərilən diqqətə görə minnətdarlığını ifadə edib.

*"Xalq qəzeti"*

# Nevşehirdə Mədəniyyət Yolu Festivalı

**Anadolu bölgəsindəki Nevşehir qardaş ölkədə keçirilən Kapadokya Balon və Kültür Yolu Festivalının ilk dayanacağı olub. Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy jurnalistlərə açıqlamasında bildirib ki, sənət adamlarını Türkiyə bu kimi festivallarla dəstəkləyir, eyni zamanda, bu tədbirlərin keçirildiyi şəhərlərin tanınması və markalaşmasına səy göstəririk.**



"Bu yolculuğa 2020-ci ildə İstanbulda Beyoğlu Mədəniyyət Yolu Festivalı ilə başladıq. İlbəil festival keçirdiyimiz şəhərlərin sayını artır. Bu il şəhərlərin sayını artıq11-ə çatdırdıq", – deyə o bildirib.

Nazir daha sonra deyib ki, Kapadokya Balon Festivalını Ərzurum Palandöken, Trabzon, Sümela, Çanaqqala Troya, Başkent, Konya Mistik, İstanbul Beyoğlu Mədəniyyət Yolu, Diyarbakır Sur, İzmir Efes və son olaraq Antalya Mədəniyyət Yolu Festivalı izləyir. Mədəniyyət Yolu festivalları şəbəkəsinə Antep Qastro Festivalı da daxil edilib. Bu il 30 mindən çox türk sənətçisi 11 rayondakı 11 festivalda milyonlarla sənətsevərlə bir araya gələcək.

Nevşehir Kapadokya Balon Festivalı avqustun 13-dək davam edəcək. Ümumiyyətlə idə Türkiyə Kültür Yolu Festivalları avqustun 5-dən noyabrın 12-dək sürəcək.

Mehmet Nuri Ersoyun bildirdiyinə görə, hədəf 2028-ci ilə qədər 35 şəhərdə mədəniyyət festivalları təşkil etməkdir.

*"Xalq qəzeti"*

# Tarixi faktlara rəng verən rəssam



**Ölkəmizdə rəssamlıq sənətini yüksəklərə qaldıran, bu peşəni Azərbaycandan kənarda layiqincə təmsil edən görkəmli rəssamlarımız çox olub. Bu məktəbin layiqli davamçılarından biri də rəssam Nihad Əliyevdir.**

Portret janrında rəsmlər çəkməyə üstünlük verən rəssam ərsəyə gətirdiyi əsərlərdə gizlənən incə detallar haqqında izləyiciləri məlumatlandırır, onlarda həmin əsər haqqında bədii fikir formalaşdırır. Kompozisiyalı portretlərin onun həyatında mühüm yer tutduğunu deyir. Dahi bəstəkarları, yazıçıları, elm və incəsənət adamlarını, tarixi şəxsiyyətləri tablolarında əbədiləşdirir.

Nihad Əliyev 1986-cı ildə Göyçay şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Ali təhsilini iqtisadiyyat sahəsi üzrə alsa da, uşaqlıq hobbisi olan rəssamlığa marağı onu rahat buraxmır. Rəssam deyir ki, bu sənət onun üçün hər şeydir. Onu həyata bağlayan çəkdiyi rəsm əsərləridir. Həmin əsərlərdən ilhamlanaraq böyük uğurlar əldə edir. Ürəkdən çəkilən rəsm əsəri qazanc xatirinə çəkilən rəsm əsərindən daha dəyərli olur.



O, opera əfsanəsi Pleçido Dominqoya həsr olunan "Lirik-dramatik tenor və bariton", dahi italyan bəstəkarı Ennio Morrikonenin əks olunduğu "Tanrının İtaliyaya bəxş etdiyi sərvət", alman ədəbiyyatının əfsanəsi Hötenin canlandırdığı "İohann Volfanq Höte", dünya şöhrətli memar və dizayner Zaha Hadidin şərəfinə çəkilən "Mənim ən sevimli layihələrim", fransız heykəltəraşı Frederik Ogüst Bartoldinin təsvir olunduğu "Dünyanı işıqlandıran azadlıq", türk ordusunun yenilməz qəhrəmanı Nuru Paşaya həsr olunan "Qələbəyə baxış", "Bakının işğaldan azad edilməsi" və digər son dərəcə maraqlı rəsm əsərlərinin müəllifidir.

Rəssam 36 xarici ölkədə – Türkiyə, Ukrayna, Rusiya, ABŞ, Hindistan və digər yerlərdə keçirilən beynəlxalq sərgilərdə, müsabiqələrdə ölkəmizi layiqincə təmsil edib, diplom və mükafatlarla təltif olunub. Məktəblilər arasında keçirilən sərgilərdə, müsabiqələrdə münsiflər heyətinin üzvü və rəhbəri qismində çıxış edən Nihad Əliyev Fransanın paytaxtı Parisin mərkəzində yerləşən, dünyanın ən böyük və ən zəngin muzeyləri sırasında olan, Mona Lizanın evi kimi tanınan Luvr Muzeyində keçirilən sərgilərdə uğurla iştirak etdiyi üçün, sertifikatlarla təltif olunub. 18 dəfə Hindistanda keçirilən beynəlxalq müsabiqədə münsif kimi iştirak edib.

"Qafqaz Media İctimai Birliyi" tərəfindən, "İlhamlı Azərbaycan" döş nişanı və "Xarı Bülbül" medalı ilə mükafatlandırılıb. 2020-ci ildə "Caspian Awards 2020"



Azərbaycan layihəsində "İlin Peşəkar Rəssamı" adına layiq görülüb. 2021-ci ildə, Azərbaycan Kütləvi İnformasiya Vasitələrinin Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarıyla, rəssamlıq sahəsində göstərdiyi uğurlu fəaliyyətinə görə, "İlin Adamı" media mükafatı ilə mükafatlandırılıb.

Almaniya Beynəlxalq Ədəbiyyat, İncəsənət və Kommunikasiya Akademiyasının həqiqi üzvü, Azərbaycan Rəssamlar İttifaqının üzvü, "Qızıl fırça" mükafatı laureatıdır.

***Fidan HÜQUQQIZI, "Xalq qəzeti"***

# Fransanın müstəmləkə sisteminin süqutu davam edir

**Özünü dünyanın sivil, mədəni, hərbi-siyasi mərkəzlərindən biri kimi görmək və təqdim etməyə çalışan rəsmi Parisin öz müstəmləkələri ilə münasibətləri fiaskoya uğramaqda davam edir. Təkcə Nigerdə son günlər baş verən narahat olaylar Fransanın Afrika siyasətinin olduqca yarıtmaz olduğuna dəlalət edir.**



Bu günlərdə "Le Figaro" qəzetində 92 fransız senatorun Prezident Emmanuel Makrona ünvanladığı açıq məktub dərc olunub. Orada deyilir: "Bu gün Niger, dünən Mali, Mərkəzi Afrika Respublikası, Burkina-Faso Fransa və onun qoşunlarını, şirkətlərini rədd etdi. Afrikada bu hərəkat böyüyür, hətta Kot-d'İvuar kimi bizə yaxın ölkədə belə Fransa əleyhinə aksiyalar keçirilir. Dost qitə olan Afrika, deyəsən, Fransanı başa düşməyi dayandırıb və onun roluna, mövcudluğuna getdikcə daha çox meydan oxuyur".

Senatorlar onu da etiraf ediblər ki, Parisin Şimali Afrika, o cümlədən



Əlcəzair, Mərakeş və Tunislə münasibətlərində də qeyri-müəyyənlik və anlaşılmazlıqlar mövcuddur. Fransa hökumətinin Afrika ilə hərbi, siyasi və mədəni əməkdaşlıq sahəsində uğursuzluqları qitədə nəinki antifransız əhval-ruhiyyəsinin güclənməsinə, həm də Rusiya, Çin və ABŞ-ın təsirinin artmasına səbəb olub.

Hörmətli oxucular, əməkdaşımız Fransa–Afrika münasibətlərində yaranan böhranın səbəblərinə və mümkün nəticələrinə aydınlıq gətirmək üçün **Bakı Dövlət Universitetinin Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor Aydın İbrahimovla** söhbət etmişdir. Bu maraqlı müsahibədən bəzi məqamları diqqətinizə çatdırmağı qərara almışıq.

**– Aydın müəllim, rəsmi Parisin keçmiş müstəmləkələri ilə münasibətlərinin korlanmasının səbəbi nədir?**

– Bu suala cavab vermək üçün tarixə nəzər salmaq lazımdır. Məlumdur ki, Fransa İngiltərə ilə birlikdə dünyanın əsas müstəmləkəçi dövlətlərindən biridir. Onun müstəmləkələri əsasən Afrikanın orta şərqində və qitənin şimalında yerləşir.

Müstəmləkəçi ölkələrin rəhbərlərində qəribə psixologiya formalaşır. Fransa və digər müstəmləkəçi dövlətlər kimi hesab edirlər ki, koloniyalar onlara hər zaman qul kimi itaət etməlidir. Parisdə düşünürdülər ki, Fransanın yüksək inkişaf və sivil, demokratik həyat tərzi əllərində saxladıqları müstəmləkələrin həyatına müsbət təsir göstərəcək və koloniyaların əhalisi düşünmədən metropoliyanın yolunu davam etdirəcək.

Lakin bu, baş vermədi və 1960-cı illərdən Fransanın müstəmləkə sistemi dağılmağa başladı. Gündəmə yeni idarəetmə modeli çıxdı, yeni müstəmləkələrin idarəçiləri milli kadrlardan olan hökumətlər olacaq, lakin bütün əsas və həlledici məsələlər xaricdən, konkret oalraq Parisdən idarə ediləcək.

Bu məqsədlə xüsusi qurum, fransızdilli dövlətlərin beynəlxalq təşkilatı –Frankofoniya yaradıldı. Buraya 58 dövlət daxildir. Maraqlıdır ki, onların içərisində Fransanın köhnə müstəmləkələri ilə bərabər, qonşumuz Ermənistan da var. Bundan başqa Albaniya, Bolqarıstan və Moldova bu təşkilatın üzvüdür. Frankoniya təşkilatının niyyəti Fransanın nüfuzunu bütün dünyada yaymaq və gücləndirməkdir.

**– Bəs niyə hər şey əksinə oldu?**

– Bəli, çox şey Yelisey sarayının planlaşdırdığı kimi getmir. Görünən budur ki, Fransa keçmiş müstəmləkələrin inkişafını sürətləndirə bilmədi. Rəsmi Paris öz siyasi müstəqilliklərin elan etmiş keçmiş koloniyaları ilə qarşılıqlı inam və etimada əsaslanan bərabərhüquqlu iqtisadi və siyasi əməkdaşlıq qurmaq istəmədi.

Nigerdə baş verən olaylar buna gözəl nümunədir. Bu ölkə dünyada ən yoxsul dövlət sayılır. Niger insan inkişafı indeksinə görə də dünyada axırıncı yeri tutur.

Lakin bir amil var ki, bu, Nigeri fransızların müstəmləkə təfəkküründə bu ölkənin əhəmiyyətini kəskin artırır. Paris Nigeri əldən buraxmağı ağlına belə gətirmir.

Qeyd etmək lazımdır ki, Niger uran ehtiyatlarına görə dünyada beşinci yerdədir. Lakin bu ölkədə əhalinin yarıdan çoxu yoxsulluq həddindən aşağı səviyyədə yaşayır.

Nigerdə baş verən hərbi çevriliş bu qəbildən olan ölkələr üçün adi haldır. Bununla bərabər, zəngin uran ehtiyatları Nigerin strateji əhəmiyyətini artırır. Nəzərə alaq ki, Fransanın ümumi elektrik enerjisinin 70,6 faizi atom elektrik stansiyalarında istehsal olunur. Xammal isə Afrikadan, ən çox da Nigerdən gəlir.

**– Nəyə görə Afrikada Fransanı sevmirlər?**

– Fransalı müstəmləkəçilər bu ölkələrin inkişafı üçün heç bir iş görməyiblər. Onların iqtisadiyyatı yalnız əhalinin istehlak malları ilə təchiz olunmasına yönəlib. Məsələn, Misir pambıq, Nigeriya neft, Qana kakao, Şri-Lanka çay üzrə ixtisaslaşıb. Yalnız bu ölkələrin paytaxtları az-çox inkişaf edib. Bu ölkələrdə zənginlərlə kasıblar arasında uçurum daim dərinləşir, müstəmləkəçilərin yetişdidiyi satqın elita isə imperialistlərin maraqlarına xidmət edir.

Sosial sferada da ədalətsizliklər və kəskin fərqlər durmadan artır. Bütün bunlar Afrika ölkələrində saysız-hesabsız qiyam və çevrilişlərə şərait yaradır.

**– Qitədə Fransanın yerini tutmaq istəyən dövlətlər də az deyil...**

– Fransanın Afrikada zəifləməsi Çin və Rusiyanın əlinə işləyir. Onlar bir qədər başqa siyasət həyata keçirir. Belə ki, Pekin və Moskva "Qlobal Cənubu" "Qlobal Şimal"ın əleyhinə çevirmək istəyir. Onlar Fransanın uğursuz köhnə modelindən fərqli olaraq yeni əməkdaşlıq yolları axtarır və tətbiq etməyə cəhd edirlər.

Bütün bunlar Ukrayna müharibəsinə başı qarışan Qərbi narahat edir və çıxış yolu axtarmağa vadar edir. Bu kontekstdə ABŞ Dövlət katibinin köməkçisi Viktoriya Nulandın Nigerə səfərini və Makronun BRİKS sammitinə getmək arzusunu qeyd etmək yerinə düşərdi.

Əks tərəf də boş dayanmır, belə ki, Rusiya Afrikanın borclarını silir, orada hərbi mövcudluğunu gücləndirir. Rusiya SSRİ dağılandan sonra Afrikadan ilk dəfə olaraq ali təhsil müəssisələri və mədəniyyət mərkəzləri açır. Çin isə Afrika iqtisadiyyatının əsas donorlarından birinə çevrilib.

Beləliklə, Afrika uğrunda yarış amansız rəqabət davam edir. Hansı super gücün daha üstün mövqelər qazanacağını isə zaman göstərəcək.

*Söhbəti qələmə aldı:*
*Məsaim ABDULLAYEV,*
*"Xalq qəzeti"*

# Blinken: Rusiyanın Afrika ölkələrinə taxıl tədarükü qiymət artımını dayandırmayacaq



**Rusiyanın Afrika ölkələrinə təklif etdiyi taxıl tədarükü bazardakı vəziyyəti dəyişməyəcək və qiymət artımı problemini həll etməyəcək.**

Bunu ABŞ-ın Dövlət katibi Antoni Blinken Fransanın RFI radiostansiyasına müsahibəsində bildirib.

"Rusiya 5-6 ölkəyə 50 min ton taxıl tədarük etmək ideyasını irəli sürüb. Rusiyanın bu təklifi okeanda bir damladır, problemi həll etmir. Bu, milyonlarla ton taxılın bazardan çıxarılması və ehtiyacı olanlara, xüsusən də inkişaf etməkdə olan ölkələrdə əlçatmaz olması faktını dəyişməyəcək", - deyə Dövlət katibi qeyd edib.

Onun sözlərinə görə, Qara Dəniz Taxıl Təşəbbüsü çərçivəsində inkişaf etməkdə olan ölkələrə 20 milyon ton taxıl ixrac edilib. Müqavilə çərçivəsində ixrac edilən 20 milyon tona qarşı Rusiyanın təklif etdiyi 50 min ton müqayisəolunmazdır.

*"Xalq qəzeti"*

## Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciətlər əsasında Azərbaycan Respublikası Mərkəzi Bankı idarə heyətinin 2 avqust 2023-cü il tarixli qərarı ilə siyahıda göstərilən (siyahı əlavə olunur) 2 nəfər fiziki şəxsə sığorta agenti fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.

**"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə əsasən ləğv olunan lisenziyaların siyahısı**

| № | Lisenziya sahiblərinin adları | Lisenziyanın verilmə tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | İskəndərov Bəyoğlan Vahid oğlu | 25.01.2022 | SA-0231 | 1305140272 |
| 2 | Hüseynova Məryəm Emin qızı | 02.12.2022 | SA-0269 | 1604878892 |

# Onun ekran əsərləri milli kinomuzun "qızıl fondu"nu təşkil edir




**Xalq artisti Rasim Balayevin anadan olmasının 75 illiyi münasibətilə bu gün Mədəniyyət Nazirliyində sənətkarla görüş keçirilib.**

Nazir Adil Kərimli Rasim Balayevi təbrik edib, möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıb, sənətkara nazirliyin Fəxri diplomunu təqdim edib.

Aktyorun Azərbaycan kinematoqrafiyasının inkişafına töhfələrini yüksək qiymətləndirən nazir onun çoxsaylı filmlərdə canlandırdığı yaddaqalan obrazlarla tamaşaçıların dərin sevgisini qazandığını diqqətə çatdırıb. Qeyd olunub ki, Rasim Balayevin çəkildiyi ekran əsərləri milli kinomuzun "qızıl fondu"nu təşkil edir.

Rasim Balayev yaradıcılığına göstərilən diqqətə görə minnətdarlığını ifadə edib, bundan sonra da kino sənətinin inkişafına töhfə verməyə çalışacağını deyib.

*"Xalq qəzeti"*

# Mədəniyyət Nazirliyində Akif İslamzadə ilə görüş




**Avqustun 8-də Mədəniyyət Nazirliyində Azərbaycan estrada sənətinin görkəmli nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Akif İslamzadə ilə görüş keçirilib.**

Nazir Adil Kərimli bu günlərdə 75 yaşı tamam olan Akif İslamzadəni yubileyi münasibətilə təbrik edib. Sonra ona Mədəniyyət Nazirliyinin Fəxri diplomu təqdim olunub.

Qeyd edilib ki, Akif İslamzadə ifa üslubu ilə Azərbaycan estrada sənətinin inkişafına, ifaçılıq məktəbinin zənginləşməsinə töhfələr verib. Estrada ifaçılıq sənəti ilə bərabər, xalq mahnılarımızın da ifasında özünəməxsus üslubunu, dəst-xəttini yaradan müğənni xalqın böyük sevgisini qazanıb. Mahnı ifaçılığında özünəməxsus yeri olan Akif İslamzadənin səsində lentə alınan nəğmələr bu gün də sevə-sevə dinlənilir, müğənnilərin repertuarında yer alır.

Akif İslamzadə fəaliyyətinə göstərilən diqqətə görə minnətdarlığını ifadə edib.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

özünün inzibati binası üçün elektrik mallarının satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il avqustun 16-sı saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu- (012) 404-37-00, daxili:1177
Ünvan- AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

tabeliyindəki idarələr üçün elektrik mallarının satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il avqustun 17-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177 .
Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

## "Bakı Yoltexnikatəmir" ASC səhmdarlarının nəzərinə!

18 sentyabr 2023-cü il saat 10.00-da cəmiyyətin inzibati binasında "Bakı Yoltexnikatəmir" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
**1.** 2022-ci ilin yekunlarına aid idarə heyətinin hesabatı.
**2.** Təşkilati məsələlər.
**3.** İdarə heyəti sədrinin və üzvlərinin seçilməsi.
**4.** Müşahidə şurası sədrinin və üzvlərinin seçilməsi.
**5.** Daxili auditin (təftiş komitəsi) müfəttişin seçilməsi.
**6.** Digər məsələlər.

*İdarə heyəti*

## "Sabirabad-konserv" ASC səhmdarlarının nəzərinə!

22 sentyabr 2023-cü il saat 15.00-da "Sabirabad-konserv" ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
**1.** Sahibkarlığın İnkişafı Fonduna müraciət edilməsi.
**2.** "Sabirabad-konserv" ASC-nin müşahidə şurasının 28 iyul 2023-cü il tarixli iclasında qəbul edilmiş qərarın təsdiq olunması.

Ünvan – Sabirabad şəhəri, Vidadi küçəsi 1.

*Müşahidə şurası*

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 167 (30283) 9 avqust 2023-cü il, çərşənbə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## “Qarabağ” geriləyib, “Neftçi” irəliləyib



**Azərbaycan klublarının UEFA reytinqindəki mövqeləri açıqlanıb.**

Son 5 mövsümdə toplanan əmsalların cəminə əsasən tərtib edilən siyahıda “Qarabağ” ən yüksək reytinqli Azərbaycan klubudur. UEFA Çempionlar Liqasının II raundunda Polşa komandası “Rakuv”a iki görüşün cəmində uduzması Ağdam təmsilçisinin geriləməsi ilə nəticələnib. Qurban Qurbanovun yetirmələri bir pillə geriləyərək 24.500 xalla 62-ci yerdə qərar tutub. 10.000 əmsalı “Neftçi” 3 komanda ilə birlikdə 135-ci pilləni bölüşür. “Ağ-qaralar” 2 pillə irəliləyib.

Reytinqdə geriləyən “Qəbələ” 4.500 xalla 268-ci sıradadır. Azərbaycan çempionatının digər iştirakçılarından “Sumqayıt”, “Şamaxı”, “Sabah”, “Zirə” və “Səbail” “300-lük”dən kənardadırlar.

Reytinq cədvəlində İngiltərə təmsilçisi “Mançester Siti” (124.000) liderdir. Sonrakı yerləri Almaniyanın “Bavariya” klubu (120.000) və Madrid “Real”ı (106.000) tutur.

## II MDB Oyunlarında daha 1 qızıl medal

**Belarusun paytaxtı Minskdə keçirilən II MDB Oyunlarında Azərbaycan komandasının uğurlu çıxışı davam edir.**




Komandamızın aktivinə daha bir qızıl medalı Azərbaycan atıcısı Leyli Əliyeva yazdırıb. Pnevmatik tapançadan 10 metr məsafəyə atəş növündə hədəfi dəqiq nişan alan idmançımız bütün rəqiblərini qabaqlayaraq qalib adına layiq görülüb. Bununla da, yığmamızın əldə etdiyi qızıl medalların sayı 4-ə çatıb.

Bundan əvvəl cüdoçularımızdan 3-ü qalib adına layiq görülüb, 1-i gümüş, 5-i bürünc medal əldə edib. Bədii gimnastika üzrə qrup hərəkətlərində komandamız çoxnövçülükdə 1 bürünc, 5 ip, 5 topla isə 2 bürünc, yunan-Roma güləşçilərimiz 5 gümüş, 4 bürünc medala sahib olublar. Daha 2 bürünc medalı isə boksçularımız qazanıblar.

## Avropa paralimpiya çempionatında 1 qızıl, 1 gümüş medal



**Azərbaycan paracüdoçuları Niderlandın Rotterdam şəhərində keçirilən Avropa paralimpiya çempionatına uğurla start veriblər.**

İdmançılarımızdan Şəhanə Hacıyeva (48 kq) Avropa paralimpiya çempionatında qızıl medal qazanıb. Komandamızın digər üzvü Namiq Abaslı (73 kq) ikinci yeri tutub.

*Leyla SABİRQIZI, “Xalq qəzeti”*

Texnologiya yenilikləri



## Süni intellekt şair oldu

**“iPhone”un tətbiq mağazası “Apple Store”da “Pamera” adlı proqram çəkilən şəkillərə əsasən dörd sətirlik şeirlər yazmağı bacarıb.**

“Pamera” istifadəçinin kamerası tərəfindən çəkilmiş fotoşəkilləri müəyyən edir və “GPT-4” dil modelinin dəstəyi ilə şeir yazmaq üçün ondan istifadə edir. Şeirlərin hazırlanması üçün məşhur Xorxe Luis Borxesin üslubundan ilham alınıb.

Nümunə üçün proqramın tərtibatçısı Damjanski proqram ilə sevimli itinin fotosunu paylaşıb. Nəticədə “Pamera” şəkilə şeirlə cavab verib. Bildirilib ki, bu versiya istifadəçilərə daha da sürreal şeirlər yaratmağa imkan verəcək.

*Əfsanə ƏHƏDLİ, “Xalq qəzeti”*

## Süni zəka meşə yanğınları ilə mübarizədə yardımçı ola bilər

***“Firestory” adlı startap meşə yanğınları ilə bağlı problemin aradan qaldırılmasına dair “Pano AI” adlı texnologiyasını təklif edib. Yeni texnologiya real zaman ərzində yanğın təhlükələrini aşkar etmək və qiymətləndirmək üçün süni zəka ilə çalışan kameralardan istifadə edir. Həmin texnologiya sayəsində kameralar baş verə biləcək təhlükələri öncədən bildirir.***



“Pano AI” texnologiyası əsasında süni zəka ilə yanaşı, təkmilləşdirilmiş kameralardan da istifadə edir. Həmin kameralar ətraf mühiti 360 dərəcə skan edə bilir.

Bu kameralar bir neçə milyon hektar ərazini əhatə edən geniş landşaftları daimi nəzarət altında saxlamağı bacarır. Kameralar tüstünün və digər yanğın amillərinin aşkar edilməsi üçün “deep learning” adlanan alqoritmlərindən istifadə edir. Önəmli məlumatları əldə etdikdən sonra “Pano AI” onları fövqəladə hallar xidmətinə ötürür.

*Leyla HADİ, tələbə-jurnalist*

Maraq dünyamız

## Ağciyərlər saatda 10 milyondan çox trombosit istehsal edir

***Ağciyərlərin insan orqanizmindəki rolu yalnız tənəffüzlə bağlı deyil. “Nature” elmi jurnalında çap olunan məqalədə bir qrup alim ağciyərlərin qanın inkişafı və istehsalında iştirak etdiyini bildirib. Onlara görə, ağciyərlər saatda 10 milyondan çox trombosit (kiçik qan hüceyrələri) istehsal edir.***



Xatırladaq ki, ağciyərlər qazlar mübadiləsi funksiyasını yerinə yetirir; bu zaman qan oksigen ilə zənginləşir və karbon qazından azad olur.

## Həşəratlar ağrı hiss edirmi?



*Onurğalıların hisslərini ən azı insanlara bənzətməklə mühakimə edə bilərik.*

Əgər iynə batırılmış heyvan özünü iynə vurulmuş insan kimi aparırsa, ehtimal ki, o da eyni hisləri keçirir. Əlbəttə ki, bu hiss bütün həşəratlara aid deyil. Amma drozofil milçəkləri digərlərindən fərqlənir. Onlarda insanın ağrı reseptorlarına oxşar olan neyronlar aşkar edilmişdir və ağrını hiss edirlər.

Bununla belə, ümumilikdə götürüldükdə həşəratların fiziki əzab çəkdiyi nə sübut, nə də təkzib edilmişdir. Onların ağrı qavrayışı insanlardakından əhəmiyyətli dərəcədə fərqlidir. Çünki bir çoxu ciddi xəsarətlər alsalar da (məsələn, bir və ya iki ayağını itirərək) özlərini heç nə olmamış kimi aparırlar. Çəyirtkələrin isə ayağından tutduqda özləri onu ayırırlar.

*P.ƏFƏNDİ, “Xalq qəzeti”*

## “Facebook Messenger”də SMS xidməti ləğv olunur

**“Meta” şirkətinin “Facebook” ilə əlaqəli olan proqramı “Facebook Messenger”də tezliklə mesaj göndərilməsi dayandırılacaq. Beləliklə, o, artıq SMS proqramı kimi istifadə olunmayacaq.**



Şirkətin rəsmi səhifəsində bildirilib: “Facebook Messenger” populyar xidmətdir, proqramdan sırf mesajlaşma üçün istifadə edilməsi məqsədəuyğun deyil. Ona görə də, SMS tətbiqi kimi istifadə etməyə imkan verən funksiya silinir. Həmçinin bunun üçün “WhatsApp” mövcuddur. 28 sentyabr 2023-cü il tarixindən sonra proqramı yenilədikdə, insanlar SMS mesajlarını göndərmək və qəbul etmək üçün “Messenger”dən istifadə edə bilməyəcəklər”.

*Aytən NƏCƏFOVA, “Xalq qəzeti”*

## Sakit okean soyuyur

**Kolorado Universitetinin alimləri qeyd ediblər ki, Sakit okeanın şərq hissəsinin temperaturu bütün iqlim normalarına baxmayaraq soyumağa başlayıb. Belə ki, bu okeanın temperaturu son 39 ildə 0.5 dərəcə Selsi aşağı düşüb. Soyumaqda olan sahənin böyük olmasına baxmayaraq proses iqlimə qlobal təsir edə bilər. Alimlərin bildirirlər ki, əsrin sonuna kimi ortalama qlobal temperatur gözlənildiyi kimi 1.9 dərəcə deyil, 1.3 dərəcə Selsi yüksələcək.**



Planetin ən böyük okeanı olan Sakit okean qlobal iqlimin tənzimlənməsində vacib rol oynayır. Belə ki, o, Günəş işığının böyük hissəsini udaraq su axınları vasitəsilə istiliyi dünyaya yayır. Alimlər ilk dəfə Sakit okeanın soyumasını 2022-ci ildə təyin etmişdilər. Daha öncə düşünülürdü ki, digər okeanlar kimi Sakit okeanın da temperaturu yüksələcək. Lakin 1979-cu ildən 2020-ci ilə kimi yığılmış məlumatların geniş təhlili onu göstərib ki, Sakit okeanın temperaturu sabit olaraq aşağı düşür. Okeanın şərq hissəsinin temperaturu həmişə qərb hissənin temperaturundan ortalama olaraq 5-6 dərəcə Selsi aşağı olub. Lakin 1980 – 2019-cu illər arasında bu temperatur fərqli olaraq 0.5 dərəcə Selsi yüksəlib.

*Səadət RZAYEVA, “Xalq qəzeti”*

Sağlamlıq

## Kakao iç, gənc qal...

***Elm adamları kakao paxlasında epikateşin kimi bir elementin olduğunu aşkar ediblər. Bu, orqanizmdə xərçəng və diabetlə mübarizə aparan, həmçinin infarkt və insultların qarşısını alan təbii, kimyasal flanovoiddir. Səhərlər kakao dəmləyib içənlərdə qocalma prosesi ləngiyir.***



Qərb alimlərinin araşdırmalarına görə, kakao piylənməyə səbəb olmur, əksinə, əlavə çəkidən azad olmağa kömək edir. Çünki istifadə edildikdə, doyma hissi çaydan (yaşıl və ya qara) və ya qəhvədən daha tez yaranır.

Mütəxəssislər belə qənaətə gəliblər ki, kakaonun faydasını görmək üçün onu səhər içmək daha yaxşıdır. Kakao paxlasında dərini ultrabənövşəyi radiasiyanın mənfi təsirlərindən qoruyan melanin var. Melanin günəş yanıqlarının qarşısını alır, toxumaların elastikliyini, bununla da gəncliyi qoruyur.

Kakaonun başqa faydaları da, əks göstərişləri də var:

**Təzyiqi azaldır.** Kakao azot oksidi ilə doludur, bu da damarların genəlməsinə səbəb olur və təzyiq kifayət qədər tez aşağı düşür.

**Sümükləri gücləndirir.** Kakaonun tərkibindəki kalsium, fosfor sümük və oynaqlarda problemi olanlar üçün çox faydalıdır.

Bütün müsbət xüsusiyyətləri ilə yanaşı, kakaonun əks-göstərişi də var. Məsələn, qastrit, mədə və ya onikibarmaq bağırsağın xorası olanlar bu içkinin qəbulunu məhdudlaşdırmalıdırlar.

*Z.HÜSEYNLİ, “Xalq qəzeti”*

Proqnoz




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən **avqustun 9-da Bakıda və Abşeron yarımadasında** yağmursuz keçəcək. Cənub-şərq küləyi əsəcək. Gecə 22-27°, gündüz 35-38°, bəzi yerlərdə 40° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 45-55 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 27-28°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 28-29° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz saatlarında bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-28°, gündüz 35-40°, bəzi yerlərdə 42-44°, dağlarda gecə 16-21°, gündüz 27-32° isti olacaq.

*Q. QASIMOV, “Xalq qəzeti”*

## Kiçik kəsiklərdən yaranan əsərlər

**İsveçrəli rəssam, dizayner Marianne Dubuis kağızda kiçik kəsiklər açaraq rəsm əsərləri yaradır. O, insanın hiss və duyğularını və İsveçrə təbiətini əks etdirən mürəkkəb səhnələri ustalıqla işləyib hazırlayır.**



64 yaşlı dizayner uşaqlıqdan bu sənətlə məşğul olur və günün təxminən altı saatını ona sərf edir. İstər ağ, istərsə də rəngli kağızlardan düzəldilmiş sənətkarlıq nümunələrini dünyanın bir çox yerində - İsveçrə, Fransa, Almaniya, Yaponiya və digər ölkələrdə nümayiş etdirir.

Rəssam kəsik kağızlardan yaratdığı rəsm əsərləri ilə İsveçrəni təmsil etməsindən qürur duyduğunu, bunların milli dəyərləri təmsil etməyin bir yolu olduğunu deyir.

Rəssamın əsərləri İsveçrədə fəaliyyət göstərən “Beurret” auksion evində böyük məbləğə satılır.

Qeyd edək ki, İsveçrədə bu sənəti təbliğ etmək və yaşatmaq üçün Kağız Kəsmə Assosiasiyası fəaliyyət göstərir. Mərkəzdə 500-ə qədər rəssam çalışır.

*F. SALMANOVA, “Xalq qəzeti”*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4890
SİFARİŞ 1943
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00